*Uşaq ədəbiyyatı xəzinəsindən*



# ABDULLA ŞAİQ

*Bibliografiya*

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

***Uşaq ədəbiyyatı xəzinəsindən***

# Abdulla Şaiq

(Abdulla Axund Mustafa oğlu Talıbzadə)

***Biblioqrafiya***

**Bakı – 2016**

**KBT** Я19:Ш+Ш 5(2=Аз)7-4я1
**UOT** 016:821.512.163-05

**Tərtibçilər:** **Nazilə Tahirova,** *Əməkdar mədəniyyət işçisi*
**Leyla Qafarova**
**Tünzalə Əzizova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,** *Əməkdar mədəniyyət işçisi*

**Ön sözün müəllifi:** **Alxan Bayramoğlu,** *filologiya elmləri doktoru, professor*

**Rəyçilər:** **Kərim Tahirov,** *professor, Əməkdar mədəniyyət işçisi*
**Ülkər Talıbzadə,** *Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Gülbəniz Səfərəliyeva,** *Əməkdar mədəniyyət işçisi*

**Abdulla Şaiq:** biblioqrafiya /tərt. ed.: N.Tahirova, L.Qafarova, T.Əzizova; ixt. red. və burax. məsul Ş.Qəmbərova; red. G.Səfərəliyeva; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 448 s.

Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış şair Abdulla Şaiq Talıbzadənin həyat və yaradıcılığına həsr olunmuş bu biblioqrafiyada görkəmli şairin 1906-2016-cı illərdə dərc edilmiş əsərləri və onun haqqında yazılan materiallar öz əksini tapmışdır. Göstərici ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978 9952 504 45 3**

© F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016

# Tərtibçidən

2016-cı ildə XX əsr Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, xalq müəllimi, şair, nasir, dramaturq və tərcüməçi Abdulla Şaiq Talıbzadənin anadan olmasının 135 illiyi tamam olur. Abdulla Şaiq əlinə qələm aldığı gündən ömrünün sonunadək, təxminən 60 il yaratdığı bədii əsərlərlə milli ədəbiyyatımızın zənginləşməsinə çalışmış, ədəbi fikrin, maarif və mədəniyyətin inkişafına müəyyən təsir göstərmişdir. Doğrudan da, əgər Şaiq olmasaydı, Azərbaycanda məktəb və maarif işi, uşaq ədəbiyyatı onun qızıl fonduna daxil olan əsərlərdən məhrum olardı. Azərbaycan ədəbi fikir tarixində göstərdiyi xidmətlərə görə Abdulla Şaiqi kiminləsə müqayisə etmək mümkün deyil.

Abdulla Şaiqin istər uşaq pyesləri, istərsə də dram əsərlərinin bu günədək teatrların repertuarında özünəməxsus yeri var. Hazırda Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının, ədibin adını daşıyan Azərbaycan Dövlət Kukla Teatrının repertuarında bu gün də maraqlı, öz aktuallığını itirməyən əsərləri tamaşaya qoyulur. İnanırıq ki, ədibin əsərlərinin ömrü Azərbaycan xalqının və mənəviyyatının ömrü qədər olacaq.

Abdulla Şaiq haqqında ilk biblioqrafiya 1985-ci ildə nəşr edilmişdir (Abdulla Şaiq. Biblioqrafik göstərici /tərt. M.M.Həsənova; N.M.Teymurova; Az.SSR EA-nın Mərkəzi Elmi Kitabxanası.- Bakı: Elm, 1985). Bu biblioqrafik göstərici 1978-ci ilə qədər olan dövrü əhatə edir. Lakin 38 il ərzində görkəmli ədibin əsərlərinin və onun haqqında materialların kifayət qədər çap olunduğunu nəzərə alaraq, Respublika Uşaq Kitabxanası yazıçının yaradıcılığını tam və küll halında işıqlandırmaq məqsədilə bu fundamental biblioqrafik vəsaitin tərtibinə qərar vermişdir.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları tərəfindən tərtib olunan və ədibin ədəbi-ictimai fəa-





liyyətini tam şəkildə əks etdirən bu fundamental biblioqrafik göstərici 1906-2016-cı illərdə dərc olunan materialları əhatə edir.

Göstərici dörd hissədən ibarətdir:

I Hissə - Abdulla Şaiqin əsərləri;

II Hissə - Abdulla Şaiq haqqında;

III Hissə - Xarici dillərdə;

IV Hissə - Köməkçi göstəricilər.

Göstəricidə "Abdulla Şaiqin müdrik deyimləri", "Abdulla Şaiq görkəmli şəxsiyyətlər haqqında", "Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Abdulla Şaiq haqqında" adlı bölmələrdə verilmiş materialların müxtəlif oxucu qruplarının marağına səbəb olacağı da şübhəsizdir.

"Abdulla Şaiq" fundamental biblioqrafiyasının əhəmiyyətli cəhətlərindən biri də ənənəvi çap məhsulları ilə yanaşı, görkəmli ədibin Mənzil Muzeyində mühafizə olunan qiymətli fond materiallarını, əlyazmalarını, məktublarını və şəxsi arxiv sənədlərini də əhatə etməsindən və həmin materialların biblioqrafiyaya əlavələr şəklində verilməsindən ibarətdir.

Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə Abdulla Şaiqin əsərlərinin və onun haqqında yazan müəlliflərin əlifba göstəricisi tərtib edilmişdir.

Biblioqrafik göstərici geniş oxucu kütləsi – tələbələr, tədqiqatçı-alimlər, bütün ədəbiyyat həvəskarları üçün nəzərdə tutulmuşdur.

Yəqin ki, vəsaitdə müəyyən çatışmazlıqlar da vardır. Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssis və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və iradlarını, rəylərini Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç. 88;
**E-mail:** childlibbaku@yahoo.com

# Abdulla Şaiq
(1881-1959)

Abdulla Şaiqin həyat və yaradıcılığı ədəbiyyat tarixinin həm akademik nəşrlərində, həm ali və ortaixtisas məktəblərinin dərsliklərində, həm də digər müxtəlif nəşrlərdə özünə yer almaqdadır. Bundan başqa müxtəlif almanaxların, müntəxəbatların tərtibində ədibin əsərlərindən istifadə edilir. Oxucu və mütəxəssislər bütün bu və digər çoxçeşidli, zəngin nəşrlərdən onlara lazım olan hər hansı əsərin və ya ona həsr edilmiş elmi-nəzəri xarakterli ədəbiyyatın əldə edilməsində müxtəlif çətinliklərlə üzləşirlər. Həmin çətinliklərin aradan qaldırılması, axtarılan hər hansı ədəbi və elmi əsərin tezliklə əldə edilməsi, vaxt itkisinin maksimum azaldılması ilə yanaşı işin səmərəliliyinə şərait yaradılması üçün ayrı-ayrı yazıçılara həsr edilmiş biblioqrafik nəşrlərin xüsusi əhəmiyyəti vardır. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının Abdulla Şaiqin həyat və yaradıcılığına həsr etdiyi biblioqrafiya bu baxımdan son dərəcə böyük əhəmiyyətə malikdir.

Biblioqrafik nəşrin başa gətirilməsi üçün onun tərtibçi müəllifləri hər bir faktın orada öz lazımi yerini tapmasına qüsursuz nail olmaq naminə son dərəcə səbr və diqqətlə onlarla, yüzlərlə qəzet, jurnal, kitab, təqvim və s. nüsxələrinə, onların səhifələrinə, kitabxana kataloqlarına, arxiv materiallarına, məktub və xatirələrdə verilən qeydlərin, edilən işarələrin izi ilə şəxsi fondlara, ev və xatirə muzeylərinə və s. müraciət etməli, əldə etdikləri faktları dönə-dönə bir-biri ilə tutuşdurmalı olurlar. İşin çətinliyinə səbəb olan amillər sırasına bizdə ümumən arxiv mədəniyyətinin zəif olması, yəni hər bir yaradıcı adamın öz əsərlərinin taleyi ilə bağlı əvvəldən narahatlıq keçirib onların qorunması, sistemli şəklə salınması ənənəsinin barmaqla sayılacaq qədər adamda müşahidə edilməsi, obyektiv və subyektiv səbəblər ucbatından əlifbamızın bir neçə dəfə (ərəb, latın, kiril, yenə latın) dəyişdirilməsi, müəlliflərin müxtəlif (gizli və açıq) imzalardan istifadə etmələri də





daxildir. Bütün bunlar həmin əlifba qrafiklərinə bələd olmaq, onları səhvsiz oxuya bilmək zərurətini də ortaya çıxarır.

A.Şaiqin biblioqrafiyasını hazırlayan müəlliflər iş prosesində bütün bu göstərilən və qeyd edilən çətinliklərlə qarşılaşmışlar. Ancaq onların vətəndaşlıq fədakarlıqları, iş təcrübələri, səriştə, səbr və elmi-nəzəri hazırlıq keyfiyyətləri, məsuliyyət və öz əməyinə hörmət hissi həmçinin oxucu və tədqiqatçıların dadına çatmaq, onların əməklərini yüngülləşdirmək duyğusundan aldıqları zövq və mənəvi-əxlaqi rahatlıq duyğusu və s. bütün bu maneələrin aradan qaldırılaraq uğurlu bir nəşrin ərsəyə gətirilməsinə stimul olmuşdur.

Biblioqrafiyada Abdulla Şaiqin həyat yoluna, yaradıcılıq fəaliyyətinə dair əsas fakt və tarixlərlə yanaşı əsərlərinin ilk və növbəti nəşr mənbələri, onların yer aldığı çap məhsullarının çeşidləri (kitab, qəzet, jurnal, məcmuə və s.), haqqında yazan müəlliflərin əsərlərinin çapdan çıxdığı nəşrlər, onların təsviri və s. yerli-yataqlı şəkildə öz əksini tapmışdır. A.Şaiq haqqında yazan müəlliflərin, onun əsərlərində yer alan şəxs, obraz və şairin adlar göstəricisi əlifba sırası ilə olmaqla, biblioqrafiyanın hansı səhifələrində yer alması da nəzərə çatdırılmışdır. Bütün hallarda mövcud biblioqrafik prinsiplər lazımi qaydada gözlənilmişdir.

Nəşrin əvvəlində tərtibçilərdən və redaktordan verilən yazılar da oxucuların biblioqrafiyadan istifadələrini daha da asanlaşdırmağa xidmət edir.

"Abdulla Şaiq. Biblioqrafiya" adlı bu mötəbər nəşrin bütün məziyyətləri ilə onun istifadəçiləri və mütəxəssislər tərəfindən maraqla qarşılanacağına, onların stolüstü kitabları sırasına daxil olacağına inanırıq.

Abdulla Şaiq Talıbzadə Azərbaycan ictimai ədəbi və mədəni fikri tarixində görkəmli romantik şair, nasir, dramaturq, ədəbiyyatşünas-alim, tərcüməçi və müəllim kimi özgün yer tutur. Yaradıcılığının çoxşaxəliliyi onun əsərlərinin ideya-bədii keyfiyyətlərinə səmərəli təsir göstərmiş, bütövlükdə A.Şaiq yaradıcılığının yüksək sənət nümunəsi kimi ümumxalq məhəbbəti qazanıb əbədi-

yaşarlığına səbəb olmuşdur. Bu işdə ədibin ailəsi, böyüyüb boya-başa çatdığı elitar ziyalı mühitinin də rolu danılmazdır. Yazıçının oğlu akademik Kamal Talıbzadənin yazdığına görə, onların soyadları XVII əsrdən məlumdur. Həmin əsrdə ulu babaları Molla Talıb qardaşları ilə bərabər Şəmsəddindən Sarvana köçərək burada məskunlaşmışlar. Hazırda Gürcüstan Respublikasının Marneuli adlanan həmin bölgəsində bu nəslin törəmələri yaşamaqdadırlar.

Abdulla Axund Mustafa oğlu Talıbzadə – Abdulla Şaiq 1881-ci il fevralın 21-də Tiflisin Şeytanbazar məhəlləsində anadan olmuşdur. Onun valideynləri – Axund Mustafa və Mehri xanım bir neçə il idi ki, Tiflisə köçərək orada məskunlaşmışdılar. Abdulla böyük qardaşı Yusifdən sonra ailənin ikinci övladı idi. Onun əkiztayı olan qız uşağı doğulandan az sonra tələf olmuşdu. Sonralar Abdulla Şaiq kimi məşhurlaşıb Azərbaycan ictimai-mədəni fikrinin inkişafına və ədəbiyyatına böyük xidmətlər göstərən Abdullanın uşaqlıq və gənclik illəri mədəni bir muhitdə, qabaqcıl fikirli, dərin bilikli ziyalıların əhatəsində və nəzarəti, himayəsi altında keçmişdir. Atası Axund Mustafa Süleyman oğlu dövrünün seçilən bir ruhani ziyalısı idi. O, 1881-ci ilədək Tiflis şəhəri üzrə qazinin müavini, sonra isə Qafqaz şeyxülislamının müavini işləmişdi. Oğlanları Yusiflə Abdulla da ilk təhsillərini Tiflisdə müsəlman uşaqları üçün nəzərdə tutulan altısinifli ruhani məktəbində almışdılar. Bu məktəb təkcə dini təhsil ocağı deyildi. Onun tədris proqramı o zamankı rus-tatar (Azərbaycan) məktəblərinin layihəsinə uyğun idi. Odur ki, bu məktəbdə Abdullanın atası Axund Mustafa ilə yanaşı, Qori müəllimlər seminariyasının məzunlarından Baxşəli bəy və Paşa bəy də dərs deyirdilər. Ölkədə XIX əsrin ortalarından başlayıb getdikcə inkişaf edən maarifçilik hərəkatının ideyaları ilə silahlanan bu ziyalı cavanlar gənc nəslin qabaqcılgörüşlü və vətəndaşlıq duyğuları ilə nəfəs alan fədailər kimi yetişdirilməsi üçün əllərindən gələni edirdilər. A.Şaiq 1889-93-cü illərdə bu məktəbdə ilk təhsilini aldıqdan sonra Xorasana ziyarətə gedən anası qardaşı Yusiflə birlikdə onu da özü ilə aparır. Yusiflə Abdulla təhsillərini Xorasanda davam





etdirirlər. Burada dövrun qabaqcıl fikirli gənclərindən olan, Urmiyədən köçüb gəlmiş Yusif Ziya adlı bir müəllim də dərs deyirdi. Hər iki qardaşın fikri inkişafında, ədəbiyyata, yaradıcılığa və azad düşüncəyə olan sonsuz həvəs və yanğının qüvvətlənməsində xüsusi rolu və təsiri olmuşdur. Təkcə bir faktı qeyd edək ki, böyük qardaş Axund Yusif müəlliminə bəslədiyi sonsuz ehtirama əsasən özünə "Ziya" təxəllüsü götürmüşdür.

1889-cu ilin payızında Mehri xanım oğlu Yusiflə birgə Tiflisə qayıdır. Abdulla isə təhsilini tamamlamaq üçün 1900-cu ilin payızınadək Xorasanda bir tanışlarının evində qalaraq burada bakılı Mirzə Abdulladan və gəncəli Mirzə Bağırdan məntiq və poetika, habelə ərəb şeirinin tarixinə dair dərs alır. Payızda anası Mehri xanım gedib Abdullanı da Tiflisə gətirir. Bir neçə ay burada qaldıqdan sonra əvvəlcə Yusif, sonra isə Abdulla Bakıya köçür.

O, gənc yazıçı Nəriman Nərimanovun və Qori Müəllimlər Seminariyasının məzunu, qabaqcıl maarif xadimi Abbas bəy Minasazovun köməyi ilə müəllimlik hüququ almağa hazırlaşır və az sonra Bakıdakı Aleksandriyski gimnaziyada xüsusi komissiya qarşısında imtahan verərək 25 aprel 1901-ci il tarixli müəllimlik şəhadətnaməsi alır.

Bakıda 5-ci şəhər məktəbində ehtiyatda olan müəllim kimi pedaqoji fəaliyyətə başlayan Mirzə Abdulla 1903-cü ildən Sabunçudakı altısinifli məktəbdə ana dili və şəriətdən dərs deyir. Bu illərdə o, görkəmli ədib və maarif xadimləri Ə.Haqverdiyev, H.Zərdabi, N.Vəzirov, H.Mahmudbəyov, S.S.Axundov, S.Hüseyn, habelə Ə.Hüseynzadə, M.Ə.Sabir, M.Hadi, A.Səhhət, H.Cavid və başqaları ilə yaxından tanış olub dostlaşır. A.Şaiqin milli-mənəvi inkişafında, onda milli ideal və türkçülük düşüncəsinin formalaşmasında böyük qardaşı Yusif Ziya ilə yanaşı, qovuşduğu bu qaynar ədəbi-mədəni mühit də mühüm rol oynamışdır.

A.Şaiq həm bədii əsərləri, həm elmi-pedaqoji, həm də müəllimlik fəaliyyəti ilə bütün ömrünü gənc nəslin təlim-tərbiyəsinə, əsl vətəndaş, layiqli övlad kimi yetişdirilməsinə həsr etmişdir. Tezliklə ədəbi aləmdə və mədəni-maarif mühitində tanınan Ab-

dulla 1905-ci ildə Qafqaz Təhsil Dairəsi tərəfindən Bakı progimnaziyasına sənət və ana dili müəllimi təyin edilir. Azərbaycan müəllimlərinin Bakıda keçirilən birinci (1906) və ikinci (1907) qurultaylarında fəal iştirakı onun həmin qurultayların qərarlarına uyğun olaraq "Uşaq çeşməyi" (1906), "İkinci il" (1907, M.Mahmudbəyov, S.Əbdürrəhmanbəyzadə, S.S.Axundov, F.Ağazadə, A.Əfəndizadə ilə birgə), "Uşaq gözlüyü" (1910), "Gülşəni-ədəbiyyat" (1910), "Gülzar" (1912) adlı dərslikləri hazırlayıb çap etdirməsi və uşaqlar üçün bir-birindən maraqlı bədii əsərlər qələmə alması ilə nəticələnir. Sonrakı illərdə H.Cavid və M.Mahmudbəyovla birgə çalışaraq o, "Türk çələngi", "Milli qiraət kitabı", "Ədəbiyyat dərsləri" və s. dərs kitablarını nəşr etdirir.

A.Şaiq 1921-ci ildə Bakıda Ali Pedaqoji İnstitutun (hazırkı ADPU) yaradılmasında fəallıq göstərmiş və burada Şərq ədəbiyyatından dərs demişdir. 1923-cü ildə ədəbi-pedaqoji fəaliyyətinin 20 illiyi təntənə ilə qeyd edilən A.Şaiq 1931-32-ci illərdə Şuşa pedaqoji texnikumunda, 1933-34-cü illərdə isə Azərbaycan Sənaye İnstitutunda müəllim işləmişdir. 1936-cı ildə APİ-də yenidən Şərq ədəbiyyatı üzrə dərs deyir. Lakin əsas gücünü bədii və ictimai fəaliyyətə sərf edir: "Xasay", "Araz", "Qoçpolad", "Ovçu Məstan", "Nüşabə", "Vətən", "Bir saat xəlifəlik" və başqa povest, roman və pyeslərini, çoxlu hekayə və şeir yazıb çap etdirir. Əsərləri bir neçə dəfə kitab şəklində çapdan çıxır.

1939-cu ildə Gənc Tamaşaçılar Teatrında ədəbi hissə müdiri, 1949-cu ildə isə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətində baş məsləhətçi işləmişdir. A.Şaiq 1946 və 1956-cı il çağırışlarında SSRİ Ali Sovetinə deputat seçilmiş, xalq elçisi kimi şöhrətlənmişdir.

1921-ci ildə Şahzadə xanım Mirzəbəyova ilə ailə qurmuş, üç oğul, bir qız atası olmuşdur.

Abdulla Şaiq Talıbzadə 24 iyul 1959-cu ilədək şərəfli və səmərəli bir ömür sürdü. Xalqını həyat fırtınalarından keçirib tərəqqiyə çatdırmaq üçün şair, nasir, dramaturq, tənqidçi və ədəbiyyatşünas, pedaqoq, tərcüməçi və ictimai xadim kimi çalışdı, vətən





övladlarının xoşbəxt sabaha gedən yoluna zəka və mədəniyyət nuru saçdı.

Uşaqlığından Tiflisin və Borçalı dağlarının ecazkar təbiəti qoynunda və Azərbaycan folklorunun sirli-sehrli əfsanə və nağıllar aləmində saf uşaq xəyallarının nəhayətsiz qanadlarında vətəninə və xalqına, onun təbii və mənəvi sərvətlərinə sonsuz məhəbbət duyğusu ilə bağlanan Abdulla Şaiq Xorasanda və Bakıda xalqın ağır, dözülməz güzəranını gördükcə qəlbi vətəndaşlıq kədəri ilə sıxılırdı. Bu sıxıntı və əzabların nəticəsi "Vətən"[1] şeirindəki aşağıdakı misralarda belə ifadə olunurdu:

Ey çeşmimin önündə mücəssəm vətən, vətən!
Qəlbim kimi ələmlərə həmdəm vətən, vətən!
Fikrim sarayını dolaşırsan zaman-zaman,
Qanlı kəfənlə, dərd ilə toəm vətən, vətən!
Baxdıqca həsrət ilə o solğun camalına,
Çeşmimdə tar görsənir aləm, vətən, vətən!

Şair vətənin gül ləçəklərinə qonan şəbnəmini də dərddən axan göz yaşlarına bənzədir. Düçar olduğu faciənin təsiri ilə sanki donub qalan vətənin bu ağlar vəziyyəti vətəndaş şairin canını üzüb, cismini əridərək zəiflədir. Vətəni canı kimi sevən şairin ilham pərisi "gözəl mələk" də qüssə-qəm içindədir:

Gördükcə dərdini əriyir cismi-natəvan.
Ney tək sızıldayır dili-pürqəm, vətən, vətən!
Qarşımda dərd, matəmə batmış gözəl mələk
Səslər həzin səda ilə hərdəm: vətən, vətən!

A.Şaiq vətənin bu möhnətinin tarixi-ictimai səbəblərini axtarırkən yadına "övladi-naxələf" düşür. Vətən övladının naxələf çıxması fikri ona sonsuz dərd gətirir. Şairin romantik duyğuları-

[1] Şaiq, A. Seçilmiş əsərləri: üç cilddə /Abdulla Şaiq; tərt. ed. K.Talıbzadə.- Bakı: Avrasiya Press, 2005.- S.7.

nın şeir mələyi az sonra göz önündə "Bir quş"[2] poetik obrazında canlanır. Həmin quş dərdli, ələmli və düşüncəlidir. Çünki incə və həssas qəlbə, zərif duyğuya malikdir. Öz nəğmələri ilə şairin, ümumən "məhəbbət əhlinin rəhbəri, irşadı", yolgöstərəni mərtəbəsinə yüksələn bu quşun sədası vicdanları oyadır, vətəndaşları işıqlı gələcəyə səsləyir. Çünki bu çağırışlar, dərdli düşüncə və fəryadlar bir heçlikdən, əfsanədən yox, həyatın özündən, mövcud gerçəklikdən doğur:

Sədası pək dərin təsir edər əfkarə, vicdanə,
Duyurmaqda pək incə duyğular bir şair insanə.
Deyil əfsanə fəryadı, cəfadən gəlmiş əfqanə,
Lisani-hal ilə əyyami-vəsli yad edər bir quş!

Bu quşun dövrün cövr-cəfasından gələn fəqanı övladlarına onların əcdadlarının qəhrəmanlıq və xoşbəxtlik əyyamından şirin və həsrətli nağıllar, tarixi həqiqətlər söyləyir. Tarixi həqiqətləri qəlbin atəşli, romantik qanadlı hissiyyatı ilə qovuşuq şəkildə, "hissiyyati-qəlbiyyə ilə" (A.Səhhət) söyləyən bu quş əslində elə şairin (A.Şaiqin) özü kimi məhəbbət qanadlı hissiyyata malikdir. İlham pərisi ilə bu fikri və hissi qovuşmanı A.Şaiq belə ifadə edir:

Bu quş da mən kimi dünyada hissiyyata malikdir,
Məhəbbətdən vurar dəm, şahrahi-eşqə salikdir.
Cahanda eşq rahı, Şaiqa, neməlməsalikdir!
Mənim fəryadi-məhzunanəmi bünyad edər bir quş.

Beləliklə, Abdulla Şaiqin ədəbiyyata gəlişi romantik bir məzmun və üslubda baş verir. Özü də onun şeir rübabı daim ülviyyət, hürriyyət, mübarizə, işıqlı, xoşbəxt gələcək nəğmələri üstə köklənir. Bu rübabın çalıb oxuduğu nəğmələr vətən övladını ta cocuq-

[2]Şaiq, A. Seçilmiş əsərləri: üç cilddə /Abdulla Şaiq; tərt. ed. K.Talıbzadə.- Bakı: Avrasiya Press, 2005.- S.8.





luqdan başlayaraq tərəqqiyə, fəaliyyətə, layiqli vətəndaş olmağa səsləyir və bu ruhda da tərbiyələndirməyə çalışır. Həmin məqsədə çatmağın yolunu A.Şaiq də, əksər məsləkdaşları və yaradıcı dostları kimi, maarif və məktəblərin inkişaf etdirilməsində görür. Odur ki, vətən övladlarının zamanın inkişaf sürəti ilə ayaqlaşa bilən, yeni tipli proqram və dərsliklərlə təchiz edilmiş təhsil ocaqlarında oxumalarını təmin etmək uğrunda fəal və ardıcıl mübarizəyə qoşularaq, Azərbaycan müəllimlərinin 1906-cı və 1907-ci ildə Bakıda olan I və II qurultaylarının hazırlanması, keçirilməsi və onların qərarlarının həyata keçirilməsində xüsusi fəallıq və pedaqoji ustalıq nümayiş etdirir. Daha doğrusu, o, əməli pedaqoji fəaliyyətini elmi-metodiki işlə – proqram və dərsliklər tərtibi, həm də paralel olaraq bədii yaradıcılıqla davam etdirib tamamlayır. A.Şaiq zamanın tələbinə və maarifçilik hərəkatına uyğun olaraq, Azərbaycan müəllimlərinin I və II qurultaylarında Ana dili və əlifba dərsliklərinə (və dərslərinə) qoyulan tələblərə qurultaylardan az sonra bir-birinin ardınca çap etdirdiyi dərsliklərdən uzun illər Azərbaycan gəncliyinin bir neçə nəsli istifadə etmiş, faydalanmışdır. Bu işi A.Şaiq təkcə müəllim və pedaqoq, metodist kimi yox, həm də klassik uşaq ədəbiyyatımızın poeziya, nəsr və dram janrında bir çox yaddaqalan nümunələrini yaratmaqla görmüşdür. O, bir tərəfdən məktəb şagirdləri üçün dərsliklər hazırlayır, digər tərəfdən həm həmin dərsliklərdə, həm də "Dəbistan", "Rəhbər", "Məktəb" jurnallarında çap edilmək üçün orijinal əsərlər yazır, bədii tərcümələr edirdi. Onun müəllimliyi, elmi-pedaqoji fəaliyyəti ilə bədii yaradıcılığının vəhdət təşkil etməsini, bu yaradıcılıq sahəsinin birinin digərini tamamlamasını nəzərdə tutan professor Yaşar Qarayev yazırdı: "Abdulla Şaiq şair ikən də müəllim, müəllim ikən də şairdir… Şeirdə də, tərbiyədə də məqsədi gəncliyin mənəvi çırağını alışdırmaq idi. Şaiq öz şeirlərini ilk əvvəl dərsliklər üçün yazır, pyes və hekayələrini ən əvvəl tərbiyəvi-əxlaqi bir niyyət və qayə naminə qələmə alırdı. Odur ki, "şaiqlik" sözünün ifadə etdiyi mənəvi-əxlaqi mənanı onun həm müəllimlik, həm də şairlik fəaliyyətində eyni səviyyədə görmək

olar. Müəllim Şaiq də, nasir və şair Şaiq də ilk gündən bir ata qayğısı ilə "cocuqluğa" ana dili öyrədirdi. İndi bu nəcib xidmətin ən yaxşı yadigarı yaradılmasında və inkişafında Şaiqin canla-başla iştirak etdiyi böyük uşaq ədəbiyyatıdır"[3].

A.Şaiq XX əsr uşaq ədəbiyyatımızın yaradılması və inkişaf etdirilməsində ardıcıl və məqsədyönlü şəkildə çalışmış, öz fəaliyyəti ilə bu sahədə bir məktəb yaratmışdır. "…O, müntəzəm və ardıcıl şəkildə həmişə uşaq ədəbiyyatı ilə yaşamış, nəfəs almışdır. Azərbaycan uşaq şeiri və nəsri, dramaturgiyası bütöv və müstəqil bir klassik məktəb səviyyəsində məhz onun yaradıcılığında kamala çatmışdır".

Abdulla Şaiqin ilk mətbu şeiri də uşaqlar üçün yazılmışdır. "Ananın öz oğluna lay-lay deməsi" başlıqlı bu şeirdə Ana öz övladına onun ulu və şöhrətli soykökə, gözəl və zəngin, əsrarəngiz təbiətli vətənə bağlı olduğunu belə başa salır:

Lay-lay mələkim, sevdicigim, yavrucuğum, yat!
Bir də ələ düşməz bu cocuqluq dəmi, heyhat!
Türk oğlusan, əcdadın ulu, şanlı, sərəfraz,
İştə vətənindir, a quzum, şanlı bu Qafqaz.[4]

Həyata qədəm qoyuduğu ilk anlardan ana öz övladının mənəvi-əxlaqi tərbiyəsi ilə yanaşı, həm onun fiziki sağlamlığı qayğısına qalır, həm də yavrusuna parlaq günəşli bir səhər arzulayır.

A.Şaiq uşaq psixologiyasına, onun maraq dairəsi və anlaq səviyyəsinə bələd olan incə zövqlü, həssas duyğulu sənətkar idi. Uşaqların nağıl və əfsanə qanadlı fantaziyası, gördükləri, müşahidələri qarşısında duyduğu heyrət və təəccüb onun şeir və hekayələrində romantik bir vüsətlə əks etdirilmişdir. Bu əsərlərdə romantizmə xas zahiri sadəlövhlük, ilkinlikdən doğan saflıq, heyrət

[3]Qarayev, Y. Min ilin sonu… (XXI əsr və Şərq dəyərləri) /Yaşar Qarayev.- Bakı: Elm, 2001.- S.78.
[4]Şaiq, A. Seçilmiş əsərləri: üç cilddə /Abdulla Şaiq.- Bakı: Avrasiya Press, 2005.- C.II.- S.21.





və varlığı dərk etmək cəhdləri sanki uşaq dünyasının sirli-sehrli aləmindən güc alır. Uşağın ilkin olaraq ətraf aləmə, təbiətə, canlılara göstərdiyi diqqət və maraq şairin "Xoruz", "Keçi", "Uşaq və dovşan", "Yetim cücə" və s. şeirlərində öz əksini həyatdan doğan romantik heyrətin poetik ifadəsi şəklində tapmışdır.

Xoruzun hərəkət və əlamətlərindən təəccüblənib bütün bunların sirrini anlamağa çalışan uşaq ona deyir:

Ay pipiyi qan xoruz,
Gözləri mərcan xoruz!
Sən nə tezdən durursan,
Qışqırıb banlayırsan.
Qoymayırsan yatmağa
Ay canım, məstan xoruz![5]

Hər birimizin uşaqlıqdan əzbər bildiyimiz bu kiçik şeirdə ifadə olunan heyrət və saflıq dolu məna və məzmun dərinliyi, bütün bu cəhətlərin böyük ustalıqla uşaq marağına uyğun ifadəsinin nəticəsidir ki, o, uşaq poeziyamızın klassik nümunələri sırasına daxil olmuşdur. Yaxud "Keçi" şeirində keçinin hərəkətləri ilə yanaşı, onu gözləyən təhlükədən narahat olan uşağın hiss və həyəcanlarını görürüksə, başqa bir şeirdə "Uşaq və dovşan"ın (III, s. 7) dialoqu vasitəsilə digər canlılarla insanın ünsiyyət yaratmaq cəhdinin şahidi oluruq. Dovşanın ondan qaçmasını istəməyən uşaq onu özü ilə dostluğa çağırır:

Dovşan, dovşan, a dovşan:
Qaçma, dayan, a dovşan!
Qaçma səni sevəndən,
Can kimi bəsləyəndən.

[5]Şaiq, A. Seçilmiş əsərləri: üç cilddə /Abdulla Şaiq.- Bakı: Avrasiya Press, 2005.- C.III.- S.10.
**Qeyd:** Bundan sonra üçcildlikdən gətirilən sitatların yeri mötərizədə ancaq cild və səhifə ilə göstəriləcək.

Dovşan isə uşaqdan qaçmasının səbəbini belə izah edir:

Dura bilmərəm, dadaş,
Yanında var Alabaş.
Xəbərdaram işindən,
Qurtarmaram dişindən.

Bu izahatın özündə insan qayğı və həssaslığından doğan məhrəmanə bir münasibət var.

A.Şaiqin uşaq şeirləri həm də uşaqları müxtəlif canlılar, eyni zamanda təbiət hadisələri, çiçəklər, bitkilərlə yaxından tanış etmək, onların xüsusiyyətləri və ətraf aləmdəki yeri barədə anlayış, məlumat və bilik vermək məqsədi daşıyır. Yuxarıda haqqında söz açdığımız şeirlərdən başqa "Quzu", "Bülbül", "Yetim cücə", "Arı", "Kəpənək", "Qızılgül", "Bənövşə", "Zanbaq", "Qərənfil" və s. şeirlər deyilənlərə misaldır. "Səhər", "Payız gecəsi", "Bahar", "Ülkər", "Tonqal" və s. şeirlər balaca oxucularda həm də təbiətə, onun gözəlliklərinə məhəbbət hissi aşılamaq məqsədi daşıyır. Məsələn, dillər əzbəri olan "Bənövşəyəm, bənövşə, düşmüşəm dilə, dişə" misraları ilə başlayan şeirdə bu bahar çiçəyinin xüsusiyyəti barədə – nə vaxt açıb, solması haqda deyilir:

Bahar oldu açaram,
Qar, borandan qaçaram;
Başqa güllər açanda
Mən quş olub uçaram (III, s. 27).

Burada bənövşə çiçəyinin digər çiçəklərdən tez açıb az ömür sürməsi bilərəkdən solub getmək yox, "quş olub uçmaq" kimi ifadə olunur. Bununla şair bənövşənin əbədiyaşarlığı, sadəcə olaraq uçub harayasa getməyi və nə vaxtsa qayıdacağı haqda oxucuda təsəvvür yaradır. Balaca oxucu intizarla bənövşənin "qayıdacağı" günü gözləyir.





Qərənfiləm mən,
Gözəl güləm mən;
Yaşıl saplaqlı
Bir sünbüləm mən (III, s. 26).

Yaxud "Zanbaq" şeirində oxuyuruq:

Zanbağam mən, Zanbağam,
Ay işığından ağam,
Açdığım hər ağ çətir
Ətrafa yayır ətir.

Ağ atlazdan donum var.
Gümüş kimi parıldar.
Mən də gözəl çiçəyəm,
Toxunma, ağ ipəyəm (III, s.27).

Bu misraların hərəsində zanbağın bir əlaməti haqda məlumat verilir. Təsvirlər sona çatanda zanbağın portreti tamamlanır. Şeirin özü kimi onun yaratdığı təsəvvur də yığcam və poetikdir. Yaratdığı təəssürat çiçəyin özü qədər zərifdir.

A.Şaiq təkcə gülləri, çiçəkləri vəsf etmir. O, başqa nəsnə və hadisələrdə də təbiət gözəllərinin və gözəlliklərinin bir əlamətini tapır. Digər şeirlərdə olduğu kimi, şairin həmin şeirlərindəki müşahidə və bənzətmələri də incə və poetik olduğu qədər həm də həyatidir. Məsələn, "Tonqal" şeirində olduğu kimi:

Bir qırmızı güldür tonqal,
Bir dəstə sünbüldür tonqal.
Bağdan dərilmiş lalədir,
İçilməz al piyalədir.

Bir xonçadır al günəşdən,
Həyat gəlir bu atəşdən.

Nə gözəldir şən nəğməsi,
Ruha nəşə verir səsi (III, s.42).

Tonqalla bağlı bənzətmələr, yanarkən “oxuduğu nəğmə”, bu “nəğmənin” onun istiliyinə qarışıb “ruha nəşə, həyat” verməsi uşaqlarda həm də müşahidə, fantaziya, estetik duyum qabiliyyətinin formalaşdırılmasına və inkişafına xidmət edir.

A.Şaiq uşaqlarda bədii zövqün cilalanması, onlarda təmizlik, səliqəlilik, əməksevərlik, elmə, təhsilə maraq və sevgi hissinin aşılanması məqsədi ilə çoxlu şeir yazmışdır. Şairin “Bahar nəğməsi”, “Əkinçi nəğməsi”, “Dəmirçi nəğməsi”, “Məktəbli marşı”, “Vətən nəğməsi”, “Ana yurdum” və s. şeirləri uşaqların musiqi zövqünə, zehni inkişafına, onların vətənpərvərlik ruhunda tərbiyələnmələrinə xidmət edirsə, “Təmizlik” şeiri vacib əxlaqi sifətlər təlqin edir. Şeirdə balaca qəhrəmanın dili ilə deyilir:

Səhər durunca,
Əlimdə fırça
Sildim dişimi,
Bildim işimi.
İnanmırsan, bax,
Dişim ağappaq.
Üstüm tərtəmiz:
Bax, beləyik biz! (III c., s.26)

Uşaqlara bu cür əxlaqi keyfiyyətlər cürbəcür forma və üsullarla aşılanır. Məsələn, yuxarıda misal gətirdiyimiz şeirdə təmizkarlıq, dişə qulluq etməyə çağırış uşağın şəxsində nəzərə çatdırılırsa, zəhmətsevərlik, insanlara gərək olub rahatlıq gətirən iş görməyin vacibliyi və əhəmiyyəti fikri “Arı” şeirində arının nümunəsində verilir. Şeirdə arının dilindən onun öz zəhmətkeşliyi ilə fəxr etməsi belə təsvir olunur:

Arıyam, zəhmətkeşəm,
Bal, mum çəkməkdir peşəm…





Çalışaram doqquz ay,
Hamı məndən alır pay.
Balımdan qoy yesinlər
Mənə “Sağ ol!” desinlər (III, c., s.29).

Zəhmətdən zövq almağın şirinliyi uşaqlar üçün yazılmış “Bir quş” adlı başqa bir şeirdə də diqqətə çatdırılmışdır. Burada balaca qəhrəman özünə yuva quran bir quşun “işdən yorulub duran zaman” şad, xürrəm “Cik-cik” oxumasına böyük maraq göstərir. Şeirin təsir gücü də elə oyatdığı bu maraqdadır.

Uşaqlarda zəhmətsevərlik, valideynlərin köməyinə yetişmək duyğusu A.Şaiqin “Yeni köməkçi” şeirində oğlanın tarlada xış sürən anasına könüllü, öz təşəbbüsü ilə kömək etməsinin təsviri ilə aşılanır. “Layla”, “Oyan, oğlum!”, “Məktəbdə” və s. şeirlərdə isə balaca qəhrəmanlar elm oxuyub tərəqqi etməyə, layiqli vətəndaş kimi yetişməyə çağırılır. Məsələn, “Layla” şeirində Ana öz balasını ancaq yemək-içmək əsiri olmaqdan çəkindirir, böyüyüb “bir azca boy atandan” sonra oxumaq barədə düşünməyə və məktəbə getməyə səsləyir:

Böyü bir az, yeddi yaşa yetgilən,
Səhər tezdən dur, məktəbə getgilən;
Dərs oxuyub yazmağa səy etgilən;
Layla quzum, layla gözüm, yatgilən,
Rahat olub bir azca boy atgilən. (III c., s.7)

A.Şaiq öz balaca qəhrəmanını addım-addım izləyir. Biz onun “Oyan, oğlum!” şeirində sanki “Layla” şeirindəki uşağı artıq məktəb yaşında görürük. Şair bu dövrdə uşağa layla deməyə yox, onu dərsə həvəsləndirməyə, əslində laylanın məzmun və ideyasını dəyişməyə üstünlük verir:

Ağıllı oğlum, oyan!
Qiymətlidir hər zaman.

Tez ol dur, get məktəbə,
Sarıl elmə, ədəbə.
Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu. (III c., s. 14)

“Layla” şeirindən fərqli olaraq “Oyan, oğlum!” şeirinin misraları yığcam, ahəngdar, daha dinamikdir. Bu məziyyətlər şeirin qəhrəmanına şirin yuxu qoynunda uyumaq yox, elm, tərəqqi yolunda hərəkət, fəallıq təlqin edir.

A.Şaiq bilirdi ki, millətin gələcəyi olan uşaqların yüksək səviyyədə yetişmələri onların analarının savadlandırılmasından, elmli olmasından çox asılıdır. Şairə görə, savadlı, elmli və tərbiyəli ananın qucağı millətin gələcəyi üçün bir işıq, nur mənbəyidir. Bu düşüncələrlə “İşıq mənbəyi” şeirində yazırdı:

Qaranlıqdır vətənimin hər bucağı,
Sönmüş ata-babamızın ocağı…
Tərəqqi etməyə lazımdır ancaq,
Tərbiyəli anaların qucağı.
Qadınla hər millət eylər tərəqqi,
Qadındır millətin şamı, çırağı… (II c., s.36)

Bu haqlı qənaətlə A.Şaiq qadınlarımızın təhsil alıb, mənən və ruhən azad olması uğrunda yorulmaz mübarizə aparan həmkarlarının ön sıralarında dayanırdı.

A.Şaiq uşaqlar üçün “Tülkü və Aslan”, “Tülkü və Qurd”, “Aslan, Qurd və Tülkü” və s. təmsillər də yazmışdır. Həmin təmsillərdə düşüncəsizliyin və lövğalığın acınacaqlı nəticəsi, zalımlıq və tamahkarlıq kimi qüsurlar tənqid olunub, ibrətamiz, əxlaqi nəticələr çıxarılır. “Tıq-tıq xanım”, “Tülkü Həccə gedir”, “Yaxşı arxa” mənzum nağıllarında, “Şələquyruq” adlı mənzum hekayəsində folklordan bəhrələnmə yolu ilə balaca oxucularına maraqlı əhvalatlardan bəhs edir. Bu zaman onlarda özündən razılıq, hiyləgərlik və riyakarlıq, tamahkarlıq və ziyankarlıq kimi zərərli vərdişlərdən uzaq olub, ağıllı, sadə və səmimi, dostluqda həmrəy və sədaqətli olmaq kimi əxlaqi sifətlər aşılamağa çalışır.





A.Şaiq gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işinə də xüsusi diqqət yetirmiş, bu mövzuda xüsusən Böyük Vətən müharibəsi illərində marş və nəğmə ruhlu şeirlər yazmışdır. Əgər onun “Ana yurdum”, “Vətən nəğməsi”, “Vətən” şeirlərində yeniyetmə gənclərdə vətənə sevgi, onun qədrini bilmək və uğrunda mübarizə aparmaq fikri və əzmi təlqin olunurdusa, “Zəfər nəğməsi” şeirində qələbə sevincinin təntənəsi şairin sinəsini qabardır. A.Şaiq bu sevincli anlarda da vətənin qədir-qiymətini, onun milli varlığımız üçün əvəzsiz nemət olduğunu bir daha diqqətə çatdırmağı unutmur.

A.Şaiq folklordan və klassik ədəbiyaytdan götürdüyü mövzular əsasında uşaqlar üçün “Tıq-tıq xanım”, “Yaxşı arxa”, “Eşşək üstündə səyahət”, “Ovçu Məstan”, “Sehrli üzük”, “Nüşabə”, “Sultan Səncər və Qarı” mənzum nağıllarını, “Tülkü və Xoruz”, “Dəvə və Siçan”, “Arı və Eşşək”, “Tülkü və Dəvə”, “Dəvə, Tülkü və Qurd” və s. təmsillərini qələmə almışdır. Ədibin uşaqlar üçün yazdığı digər əsərlərlə yanaşı, bu bədii nümunələr də balaca oxucular tərəfindən maraqla qarşılanmış, pedaqoji və elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş, onların bəzilərinin motivləri əsasında uşaqlar üçün cizgi filmləri çəkilmişdir.

Abdulla Şaiq gənc nəslin milli ruhda tərbiyələndirilməsi, uşaqların əsl vətəndaş kimi yetişdirilməsi üçün zamanın fürsət verdiyi bütün imkanlardan bacarıqla istifadə etmişdir. Bu fikrə onun bədii əsərləri və dərslikləri ilə yanaşı ədibin 1918-ci ildə yaratdığı və öz adı ilə “Şaiq Nümunə Məktəbi” kimi məşhurlaşan təhsil ocağı da etibarlı dayaqdır. Həmin məktəbin yaranması haqda akademik K.Talıbzadə “Abdulla Şaiq – 20” kitabının 2001-ci il nəşrinə (kitabın birinci nəşri 1923-cü ilə aiddir) yazdığı “Ön söz”də atasına istinadən belə məlumat verir: “… Ədib (A.Şaiq – red.) nağıl edirdi ki, 1918-ci ildə Azərbaycan Cümhuriyyəti yarandığı dövrdə dərs dediyi Bakı realni məktəbində rəhbəri, mürəbbisi olduğu öz sinfini milliləşdirmişdi: yəni bütün fənləri rus

dilində keçilən sinifdə türk dilində tədris edilməsinə nail olmuşdu. Bu tədbir o zaman çox böyük zəhmətin, vətəndaş qeyrətinin hesabına başa gəlmişdi. Nəzərə almaq lazımdır ki, "Şaiq Nümunə Məktəbi" o dövrdə milliləşdirilmiş ilk rusdilli Azərbaycan məktəbi idi. Şagirdlərin valideynləri ilə bir-bir, ayrılıqda görüşərək, danışaraq Şaiq onlardan övladlarının türk (Azərbaycan) dilində oxumağa razılığını almışdı… Gənc Şaiq nüfuzu və ardıcıl, fasiləsiz əməyi sayəsində öz rəhbəri olduğu sinfi türkləşdirməyə – milliləşdirməyə nail olmuşdu. Bununla Azərbaycanda ilk orta milli təhsilin əsasını qoymuşdu.

Bu, Azərbaycan orta təhsilində böyük inqilab idi. Məhz bu təhsil mərkəzinin əsasında "Şaiq Nümunə məktəbi" yaranmışdı".[6]

A.Şaiq folklor və klassik yazılı ədəbiyyatımızın motivləri əsasında uşaqlar üçün "Gözəl bahar", "Çoban", "İntiqamçı xoruz", "Danışan kukla", "İldırım", "El oğlu", "Vətən", "Fitnə", "Nüşabə", "Şah Abbas", "Qaraca qız", "Tapdıq Dədə" və s. pyeslərini qələmə almış və uşaq dramaturgiyası sahəsində Azərbaycanda yeni-yeni müəlliflərin meydana çıxmasına səbəb olmuş, habelə gənc müəlliflərin qələmlərinin bu sahədə püxtələşməsində öz müəllim və təcrübəli yazıçı qayğısını əsirgəməmişdi.[7] Ədibin uşaq və gənclər üçün yazdığı bu pyeslərini məzmununa, ideya-estetik xüsusiyyətlərinə görə iki qrupa ayırmaq olar: birinci qrupa "Gözəl bahar", "Danışan kukla", "İntiqamçı xoruz", "Ürək tikmək, yaxud qurban bayramı" və s. pyeslər daxildir ki, onlar kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur.

"Gözəl bahar" A.Şaiqin uşaqlar üçün yazdığı ilk pyesdir və bu əsərlə o, Azərbaycanda uşaq dramaturgiyasının əsasını qoymuşdur».[8] Əsərdə Baharla qışın timsalında həyat, ümid və xoşbəxtliklə zülm və əsarət törədən qüvvələr arasında gedən kəskin

[6]Talıbzadə, K. Ön söz. Abdulla Şaiq – 20 /Kamal Talıbzadə.- Bakı: Elm, 2001.- S.3-4.

[7]Bax: Mirəhmədov, Ə. Abdulla Şaiq /Əziz Mirəhmədov.- Bakı, 1956.- S.122-123

[8]Əsədli, M. Abdulla Şaiq və teatr (1910-1958) /Minaxanım Əsədli.- Bakı, 2003.- S.15-16.





mübarizə təsvir edilir. Nəhayət, Baharın "ordu"suna daxil olan Yer, Su, Qaranquş, Torpaq, Çiçəklər və s. qışın "ordusu" Boran, Qar və sairin üzərində qələbə çalaraq şən və xoşbəxt həyatı bərqərar edirlər…

A.Şaiqin ikinci qrupa – yeniyetmə və gənclər üçün nəzərdə tutulan pyesləri sırasına "Bir saat xəlifəlik", "Yazıya pozu yoxdur", "Qafqaz çiçəyi", "İldırım", "El oğlu", "Vətən", "Ana", "Xasay", "Fitnə", "Qaraca qız", "Nüşabə" əsərləri daxildir. Həmin əsərlərin əksəriyyətini o, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının ədəbi-pedaqoji şöbəsinin müdiri işlədiyi dövrdə – 1937-ci ildən sonra qələmə almışdır. Bu peşələrdən "Gözəl bahar", "Danışan kukla", "Bir saat xəlifəlik", "El oğlu", "Vətən" və başqaları folklor motivləri əsasında, "Qafqaz çiçəyi", "İldırım", "Fitnə", "Qaraca qız", "Aldadılmış ulduzlar", "Nüşabə" tarixi mövzuda və klassik yazılı ədəbiyyatdan istifadə yolu ilə, "Xasay", "Vəzifə" isə müasir həyatdan götürülərək yazılmışdır. Ədibin uşaq pyeslərinin əksəriyyəti onun öz sağlığında və sonrakı dövrdə uğurla tamaşaya qoyulmuşdur.[9] Həmin əsərlər uşaqların və yeniyetmə gənclərin dünyagörüşlərinin, bədii-estetik zövqlərinin püxtələşməsində, onlarda əxlaqi keyfiyyətlərin tərbiyə edilməsində böyük rol oynamış və öz aktuallıqlarını bu gün də saxlamaqdadırlar.

Abdulla Şaiq yaradıcılığında səmimiyyət, məhəbbət və ədalətlə süslənmiş işıqlı bir inam, qanadlı romantikadan və soydaşlarının tarixi mənəvi qüdrətindən irəli gələn ümid, əzəmət, nikbinlik hakimdir. Onun ilham pərisi yaşadığı əsrin qeyri-müəyyən gedişlərini anlamağa çətinlik çəkərkən dərin bir vətəndaş narahatlığı ilə "İyirminci əsrə xitab", "Hürriyyət pərisinə" müraciət edərək öz suallarına aydın cavab almağa çalışırdı. "İyirminci əsrə xitab"-da şair-vətəndaş narahatlığının doğurduğu sualların poetik ifadəsi belədir:

[9]Ətraflı bax: Minaxanım Əsədli. Göstərilən əsəri.

Tufanlı ildırımlarının qəhri, hiddəti,
Xofu ümid ilə yaşadır cümlə milləti.
Qaldır buludlu pərdələri, anlasın cahan,
Sönməz günəşmi, ya qara bir kölgədir doğan?
Varmı ümid bir daha feyzü səadətə?
Ya çəkmədə bizi yenə girdabi-zillətə?
Bu qırmızı şəfəqlər içində nihan-nihan
Doğmazmı nur, mehr, məhəbbət cəhan, cəhan?!
Ey vah!.. Ənqərib bu əmvaci-kibriya,
Bir sahilə səfinəmizi sövq edərmi ya?
…Bilməm, bu dağlar, bu məhabətli fırtına
Öksüz bu milləti çıxararmı o bir yana? (II c., s.13)

Əsrin qeyri-müəyyənlikləri qarşısında bəzən təlaş və intizarı artıb ümidsizliyə çevrilən şairin "Şikayətlərim" (II c., s.17) şeirində üzə çıxan vətəndaş duyğuları onun həm də millətin taleyi üçün narahatlıqlarını və təəssübkeşliyini ifadə edir:

Yenə hər yanda hökm edir zülmət!
Yenə söndü o nazənin ülkər!
Gecə-gündüz tapındığım dilbər,
Yenə qaldıq vüsalına həsrət.

Bu vətəndaş narahatlığından çıxmaq üçün A.Şaiq üzünü müdrik və mübariz "vətən qayıqçılarına" tutaraq onları "cəhalətlə mübarizə"yə çağırır:

Noldunuz, ey vətən qayıqçıları!
Qaldı dərya üzündə yelkəniniz.
Susdunuz, yox sədavü şivəniniz,
Ey elin şanlı hayqırıqçıları!

Bu çağırış və hayqırtıların arxasında millətin işıqlı gələcəyinə, xoş, nurlu sabahına şairin sonsuz və qətiyyətli bir inamı dayanır. Təsadüfi deyil ki, A.Şaiqin yaradıcılığı boyu biz "Bir ulduz"a, "Dan ulduzu"na, "Ülkər"ə müraciətlərin, "Bir mələk"lə, "Hürriyyət pərisi" ilə dialoqların şahidi oluruq. Şair özünün "Hurriyyət pərisi"nin belə tez sönməsi ilə barışa bilməyib onu köməyə çağırır ki, işıqlı sabaha ümidini və bu amal uğrunda mübarizə əzmini sönməyə qoymasın:





Müzlim gecə, ətrafı bulud, çən bürüyərkən,
Göz yaşlarımın bəslədiyi ey gözəl ümmid,
Qarşımda təcəssüm edərək ver bənə təyid,
Bu zülmət ilə sübhə qədər ta vuruşum bən! (II c., s.13)

A.Şaiq bu vuruşmada qalib gəlib hürriyyət, ədalət və insanlıq pərisinə çatmaq üçün bütün bəşəriyyəti bir-birinə "dəsti-üxüvvət", "dəsti-vəfa" uzadıb bir-birinin əlini sıxmağa, bununla da əsrlərdən bəri bəşəriyyəti çulğalayan qara pərdələri yırtıb dağıtmağa çağırır. Bu məhəbbətin ilahi, əzəli və əbədi əsasını isə şair

Həpimiz bir yuva pərvərdəsiyiz!
Həpimiz bir günəşin zərrəsiyiz! (II c., s.29)

qənaətində görür. A.Şaiqə görə, bəşəriyyətin bu vəhdətini, onun ilahi eşq həsrətinin vahidliyini heç bir şey – nə dil, nə din, nə irq, nə sərhəd, nə məzhəb, nə millət fərqi ayıra bilməz. Şairin "Sevgi hakim olmalı" şeiri də bu fikir və ideyanın davamı kimi üzə çıxmışdır. Onun qənaətinə görə, insanlar və millətlərarası münasibətlərdə qüvvət kəlməsi və anlayışı aradan tamamilə götürülməlidir:

İnsanlığa qüvvət degil, sevgi hakim olmalı,
Qüvvət sözü insanlığın içindən həp qovulsun.
Hətta bütün Qamuslardan silinməli büsbütün,
İnsanlığın qəlbi, ruhu sevgi ilə dolmalı… (II c., s.72)

İnsanlığı kin və ədavət, qoluzorluluq, təkəbbür və lovğalıq kimi sifətlərin üstələməsi A.Şaiqin eyniadlı əsərində "İki famili-

yanın məhvi”nə səbəb olur. Burada göstərilir ki, Səfərin Telli adlı “nazikəndam, gözəl, pəripeykər, alagöz, şux baxışlı, laləüzar, işvəli, qəmzəli, gözəl qızı” hələ körpəlikdən əmisi Əmir Aslan bəyin oğlu Daşdəmirə beşikkəsdi edilmişdir. Lakin o, Oğuz adlı bir gəncə könül bağlamışdır. Gənclərin bu sevgisinin qarşısını heç bir maneə, insan ruhunun azadlığına buxov olan zərərli adət kəsə bilmir. Tellinin Daşdəmirlə toyu olan gün Oğuz öz sevgilisini götürüb qaçır. Bu hadisə Daşdəmiri və onun nəslini Oğuzun nəsli ilə qan davasına çıxarır…

Şair kədərlə göstərir ki, bu zərərli adət, kin püskürən təkəbbür iki gəncin saf eşqi ilə yanaşı, iki məşhur nəslin yoxa çıxması ilə nəticələnir. Vaxtilə şən qəhqəhələr yüksələn köşkün yerində indi “qəm məkanı” olan xərabələr durur. Bu xərabə isə öz görkəmi ilə “qanlı bir macəraya tənə vurur”.

“Şair və qadın” poemasının qəhrəmanlarına da sevgisiz, ümidsiz və imansız bir həyat zindan kimi görünür. Onların hər ikisi vaxtilə sevginin “sultanları belə titrədən qələsi”nin xoşbəxt, şən duyğulu sakinləri olmuşlar. Lakin qadını sevgilisi xəbər-ətərsiz atıb başqa diyara gedib, şairin isə sevgilisi vəfat edib. İndi bu xəyanəti xatırlayanda qadının “bağrı qana dönür”. Bildirir ki, bu xəyanət nəticəsində

Sanki yer, göy dönmüş bütün tərsinə,
Hər şey saxta, müzlim görünür mənə (II c., s.268).

Şair də təsəllisini hər dəfə sevgilisinin adını çəkəndə onun gözünə görünən xəyalı ilə tapır, ruhunu sevgilisinin ruhu ilə qovuşdurmağa çalışır. A.Şaiqin bu saf, ülvi duyğularla sevən qəhrəmanlarının hər ikisi – Şair də Qadın da özlərinin könül rahatlıqlarını pislik və xəyanətlərlə dolu, tərsinə çevrilmiş cəmiyyətdə yox, ruhi aləmdə və təbiətin şirin, ülvi xatirələri ilə dolu qoynunda, həyat dolu yaşıl bir guşəsində tapırlar.

“İdeal və İnsanlıq” mənzum dramının personajlarının təkcə adlarının göz önünə gətirilməsi A.Şaiqin bəşər övladının gələcəyi





üçün keçirdiyi narahatlıqların mahiyyəti və çatışmazlıqların aradan qaldırılması yolları haqda romantik düşüncə və qənaətləri haqda təsəvvür yaradır. Əsərin iştirakçıları bunlardır: İnsanlıq, İdeal, Vicdan, Ədalət, Mərhəmət, Səadət, Fəlakət, Zülm, Şeytan.

Nə qədər ki, şər qüvvələr bəşər övladının vicdanına hakimdir, İdeal onları tərk etmək qərarına gəlir. Odur ki, İnsanlıq Ədalət, Vicdan, Mərhəmət və sairin qələbəsi, İdealın ona qaytarılması üçün Uca Yaradana üz tutur. Onun çağırışları, duaları “Amin” sözü ilə təsdiqlənir. Bu dəstəyin arxasından gec-tez İnsanlığın öz idealına qovuşacağı inamı boylanır. Birinci Dünya müharibəsinin boğucu tüstü və dumanları içindən ucalan bu inamın arxasında isə A.Şaiqin bəşər övladının və öz əcdadının daim saflıq, ədalət və xilaskarlıq üstə köklənən ruhlarının “Simurğ quşu” şəklində geri dönəcəyinə bəslədiyi romantik qətiyyəti dayanır.

Şair “mən”inin bu qətiyyəti ilə silahlanmış uşağın öz anasına onu intizardan qurtarmaq istəyi ilə dediyi aşağıdakı sözlər də bunu təsdiq edir:

Səbr et, anam, Qaf dağında dərələr
Dolub-daşar, xain əllər quruyar.
Simurğ quşu gülər, günəş də doğar.
Göydən yerə enər sevgi, səadət;
O gün atam yenə gələr səlamət (II c., s.48).

A.Şaiqi bu milli-mənəvi ideal və inam heç vaxt tərk etmir. Həmin nikbinlik şairi cümhuriyyət dövrünun ağır, keşməkeşli mübarizə və çarpışmalar dövründə də işıqlı sabaha, xoş gələcək uğrunda mübarizəyə səsləyir.

***

O dövrdə bütövlükdə türk dünyasının və Azərbaycanın düşdüyü böhranlı vəziyyətindən dərin təlaş keçirən Abdulla Şaiq “Vətənin yanıq səsi” adlı poemasında Vətənin dili ilə ulu babalarımızın şöhrətli keçmişinə nəzər salır. Qafqazın – bu ulu Vətənimizin şən,

xoşbəxt günlərini, bizim ulu nəslimizi sevinclə öz qoynunda bəslədiyini və igid, nəcib övladlarının timsalında özünə həm də etibarlı mühafizlər tapıb daim əmniyyətdə olacağı qənaəti ilə rahatlanır. Ancaq, bu gün vətən həmin nəslin övladlarında əvvəlki təpəri görmədiyindən darılıb rəncidə olduğunu belə ifadə edir:

Babanızdan üzülüncə əllərim
Gözlərimi sizə dikmişdim yalnız.
“Bu qan da o qandan süzülmüş”, deridim,
“Yaman gündə imdadım olursunuz”.

Ümidlərinin doğrulmadığını görən Vətən bugünkü nəslin torpağa, yurda “sahiblik” hissinin zəifləməsinin haradan doğduğu sualına, milli-mənəvi laqeydliyin yaranma səbəblərinə cavab axtararaq qətiyyətlə bildirirdi:

O şən, o bəxtiyar könlüm, dolu qan,
Böylə səfaləti artıq çəkəməm.
Sönməz bəndə əski sevgi və iman,
Yuca başımı alçaqlara əgəməm!

Şairə görə sevindirici haldır ki, şanlı və qüdrətli türkün bugünkü nəsli Vətənin səsinə səs verərək “qanlarının həmin o əski qan olduğunu, ürəklərinin elə əvvəlki duyğularla döyündüyünü, bu yurdun dağ-daşında qurtarıcı qəhrəmanların az olmadığını” bəyan edir:

Beş dünyanın vəhşiləri toplansa,
“Ölüm” – deyə, “Vətən!” – deyə qoşarız.
Bu torpaqlar qanımızla boyansa,
Nəfərimiz qalınca öc alarız.

Vətən oğlu sanki öz Anası qarşısında And içir; o əllər ki, səni qurtarmaq üçün uzanmır, o dillər ki, səni anmır, o ürək ki sənin





üçün döyünmür, qoy onların anaları ağlar qalsın! Bununla A.Şaiq öz yurddaşlarını Vətəni yağı qəsdindən qurtarmaq üçün həmişə hazır, səfərbər olmağa çağırırdı.

Şair başa düşürdü ki, hər tərəfi düşmənlərin sardığı bir şəraitdə aparılan ağır mübarizədə təkbaşına qalib gəlmək çətindir. Bu vəziyyətdən çıxış yolunu o, türkdilli xalqların mənəvi və sosial-siyasi bütövlüyündə, həm də hazırkı nəslin öz qəhrəman keçmişi ilə ruhi-mənəvi qovuşmasında görürdü. “Yeni ay doğarkən” (II c., s. 63-64) şerində təsvir edilir ki, Türk Anası öz oğluna türkün doğan hilalını – işıq haləsi ilə bədirlənmiş ayını göstərərək, bu qız ismətli gözəlin – yenicə doğulan ayın ondan – Türk oğlundan nəsə umduğunu bildirir. O, diqqəti ayın ətrafındakı yeddi ulduza cəlb edərək, deyir ki, bunlar yeddi türk dövlətinin rəmzidir. Həmin ulduzlar ayın ətrafında daha parlaq göründüyü kimi, türk dövlətləri də öz hilalı ətrafında sıx birləşsələr, daha qüvvətli və yenilməz olarlar. Türk oğlu Yavuz Günəşi Aydan və Ülkərlərdən çox sevsə də, bu yeni aya baxarkən onun varlığını özünün də baş aça bilmədiyi qəribə hisslər çulğalayır:

Annacığım! Bən Günəşi Aydan, yeddi ülkərdən
Çox sevirəm. Bilməm şu Aya bən baxarkən
Neçin əski diləklərim dalğalanır gözümdə?
Neçin tatlı, uğurlu bir duyğu doğar üzümdə?
Neçin bu Ay ruhuma pək uyğun, munis görünür?
İçim, dışım, Günəş kibi neçin nura bürünür?

Genetik yaddaşın oyatdığı bu tükənməz, ülvi duyğular türk dünyasının işıqlı sabahına nur çiləyən milli-mənəvi potensiyamızın istinad nöqtəsi, enerji, güc mənbəyi kimi diqqəti cəlb edir. Təsadüfi deyil ki, Anasının köməyi ilə “hər biri bir igidin yıldızı”, daha doğrusu, hər biri bir türk dövlətinin rəmzi olan ülkərlər arasında özünün “pək parlaq o qırmızı ulduzunu” müəyyənləşdirib tapan Yavuzun urəyi həmin ülkərlərin bir-birlərindən uzaq dayanıb sönük görünməsinə dözmür və qəlbində onları birləşdir-

mək, mənən yaxınlaşdırmaq arzusu baş qaldırır. Həmin günəşi – türkdilli dövlətlərin yaxınlaşmasından, mənəvi-siyasi birliyindən yaranan Günəşi "taleyinin ülkəri" adlandıran Yavuz bütün dünyanın bu "günəş"ə tapınması, ondan vulkan kimi həyat qaynaması və Yer üzündə əmin-amanlığın bərqərar olaraq, qurdun quzu ilə otlaması arzusu ilə çırpınır. Bu arzu, ananın xeyir-duası əslində türkdilli xalqları, türk dövlətlərini birliyə çağıran milli-mənəvi bir ideya kimi səslənir. Həmin çağırış öz aktuallığını bu gün də saxlamaqdadır.

Abdulla Şaiq inanırdı ki, bu ideyanı Müsavat Partiyası kimi siyasi bir təşkilat həyata keçirəcəkdir. Şairin istədiyi kimi də oldu. Müsavat xalqımızın milli-mədəni və sosial-siyasi tarixi mübarizələr mərhələsində formalaşan cövhərini mənimsəyərək, islamçılıq, türkçülük və müasirlik ideallarını özünə müqəddəs şüar və amal seçdi. Odur ki, "Türk ədəmi mərkəziyyət firqəsi Müsavata ithaf" etdiyi "Marş" (II c., s.52) şeirində A.Şaiq soydaşlarını bu partiya, onun tutduğu yol və məqsəd ətrafında birləşməyə çağırır:

Dalğalanır üstümdə şanlı Turan bayrağı,
Alovlanır qəlbimdə "Ərkənəgün" ocağı.
Haydı, yola çıxalım, haqsızlığı yıxalım,
Turanda gün doğunca zülmətlə çarpışalım!
Arş irəli, irəlidə cənnət kibi cahan var,
Günəş orda həp doğar, səadət orda parlar.

A.Şaiqi təkcə Azərbaycanın yox, bütövlükdə türk dünyasının, turan ellərinin taleyi düşündürür, narahat edir. Birinci Dünya müharibəsinin sonuna doğru türk dünyasının yadlar pəncəsində çırpınması onun qəlbini vətəndaş kədəri ilə çulğalayır. Həmin bəladan qurtuluş yollarının aranması cəhdi A.Şaiqin "Araz"dan "Turan"a" (II c.,s.59-61) adlı romantik üslubda yazılmış simvolik poemasının əsas süjet xəttini təşkil edir. Əsərdən aydın olur ki, aşiq (vətən aşiqi) öz sevgilisinin ətrafını qara quzğunların alaraq, başlarını onun dizinə söykəməsi xəbərindən bərk sarsılıb. Onun





qəlbini parçalayan sevgilisinin ümidsizlik girdabında "gözlərindən inci kimi yaşlar axıdıb, gül kimi gündən-günə solmasıdır". Şair vəziyyətdən yeganə çıxış yolunun türk oğlunun öz əlində olmasında görür. Təsadüfi deyil ki, yadlar pəncəsində inləyən gözəl də inilti ilə soruşur ki, Türk dünyasında, Turan elində məni qurtaracaq bir ər yoxdurmu? Bu gözəlin yeganə sevgilisi onun halalca nişanlısı türk oğludur. Ona görə belə nalə çəkir:

Nerdə o türk nişanlım, o qoç igid qəhrəmanım?
Yolunu pək gözlədim, yol ver ona, Yaradan!
Yel atına binsin də, gəlsin bəni qurtarsın.
Sevmədigim şu xain başları həp qoparsın.
Şu sehrli tilsimi qırsın namus eşqinə,
Quruntulu bir kədər çökmüş Turan elinə (II c., s.59).

Bu acı xəbər "Araz"ın vasitəsilə "Kür"ə, oradan da hər ikisinin səyi ilə Coşqun dənizə çatdırılır. Coşğun dəniz eşitdiklərindən qəzəblənərək ildırım kimi çaxır, onun kirpiklərində şimşəklər oynaşır və Turan ellərini saran dalğalar bütün əngəlləri aradan qaldırır. Sehrli divlərə yedikləri nə varsa qusdurulur. Turan elində əmin-amanlıq bərpa ediləndən sonra dəniz ancaq dalğacıqlarla, ləpələrlə oynaşır. Onun göbəyində zümrüd bir ada, adanın ortasında isə altun kərpicli bir köşk görünür. Poema belə bir romantik sonluqla qurtarır:

Köşkün qarşı tərəfi qızıl alma bağıdır,
Ayaq bassa daş olur, hər kəs ora yağıdır.
Qızıl alma bağında gəzər dünya gözəli,
Gülər coşğun sevinclə Türkün əlində əli (II c., s.61).

Göründüyü kimi, şair Turan ellərinin simvolu olan dünya gözəlini divlərin əsarətindən xilas edərək öz romantik təxəyyülündə onun əlini rəmzi şəkildə Türk oğlunun əlinə tapşırır. Özü də onlar "Qızıl alma bağında" qərar tuturlar. Çünki qədim türk (Azərbay-

can) inamına görə, Qızıl alma əbədiyaşarılıq, cavanlaşdırma simvoludur. Türk cütlüyü bu bağda qərar tutmaqla əslində türk dünyasının və türk nəslinin əbədiyaşarılığını təmin etmiş olur. Turan ellərinin işıqlı sabahı, türk gözəlinin azadlıq və istiqlaliyyətinin romantik bədii əksi Abdulla Şaiqin şair-vətəndaş idealının bəşəriliyindən və nurlu sabaha, Türk dünyasının azadlıq və səadətinə dərin inamından güc alır. Bununla yanaşı, şair vəziyyətdən çıxış yolunu daha çox reallıqda axtarırdı. "Həyat – sevməkdir" (II c., s. 66) şeirində A.Şaiq böhranlı və pəjmürdə halında ilham pərisi ilə ülfət tapıb bu dünyaya daha möhkəm bağlanmağa özündə güc tapır. Bu həyat, hürriyyət pərisinə bağlanan aşiq yaşamağın, həyatın mənasını anlayaraq belə qənaətə gəlir ki:

Həyat – sevmək, pəriciyim, sənin üçün yaşamaq,
Gecə-gündüz çalışaraq, sənə qovuşmaq ancaq.
Bax, bu dadlı həqiqəti həp sən mənə anlatdın,
Acı, sönük həyatıma işıq saçdın, bal qatdın.
Sən sevdirdin o iyrənib çiyrindiyim həyatı,
Gözlərimdə şirinlətdin bu sisli kainatı.
Mənə yeni həyat verən, günəş verən sənsən, sən!
Sevmək – iştə yaşamaqdır, yaşamayır sevməyən!

Abdulla Şaiq milli ədəbiyyatın tarixində görkəmli nasir kimi də tanınır. Onun "Məktub yetişmədi", "Köç", "Araz" və s. əsərləri XX əsr Azərbaycan nəsrinin klassik nümunələri sırasına daxildir. Təsadüfi deyil ki, XX əsrin əvvəllərində Azərbaycan ictimai-bədii fikrində mövcud olan yaradıcılıq təmayülləri özünü A.Şaiq yaradıcılığında, eləcə də bədii nəsrində bu və ya başqa şəkildə göstərməkdədir. İdeya-estetik əsasında maarifçilik duran həmin yaradıcılıq istiqamətlərinə realizmlə yanaşı, romantizm və sentimentalizm də daxil idi.

Elmi ədəbiyyatda A.Şaiq romantik bir ədib kimi dərk və qəbul edilir. Bununla yanaşı onun yaradıcılığında sentimentalizmin də kifayət qədər çəkiyə malik olduğu son vaxtlar daha sistemli şə-





kildə təsdiq edilməkdədir.[10] Doğrudan da, ədibin istər poeziyasında, istərsə də nəsr və dramaturgiyasında romantizmlə sentimentalizm özünü paralel şəkildə göstərir. Belə əsərlərdən biri "İki müztərib, yaxud əzab və vicdan" (I c., s. 464-494) romanıdır. Bu roman A.Şaiqin ilk nəsr əsəri olub, bəzi cəhətlərinə görə İ.Getenin "Gənc Verterin iztirabları" əsərini xatırladır. Burada hadisələr Sitarə ilə Cavad arasında baş verir. Əhvalatı iki nəfərin məktublarından və baxışlarından öyrənirik.

"İki müztərib…" romanının təhkiyəsi epistolyar üslubdadır. Burada zahirən hadisələrə müəllif müdaxiləsi yoxdur. Hətta iki müztərib – Sitarə və Cavad haqqında məlumatlar da onların məktublarından alınır. Romanın süjeti də, hadisələrin inkişaf dinamikası da məktublarda söylənilən hadisələrin ardıcıllığı ilə inkişaf edir. Oxucu məktubdan məktuba qəhrəmanların mənşəyi, qəlb aləmi, duyğu və düşüncələri, keçirdikləri sevinc, nəşə, əzab və sarsıntıları ilə yaxından tanış olub, onların yaşantılarının təsiri altına düşür. A.Şaiqin bədii sənətkarlıq qüdrəti "İki müztərib…" romanının ideya-estetik kamilliyini və təsir gücünü təmin edir.

İlk görüşdən bir-birinə vurulan hər iki gənc sevgi duyğularını ancaq öz ürək dostlarına açmaq imkanına malikdirlər. Sitarə təbiətin ictimai mühitdən ən uzaq və saf qoynundan şəhərə gəlmişdir. O, günlərin birində pəncərədən küçəni seyr edərkən adını bilmədiyi solğun bənizli, şıq görkəmli bir oğlana – Cavada vurulur. Öz növbəsində Cavad da Sitarəyə vurulmuşdur. Gənclərin iztirablı günləri də bu vurğunluqdan sonra başlayır; çünki nə Sitarə sevgisini hələ adını bilmədiyi oğlana – Cavada açmağa fürsət və özündə cəsarət tapa bilir, nə də Cavad özünün evliliyi ucbatından Sitarəyə bəslədiyi hisslərini büruzə verə bilir. Onlar vicdani saflıq, əxlaqi təmizlik, milli əxlaq, qızlıq isməti və kişilik dəyanəti ilə eşq cazibəsi arasında qovrulurlar.

[10] Bax: Həşimov, H. Azərbaycan ədəbiyyatında sentimentalizm: filol. elm. nam. alim. dər. al. üçün təqdim ed. dis.-nın avtoreferatı /Hüseyn Həşimov.- Naxçıvan, 1998.- S.15-17. Babazadə, B. Azərbaycan sentimentalizmi /Baba Babazadə.- Bakı: Universiteti nəşriyyatı, 2003.- S.68-73.

Sitarənin uşaqlıq və yeniyetməlik dövrü təbiətin qoynunda keçmişdir. O, dəfələrlə "təbiətin yaşıl ormanlarda xəlq etliyi gözəlliyi, lətafəti seyr etmək üçün… yaşıl, lətif otlar üzərindəki almaz paraları kimi parlayan şəbnəmlərdən ətəyinin, qundaralarının (ayaqqabılarının) bütün-bütünə islanmasının" fərqinə varmadan nəşəli günlər keçirmişdir. Bütün bunlar Sitarəni "rəqiqül-qəlb" (incə qəlbli) etmişdir. Ona görə Sitarənin bu sevgisindən xəbər tutan Rəmziyyə ona xəbərdarlıq edir ki, "əksəriyyən riqqəti-qəlb çox da mənfəətli olmayır. İnsanı böyük-böyük təhlükələrə düçar edir. Onun üçün rəqiqül-qəlb olmaqla bərabər bir az da istiqamət və mətanət lazımdır". Ancaq bu nəsihətlər, qızlıq isməti və qüruru qarşısında Sitarə ruhunu saran eşq atəşi qarşısında öz gücsüzlüyünü günbəgün etiraf etməyə və bu məhəbbətin gücü ilə hesablaşmağa məcbur olur…

Cavad da "on səkkiz, on doqquz radələrində (burada: yaşlarında – red.) bir pəri yavrusu,… bir mələkpərə" kimi qiymətləndirdiyi Sitarənin əsiridir. Ancaq evliliyi və bir uşağının olması onun qarşısını kəsir. Sitarəyə nisbətən Cavad özünün daha çıxılmaz hala düşdüyünü etiraf edir. "Bilsəniz, bu pəri yavrusundan (Sitarədən – red.) saçılan sevda qığılcımları nə qədər qəlbimi rahətsiz edir. Bəradər, indi isə özümə daha yazığım gəlir. Zira o məndən daha məsud. O yalnız bir sevda vərəminin pəncəsində boğulursa, mən həm sevda, həm vicdan pəncəsində əzilməkdəyəm. İkincinin əzabı daha şiddətli deyilmi?"

Nəhayət, Cavad da sevda pəncəsində öz iradi gücünü itirib vicdanının səsini qulaqardına vuraraq zövcəsindən və yavrusundan ayrılmaq qərarına gəlir. Ancaq sevgililərin nəşəli günləri tezliklə reallıq tufanının fırtınalarında qərq olur; Cavidin arvadı Sitarəgilə gələrək onları məsələdən agah edir. Qıza məlum olur ki, Cavad evli və üç yaşında bir qız atası imiş. O, dostuna məktublarının birində özünün evliliklə sevgi arasında qalıb necə iztirablar keçirdiyini belə ifadə edir: "İndisə, bəradər, çox fəna bir mövqedəyəm. Hər iki tərəfdən dəhşətli. Əgər bu tərəfə meyil olursam, mühit, vicdan məni boğacaq və əgər o tərəfi tutursam, atəşi-sevda





məni yaxacaq, ruhumu parçalayacaq olur. Nə edim, söyləyiniz, nə edim? Əlavə, zavallı zövcəciyim də mənimlə fəna müamilədə bulunmamış, cocuq kimi məni sevmiş, süsləmiş. Bir dəqiqə belə mükəddər olmama macal verməyərək, dürlü-dürlü lətifələrlə, mərhəmətlərlə könlümü almış, canı, ruhu qədər sevmişdir. Bilsəniz indiki dalğınlığım zavallı qadına nə qədər təsir etmiş və soldurmuşdur. Onu indi necə atım? Vicdanımı, namusumu necə parçalayım? Bu üç-dörd sənə zərfində tikdiyi sıcaq yavasını necə dağıdım? Vicdana yakışır şeymi? Siz söyləyiniz, bəradər, mümkünmü? Ah, nə isə düşünməkdən saçlarım belə ağardı»[11].

Eşqinin bu atəşindən Cavad yatağa düşür. Titrətmə-qızdırma içində sayıqlayaraq Sitarəni çağırır. Həyat yoldaşı isə həyəcan və əzablarını öz içində boğmağa, Cavadı yenə nəvazişlərlə əhatə etməyə çalışır. Bütün bunlara baxmayaraq, nəhayət, Cavadın vicdanı onun "üzərinə vulkan kimi fışqıran, dağ parçası kimi yuvarlanan atəşi-sevda içində parçalanaraq məhv olur". O, həyat yoldaşından ayrılır. Bütün bunları – Cavadın evli və uşaqlı olduğunu biləndə Sitarə sarsılaraq, qıyya çəkib huşunu itirir. Cavadın ona dediyi "Gözəl Sitarəm, indiyədək sizinlə mükaliməyə girişməyə vicdanca haqlı deyil idim, zira bir səbəb var idi", - sözlərinin mənasını indi başa düşür. Həm düşdüyü vəziyyət, həm də Cavadın arvadı və körpə qızının imdad diləyən solğun və həyəcanlı sifəti Sitarəni vicdan mühakiməsinə çəkərək "hər an ağır-ağır zəncirlər altında boğur, ruhunu xırpalayır, çox qorxunc, çox müdhiş uçurumlara doğru sürükləyir». Artıq onun üçün həyat "çox müdhiş görünür». Ona görə də xoşbəxtliyini başqasının bədbəxtliyi üzərində qurmaqdansa, "…atəşi-sevda içində əbədiyyətə yuvarlana-yuvarlana imrari-həyat etməyə" qərar verir.

Sitarə vicdan və könül rahatlığı tapmaq üçün yenə şəhər həyatından, cəmiyyətin eybəcərliklərindən qaçıb, təbiətin saf qoynunda, ucqar bir kənddə qərar tutur. Lakin bir tərəfdən yalqızlıq, digər tərəfdən də payızın qəm gətirən ruzigarı ona dinclik vermir.

---

[11] Şaiq, A. Seçilmiş əsərləri: üç cilddə /Abdulla Şaiq; tərt. ed. K.Talıbzadə.- Bakı: Avrasiya Press, 2005.- C.I.- S.474.

Sitarə mülklərinin yerləşdiyi kənddə – "minlərlə bu qaranlıq və cəhalətin təhlükəli uçurumuna doğru yuvarlanan zavallı köy qızlarını" bir otağa yığıb onlara dərs keçməyə başlayır. Ancaq o özündən heç cürə qaça bilmir. Vaxtı ilə atalı və xoşbəxt uşaqlıq illərinin şirin xatirələri də onun yaralı qəlbini ovundura bilmir. Həyətlərində atasının yetişdirdiyi baxçada keçirdiyi xoşbəxt anları, onun daima öz qızını dizləri üstünə alıb ülvi nəvazişlərlə əzizlədiyini bildirən Sitarə sözünə belə davam edir: "Ah, zavallı babam, bircə gözlərini aç da, canlı çiçək dediyin qızına bax: necə solmuş, saralmış, artıq ayaqları məzara doğru titrəyir" (I c., s. 492).

Sitarənin əhvalına uyğun olaraq təbiət də gərgin və qaşqabaqlıdır. Bir ay əvvəl bütün yaşıllığı və gözəlliyi ilə ruh oxşadığı halda, indi çılpaq və qəmgindir. Sitarə öz iztirablarını son nəfəslərində belə yaşayır: "Yata bilmirəm. Şamı söndürüb qaranlıq fikirlər başımın kişəsində qara qarğalar kimi uçuşur. Gözəl və saf xatiratım söndü, məhv oldu. Burdan nerəyə qaçım? Nerəyə qaçırsam, o qaranlıq mazi məni təqib edir, bir an rahat buraxmayır. Alaca səhər pəncərədən üzünü göstərir. Dururam… Ah istəyirəm ki, bir kərrə yenə Cavadın üzünü görəydim, sonra öləydim…» (I c., s. 493)

Uğursuz, nakam sevginin yanğısı ilə şam kimi əriyib sönən Sitarə son nəfəsdə Cavadın – sevgilisinin adını pıçıldayıb, onu arzulayır. Ancaq o, həyatını qeyb etsə də, ilkin, təbii saflığını və vicdani təmizliyini sonadək qoruyub saxlaya bilir.

"İki müztərib…" romanının ideyası, üslubu, təsvir və təhkiyə tərzi, qəhrəmanların daxili, ruhi aləmlərinin ifadəsi baxımından sentimentalizm ədəbi cərəyanının tələblərinə uyğundur. Süjetin və hadisələrin inkişafı qəhrəmanların ümidsizliyi, hiss və duyğularının kövrəkliyi fonunda təqdim edilir.

Romanda hər iki müztəribin məktub yazdıqları həmdərdləri – Rəmziyyə və Ciddi zahirən passiv olsalar da, onlar əsər boyu qəhrəmanların vicdan səsi və A.Şaiqın idealının ifadəçisi rolunda çıxış edirlər. Əsərin sonunda – axırıncı məktubda təhkiyənin ahəngi dəyişir. Ədib sanki birdən-birə romanın sentimental ruhunu dəyişmək, "fikircə romantizm məsləkini təqib etdiyi kimi" əsərini də həmin ruhda, demokratik tərzdə yazdığını bildirir (Bax: s.494).





A.Şaiqin yaradıcılığında sentimental keyfiyyət sonrakı mərhələdə öz yerini romantizmə tərk etsə də, müəyyən məqamlarda, məsələn, "Əsrimizin qəhrəmanları"nda Sona, "Araz"da Almas obrazlarının taleyində, "Qafqaz çiçəyi" və s. əsərlərdə özünü yenə romantizmlə paralel şəkildə ifadə edir. Eyni zamanda ədib özünün yaradıcılıq amalına sadiq qalaraq, sonrakı nəsr əsərlərində sınıq könüllərə, dərdli ürəklərə, uçuq-sökük daxmaların sakinlərinə daha artıq diqqət yetirir. Ancaq bu qəmgin aləmin sakinlərinin ağır güzəranı A.Şaiqi qəmləndirsə də onların daxili dünyalarının cazibəsi və ülviyyəti ədibin ruhuna qol-qanad verir. "Məktub yetişmədi", "Köç", "Əsəbi adam", "Dursun", "Əsrimizin qəhrəmanları", "Araz" və s. əsərlər dediklərimizə dayaqdır.

Bir parça çörək dalınca Bakının neft mədənlərinə işləməyə gələn Qurban ("Məktub yetişmədi") daim ailəsini, balalarının güzəranını, gündəlik ruzisini təmin etmək haqda düşünür, bunun üçün özünü oda-közə vurur. Lakin tale onun üzünə gülmür; ailəsinə yazdırdığı son təsəlli məktubu da ünvanına yetişə bilmir. Qazdıqları neft quyusu fontan vurduğu vaxt Qurban qəzaya düşüb həlak olur. Hekayədə qurbanların acınacaqlı taleyi fəhlə Səfərin dili ilə belə ümumiləşdirilir: "…Bu yerlərin (neft mədənlərinin – red.) hər guşəsinə qədəm bassan, hər ovuc torpağa çəkic vursan fəhlə sümüyü görür, fəhlə fəryadı eşidirsən".

Ancaq mədən sahibi Kərbəlayı Qulunu və onun kimilərini bu insan taleləri yox, neft fantanlarının gətirdiyi gözqamaşdırıcı, dəbdəbəli həyatın məstedici şirinliyi maraqlandırır. A.Şaiq sonrakı və daha irihəcmli nəsr əsərlərində – "Əsrimizin qəhrəmanları" povestində və "Araz" romanında "Məktub yetişmədi" hekayəsində təsvir etdiyi sosial qütblərin – qurbanların, səfərlərin və kərbəlayı quluların sonrakı ictimai-fikri və əxlaqi inkişaf yollarını və talelərini izləməyi qarşıya məqsəd qoymuşdur. Belə ki, "Əsrimizin qəhrəmanları"nda artıq həm fəhlə sinfi, həm də neft burjuazi-

yası nisbətən formalaşmış, cəmiyyətdə öz siması və mövqeyi ilə tanınmağa başlamışdır. Mədən sahiblərinin də, fəhlələrin də öz həyat təcrübəsi və baxışları ilə xeyli irəli getmiş nümayəndələri "əsrimizin qəhrəmanlarına" çevrilməkdədirlər. Ancaq hadisələrin inkişafından məlum olur ki, neft fontanlarının bəxş etdiyi sərvət Kərbəlayı Qulunun və Hacı Kərimin xələflərinə xoşbəxtlik yox, sosial-mənəvi fəlakət və bədbəxtlik gətirmişdir. Çünki qəfildən "süd gölünə düşən" bu adamlar hələ düşdükləri vəziyyətə mənəvi-əxlaqi və sosial-psixoloji cəhətdən hazır deyillər. Ona görə də sərvətin başgicəlləndirici parıltısı onların onsuz da zəif olan mənəvi-psixoloji keyfiyyətlərini tamamilə aşılayır. Ağa Mürsəl, onun ardınca oğlu Əşrəf əyyaşlıq, qumarbazlıq və əxlaqsızlıq girdabına yuvarlanırlar. Ən pisi isə odur ki, hər sonrakı nəsil məhz pis əməllərinə, çürük həyat fəlsəfələrinə görə özündən əvvəlkini kölgədə qoyur. Ağa Mürsəl təkcə özünü yox, ailəsini də fəlakətə sürükləyir. O, əvvəllər bütün sərvətə sahib olmaq yanğısı ilə atasının ölümünü arzulayırsa, bu arzuya çatandan sonra nə dərddən vərəmə tutulub gündən-günə şam kimi əriyən arvadı Məryəmin, nə də həyata yeni-yeni qədəm qoyan oğlu Əşrəfin taleyi ilə maraqlanır. Nəticədə nəslin yuvarlandığı uçurum get-gedə dərinləşir, o isə səhvini düzəltmək əvəzinə hiss edəndə ki, oğlu ona öz anasının qatili kimi baxır "bu yaralı ceyranı (Əşrəfi –A.B.) özünə ram etmək üçün hər gün cibini pul ilə doldurur, arabir özü ilə bərabər kinoya, teatra, hətta kazinoya aparırdı. Bu həyat Əşrəfin əhvali-ruhiyyəsi və əxlaqı üzərində silinməz qara izlər buraxır, dərsə olan eşq və həvəsi get-gedə sönməyə başladığından məktəb ona bir zindan görünürdü". Bütün bunlar səbəbsiz deyildi, çünki Əşrəfi, onun uşaq qəlbini bu həyatda sevgi və ülfətlə nurlandıran yeganə adam anası Məleykə idi. Uşaq bu dayaqdan məhrum olandan, atasının ona göstərdiyi zərərli diqqətdən və yolverilməz tərbiyə üsulundan sonra kəskin surətdə dəyişməyə başlayır: "Məryəmin ölümündən beş-altı ay sonra Əşrəf çox sürətlə dəyişilməyə, əxlaqındakı xəstə, zəif cəhətlər qüvvətlənməyə, daha qabarıq bir





şəkildə üzə çıxmağa başladı. Hər gün sinifdə beş-altı saat oturmaq ona cəhənnəm əzabı kimi müdhiş görünürdü".

Beləliklə, Əşrəf dərslərindən, məktəb həyatından soyumağa başlayır. Fikirləşir ki, həyatda uğur qazanmaq üçün çalışmağa ehtiyac yoxdur. Çünki "atasının sərvəti tükənməz bir dənizdir". Bu cür düşüncələrlə o, içkiyə qurşanır. Hətta məktəbə konyak gətirib sinif yoldaşlarını da öz yoluna cəlb etməyə başlayır. Bütün bu işlərdə isə Ağa Mürsəl həm əməlləri, həm də oğluna verdiyi üzdəniraq məsləhətləri ilə zərərli rol oynayır; o, Moskvada onsuz da oxumaq əvəzinə əyləncə və əxlaqsızlığa, qumar və içkiyə qurşanan oğlu Əşrəfə məktubunda yazırdı: "…İndi ki, oxumağa qərar vermisən, sözüm yox, ancaq canını çox üzmə, keçinmək üçün lazımınca sərvətimiz var! Elm insan özünü idarə və təmin edə bilmək üçün deyilmi? Ye, iç, kefdən qalma, dünyadan istədiyin qədər kam al! Sənə iki min manat göndərdim, kifayət etməsə yaz, yenə göndərim" (I c., s. 196).

Ağa Müräslin bu çürük həyat fəlsəfəsi və oğluna həddən artıq pul göndərməsi Əşrəfi onsuz da yuvarlandığı uçruma daha bərk itələyir. Bütün bunlar, "Əşrəfin əxlaqı üzərində buraxılmış "qara izləri" daha da dərinləşdirir, tərbiyəsinin pozulmasına, mənəviyyatının eybəcərləşməsinə güclü təkan verir. Artıq varlığında zəhərli toxumlar cücərib boy atır və sürətlə inkişaf edib öz təsirini göstərir. Atası öldükdən sonra Bakıya qayıdıb onun varidatına sahiblənən Əşrəfin azğınlığı get-gedə şiddətlənir".[12]

Əşrəfin ruhuna hakim kəsilən, varlığını çulğalayan bu mənəvi eybəcərliyin zərərli toxumlarını povestdə göstərildiyi kimi, "ürəyin dərin guşələrində dəqiqə içində doğub, ağac kimi rişə ataraq bir anda vücudun hər tərəfinə hakim olan" məhəbbət – Sonanın məhəbbəti də zərərsizləşdirə bilmir. "…Çünki onun qəlbindəki o saf, səmimi duyğu, pak və parlaq sevgi çoxdan sönmüşdü, indi onun yerində qara yellər əsirdi". Ona görə də Əşrəf dəlicəsinə sevdiyi, ürəkdən vurulduğu, "…ah, qəlbimin sevinci, ruhumun

[12]İsmayılov, Y. Abdulla Şaiqin həyatı və bədii yaradıcılığı /Yaqub İsmayılov. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1962.- S.116-117.

işığı. Səni kiçiklikdən sevdim. Sənin üçün yaşadım, sən mənim yeganə gözəlimsən", – deyə oxşadığı Sonaya qarşı toylarından cəmi bir il keçəndən – qızları olandan sonra biganələşir... Qəlbinin içini dolduran əvvəlki səmimiyyət və məhəbbət get-gedə sönməyə və boşalmağa başlayır. O, indi müxtəlif bəhanələrlə gecələr evə vaxtsız qayıdır, rəftarında, hərəkətlərində Sonaya qarşı əvvəlki qədər səmimi görünə bilmir". Hətta Sona ilə bərabər cəmiyyət içinə çıxmağı özünə yaraşdırmır. Sonanın ona dediyi "sənə olan eşqim" ifadəsinə Əşrəf istehza ilə "Arvad ağzından birinci dəfədir ki, belə söz eşidirəm. Qadında eşq olmaz, ehtiras olar" (I c., s.252), – deyə cavab verərək onun saf duyğularını təhqir edir, həyat yoldaşına "ismətsiz qadın" deməkdən belə çəkinmir. Əşrəfi saf duyğular, ülvi hisslər deyil, şəhvət və kor ehtiraslar daha çox cəlb edir. Bu işdə onun varlığında kök salan əvvəlki "zəhərli toxumlarla" yanaşı, əhatə olunduğu mühit və Əhməd kimi dostlarının şirnikdirici sözləri də müəyyən rol oynayır. Beləliklə, Əşrəfi də atasının taleyi gözləyir və o, növbəti məşuqələrinin birinin və şöhrət azarlı şəhvani bir qısqanclığın güdazına gedir; güllələnib öldürülür.

Əşrəfin bu acınacaqlı ömür yolunu A.Şaiq sənətkarlıqla əks etdirə bilmişdir. O, öz qəhrəmanına mühitin, pis tərbiyənin qurbanı kimi qəlbən acıyır.

Povestdə təsvir edilən mədən sahiblərindən fərqli olaraq, fəhlələrin nümayəndələri olan Məhərrəm əmi, Zəki, Nəzakət, Rəmziyyə, Yelena, Saşa və b. surətlər isə özlərinin əqli, zehni, fiziki keyfiyyətləri, ictimai fəaliyyətləri, həyat amalları ilə xoşbəxt gələcək soraqlı insanlardır. Xüsusən əgər Məhərrəm əmi cəmiyyətin bütün təbəqələrində qəbul edilən nurlu bir insan, xeyirxahlıq və maarif, tərəqqi, mədəniyyət daşıyıcıdırsa, Zəki həmin işıqlı əməllərin təminatçılarındandır. Bu surətlərin sonrakı hər nəsli daha zəkalı, əzmkar və açıqfikirli, aydın məqsədli mücahidlərdir.

İsgəndər bəy, Əhməd isə cəmiyyətdə formalaşmağa başlayıb, digər təbəqə və siniflər (ruhani, fəhlə və sahibkarlar) arasındakı mədəni, mənəvi bağların möhkəmlənməsini təmin etməyə çalışan





liberal-demokratik görüşlü adamlardır. Bu adamlarda, xüsusən Əhməddə yeni-yeni qazanmağa başladığı ictimai mövqedən və yetimliyindən doğan bəzi kölgəli cəhətlər olsa da, işıqlı keyfiyyətlər də az deyil. Əhmədin Zəki ilə münasibətləri və Zəkinin ona etibarının davamlılığını təmin edən mənəvi keyfiyyətlər fikrimizə dayaqdır.

A.Şaiq yaradıcılığında qadın qəhrəmanlar da ayrıca bir yer tutur və öz talelərinə, xarakterlərinə, həyat, yaşamaq əzmlərinə görə bir-birindən seçilməklə yanaşı, aralarında üzvi bir bağlılıq da var. Hətta onların müəyyən qismi özlərindən əvvəlki bəzi surətlərin tale yolunun növbəti əsərlərdə tamamlanmasına xidmət edir. Məsələn, əgər Gülyaz Aslanı, Çimnaz Qoçpoladı ("Qoçpolad" poeması) ürəkdən sevib, ona arxa, dayaq durur, yeri gələndə Çimnaz kişi paltarı geyib döyüşlərdə Qoçpolada silahdaş olursa, Ayrım qızı kimi tanınan Fatı da Kərim babaya arxadır, daim onun qolundan qaldırır, təsərrüfatını idarə edir. Etibarda, vəfada, dözüm və sədaqətdə bu xanımlar Ballının ("Dursun" povesti) sələfləridir.

Ballı əri Dursunun Güllünü onun üstünə günü gətirməsindən tutmuş oğlu Şərəfin tutulmasına, ərindən qalan mal-mülkün qazı, kəndxuda və koxalar tərəfindən öz aralarında bölüşdürülməsinədək ağır fəlakətə qatlaşır. Uşaqlarını başına yığıb inləyə-inləyə yaşayır". "Qoçpolad", "İki familiyanın məhvi", "Köç", "Dursun" əsərlərində XX əsrə qədərki və XIX əsrlə XX əsrin qovuşuq illəri də buraya daxil olmaqla böyük bir mərhələnin tarixi-etnokulturoloji proseslərinin bədii mənzərələri, işıqlı və qaranlıq səhifələri ilə tanış oluruq. Bütün hallarda xalqımızın milli etnik-mədəni keyfiyyətlərinə və mənəvi əxlaqi dəyərlərinə A.Şaiqin sonsuz məhəbbətini və vətəndaş qayğısını görürük. Eyni zamanda o, öz soydaşlarında əcdadlarımızın qürur doğuran etnik-mədəni keyfiyyətlərini, qəhrəmanlıq, mərdlik, halallıq, əyilməzlik keyfiyyətlərini daim yaşatmağı, soyumuza layiq övlad olmağımızı istəyir və bu tarixi dəyərlərimizi təsirli bədii vasitələrlə oxucularına təbliğ və təlqin edirdi.

Bu əsərərdə tarixi gerçəkliyə uyğun olaraq xalq sinfi təbəqələşmədən uzaq bir bütöv kimi təsvir edilir. Ancaq "Dursun"da sinfi oyanmanın işartılarını, hətta tətbiq edilən fövqəladə vəziyyət rejiminin zindan ağırlığını görürük. "Məktub yetişmədi", "Əsrimizin qəhrəmanları" və "Araz"da isə cəmiyyətdə sinfi təbəqələşmənin artıq ictimai bir proses olaraq getdiyinin və onun törətdiyi sosial-mədəni və mənəvi-əxlaqi ağrıların şahidi oluruq. Həmin ağrılar Məleykə, Qəmər, Sona və Almas kimi qadınların, qızların nisgil dolu ömür yollarında və talelərində bədbəxtlik və fəlakətlərlə əlamətdar olur.

Bu qadınların taleləri oxşar olsa da, ömür yolları, faciəli yaşantılarının mərhələləri fərqlidir. Belə ki, Məleykə əri Ağa Mürsəlin ("Əsrimizin qəhrəmanları") əxlaqsızlığı, ona kobud münasibətləri müqabilində vərəmləyib ölüm yatağına düşür. Bu əsərdə Məleykənin kəskin etiraz və üsyan səsini, demək olar ki, eşitmirik, ancaq son nəfəsdə "gözlərini kirpikləri arasında gizlədərək, titrək və həzin bir səslə: – Ağa Mürsəl, Əşrəf əmanəti!.. Heç olmasa bunu sev!» (I c., s. 188) – deyə bildiyinin şahidi oluruq.

"Araz" romanında isə Qəmər yeri gələndə əri Aslan bəylə mübahisəyə girişir. Məleykə vərəmə tutulubsa, Qəmər əsəb xəstəliyindən əzab çəkir. Həyat yoldaşlarının bəd əməllərindən hansı qadının necə xəstəliyə tutulması da onların xarakterlərindən irəli gəlir, yəni hansının zəif, hansının güclü, üsyankar olmasının göstəricisi, həm də onların tutulduqları xəstəlikdir: xaraktercə zəif olanlar vərəmə, bir qədər çılğınlar isə əsəb xəstəliyinə tutulurlar. A.Şaiq obrazların tale yolunu izləyərkən ən incə detallara belə sənətkarlıqla, bir psixoloq məharəti ilə diqqət yetirmişdir.

"Əsrimizin qəhrəmanları"nda Məleykədən sonra diqqət mərkəzində dayanan qadın surəti Əşrəfin sevgilisi və Ağa Mürsəllə Məleykənin gəlini Sonadır. A.Şaiq bu obraza da xüsusi rəğbət bəsləyib onun halına qəlbən acıyır. Yazıçı öz qəhrəmanının gələcək acınacaqlı taleyini, onun buraxacağı ictimai-əxlaqi və millibəşəri ağrının şiddətini qabarıq nəzərə çatdırmaq üçün oxucunu əvvəlcədən hazırlayır. Bu məqsədlə Sonanı belə təsvir və təqdim





edir: "…Sonanın məhəbbəti daha səmimi, daha kəskin idi. Həyatında birinci dəfə olaraq sevməyə başladığı Əşrəfə qəlbinin sönməz hərarətini, ruhunun ən incə, ən parlaq şəfəqlərini baxş etmişdi. Onun dağ çeşməsi qədər saf qəlbini heç bir kirli əl bulandırmamış, incə, parlaq ruhunu heç bir ləkə qaraltmamışdı. Uşaq ürəkli, pəri xilqətli, sevimli, gözəl bir qız idi. Əşrəfi qəlbi kimi sevəcək, özünü ona sevdirəcək və bəxtiyar yaşaya biləcəklərinə əmin idi" (I c., s.205).

Doğrudan da, Sona öz ərinə və gəlin getdiyi evə qəlbən bağlanır, ürəyinin bütün sevgisini, qəlbinin bütün hərarətini Əşrəfə, yenicə qurduqları ailə ocağının nurlanmasına verir. İlk aylar Əşrəf də ona bağlanır, Sonanın saf sevgisinə səmimiyyətlə cavab verir. Lakin bu, uzun sürmür; "…taleyi bir çox cəhətdən bədbəxt Məryəmin taleyinə bənzəyən yazıq Sonanın da ömrünə zəhər qatılır, günü iztirab və ruhi sıxıntı içərisində keçir".[13]

Ancaq tale oxşarlığına baxmayaraq, Sona xaraktercə mərhum qaynanası Məryəmdən fərqlənir; o, Əşrəfin öz Sonasını başqa qadınlara dəyişdiyini görəndə çəkinmədən ərini ittiham edir. Əşrəfdən "İsmətsiz qadın!" – ünvanlı təhqir eşidəndə üsyan və qəzəblə bunu ondan sübut etməsini tələb edir (Bax: I c., s.259). Bu, Sonanın saflığından, sevgisindən və qürurundan, izzət-nəfsini qorumaq əzmindən irəli gəlir. Sona dünyaya gələcək övladına "bədbəxt taleli adamların" – Ağa Mürsəlin, ya da Məleykənin adlarını qoymağa qorxur. Bu isə övladının gələcək taleyi üçün nigaran olan ananın narahatlığının əlamətidir. Əşrəfin ona xəyanətini və ölümünün səbəbini bilsə də, Sona bu hadisədən dərin sarsıntı keçirib çırpınır. Bu isə onun sevgisinə sədaqəti, ərinə vəfası və qadın fədakarlığıdır.

"Araz" romanındakı Almas da özgün taleyə və xüsusiyyətlərə malikdir. Sona Əşrəflə qonşu və uşaqlıq yoldaşı olduğu kimi, Almas da Poladla eyni vəziyyətdədir. Ancaq Sonadan fərqli olaraq, Almas Poladı anasının tərif dolu təqdimindən sonra yox, elə

[13]İsmayılov, Y. Abdulla Şaiqin həyatı və bədii yaradıcılığı /Yaqub İsmayılov.- Bakı, 1962.- S.117.

əvvəldən, həm də öz ürəyinin hökmü ilə sevmişdir. Atası tərəfindən Varisə verildiyini biləndə Almas vəziyyətdən çıxmaq üçün yollar axtarır, Poladı məsələdən agah etməyə çalışır. Bütün ümid və cəhdləri boşa çıxandan sonra isə özünün tale gəmisinin "heçliklərə, boşluqlara" yuvarlanmasına qatlaşmağa məcbur olur. Bu ağır düşüncələrə dalmasına Aslan bəyin var-dövlətinin parıltıları da mane ola bilmir. Lakin A.Şaiq onun tale gəmisinin "heçliklərə, boşluqlara" yuvarlanmasına yol vermir… Almas ər evinə köçəndən az sonra güllələnmiş Varisin meyidi bəy otağına gətirilir. Bu hadisədən bir qədər sonra biz Alması ata evində öz Poladının yolunu gözləyən görürük…

Sona ilə Almasın anaları Gülcahanla Pakizə də bir-birinqdən fərqlənirlər; əgər Gülcahan var-dövlətə meyilli olub, elə bu cəhətinə görə də Əşrəfə az qala özü elçi düşürsə, Pakizə Aslan bəyin qızıl teştindənsə Arazın ailəsinin, oğlu Poladın saflığına, dəyanətinə və qızının hislərinə hörmətlə yanaşıb onlarla hesablaşmağa üstünlük verir. Ancaq ictimai qanunlar, cəmiyyətdə hökm sürməkdə olan köhnə ənənə və baxışlar hələ "Əsrimizin qəhrəmanları"nda Rəmziyyənin əl-qolunu bağladığı kimi, "Araz" romanında Pakizəni də susmağa məcbur edir, o, ərinin iradəsinə (o, var-dövlətə susayıb düzgün yolda olmasa belə) boyun əyməli olur.

Günəş isə A.Şaiqin yaratdığı qadın surətlərinin ən qüvvətlisi və mükəmməllidir. Müəllif "Araz" romanına qədər Azərbaycan qadınlarında gördüyü ən ülvi, bənzərsiz, saf həyati keyfiyyətləri Günəşin şəxsində canlandırmağa çalışmışdır. Günəş, adına uyğun olaraq, uşaqlıqdan qüvvətli həyat enerjisinə malikdir. O, fiziki gücünə, iradi möhkəmliyinə, ötkəm olduğu qədər də qayğıkeşliyinə və bir çox başqa insani məziyyətlərinə görə sələfi Fatıdan – Ayrım qızından ("Köç") üstündür. Abdulla Şaiq Günəşi belə təsvir və təqdim edir: "…Ata-anası Günəşi ərköyün böyütmüşdü. O, kişi təbiətli, dəlisov, ətli-canlı bir qız idi. Hər gün darvazalarının üstünə çıxıb ayaqlarını sallar, əlindəki iri dəyənəyi darvazanın çərçivəsinə çırpar, yoldan keçənləri seyr edərdi. Dəvəçilərin, arabaçıların haradan gəldiyini, şəhərə nə apardıqlarını soruşar, sonra





amiranə bir səslə: "Atam, atam, Allah xeyir versin!" deyərdi" (I c., s.306).

Günəşin bu amiranəliyi, təbiətindəki hökm-fərmalıq və xeyirxahlıq çoxlarının diqqət və marağını çəkmişdi. Ancaq müəllif onu bir qədər də təfsilatlı təqdim etmək məqsədilə sözünə davam edərək yazır ki, Günəş onu söylətmək istəyənlərin hər birinə onların niyyətlərinə uyğun qısa və bitkin cavab verdiyi kimi, "lovğa cavanları acı-acı iynələr, hər birinin ayıbını üzünə deyərdi. Onu təhqir edən olursa, ildırım kimi yerə atılaraq əlindəki dəyənəklə hücum edərdi… Günəşin bu xasiyyəti hamıya qəribə görünsə də, təmiz əxlaqı, mərdliyi ilə çoxlarında rəğbət oyadırdı. Odur ki, hərdənbir ona elçi gələn də olurdu. Ancaq yaşı iyirmini keçməsinə baxmayaraq, qapısına gələn elçilərin hamısına rədd cavabı vermişdi. Evdə onun bu hərəkətlərindən əsəbiləşir, cəza verir, ancaq heç bir şey ona təsir etmirdi" (I c., s.306).

A.Şaiqin digər qadın obrazlarından fərqli olaraq, Günəş sərbəst düşüncəli, müstəqil fikirli, eyni zamanda həssas qəlbə, sevən ürəyə malik bir qızdır. O, həyatını öz ağlı, öz baxışı, zövqü və könlü ilə qurmaq əzmindədir. Ona görə heç kimlə hesablaşmadan bəyənmədiyi adamların elçilərinə özü rədd cavabı verir, onu cırnatmaq istəyən cavanlara "Atam, atam, tayınızı tapın, mən it-qurd yoldaşı deyiləm", – deyə əlindəki ağacı qapıya çırpa-çırpa etinasızlıq edir. Günəşin bu xasiyyəti Arazın diqqətindən yayınmadığı kimi, Günəş də ona biganə qalmır.

Onlar evlənəndən sonra Günəş ər evinə əsl nur çiləməyə, Arazın ata yurdunu şenəltməyə, onu laləzara çevirməyə, günəş hərarəti ilə onun qəlbinə rahatlıq, ruhuna dinclik gətirmyə başlayır, Arazı "doşab almışam, bal çıxıb" qənaəti ilə sevincə qərq edir. O, hər addımda Araza və oğluna dayaq durur, onların üstündə nanə yarpağı kimi əsirdi. Hətta Araz yaralanıb xəstəxanaya, sonra həbsxanaya düşərək zəiflədiyi zaman Günəş olar-olmaz zinətini – üzük və sırğasını sataraq onun müalicəsi qayğısına qalır. Şuşanın səfalı yaylaqlarında doktor Şamillə gəzintiyə çıxarkən havadakı nəmişlikdən Arazı qorumaq üçün yamaqlı yun şalı və qəlbinin istisi ilə onu bürüyür.

A.Şaiq Arazı da, onun ailəsini də böyük rəğbət və məhəbbətlə təsvir etmiş, onların həyat və fəaliyyəti üçün tələb olunan bütün fiziki və əxlaqi keyfiyyətlərə sözün əsl mənasında Tanrı iradəsi ilə yiyələndiklərini diqqətə çatdırmaq üçün sənətkar qələminin qüdrətini əsirgəməmişdir.

"Araz" romanının əsas qəhrəmanları A.Şaiqin azadlıq idealına uyğun olaraq, simvolik istiqlal mücahidləridir. "Araz"dan "Turan"a" poemasında Araz çayı Turan ellərinin coşub-daşan azadlıq və istiqlaliyyət iradəsini coşqun Xəzərə çatdırdığı kimi, romandakı Araz da Azərbaycan xalqının azadlıq idealını bütün varlığında daşıyan istiqlal gəmisinin sükanından möhkəm yapışmışdır. Günəş isə bu azadlıq və istiqlaliyyət ruhuna, həyat və mübarizə eşqinə öz qəlbinin hərarəti, isti nəfəsi ilə güc, qüvvət verib onu canlandırır. O, ömür-gün yoldaşı Arazı xəstəlik və zəiflikdən qoruyaraq özünün şəfqət və məhəbbət dolu nəvazişləri ilə yenidən canlandırıb gələcək mübarizələrə hazırlayır.

A.Şaiq Arazın ailəsinin güclü, işıqlı sabah ünvanlı, Aslan bəyin ailəsinin isə məhvə məhkumluğunu bədii inandırıcılıqla göstərmək üçün qarşılaşdırma üsulundan və orijinal tablolardan, təbiət lövhələrindən məharətlə istifadə edir. Məsələn, Aslan bəyin evindəki tablolara baxarkən Şamilin diqqətini dəniz fırtınası canlandırılan bir əsər cəlb edir. Əsərdə həmin mənzərə haqqında deyilir: "Buludlu göydən yağış tökülür, ildırım çaxır, coşub qaynayan köpüklü dalğalar fırtınaya tutulmuş gəmini bir top kimi atıbtuturdu. Dəli dalğalar üstündə dağ təpəsi kimi görünən gəmi digər bir dalğa arasındakı uçurumlu dərələri andıran boşluqlar arasına yuvarlanacaq bir vəziyyət almışdı…" (I c., s. 403).

Bu təsvirlərdən və doktor Şamilin Aslan bəyi, Qəməri və Varisi müayinəsinin nəticələrindən məlum olur ki, onların hər üçünün ömür və tale gəmiləri həmin tablodakı gəminin vəziyyətindədir. Yaxud Varisin əxlaqsızlıq girdabında məhvə məhkum olduğunu diqqətə çatdırarkən ədib vəziyyətə uyğun ibrətamiz lövhələrdən istifadə edir. Belə lövhələrdən birində görüşünə yüzlük pullardan tikdirilmiş yorğanla gələcəyinə söz verən Varisin yolunu gözləyən əxlaqsız qadının mənzilindəki "otağın bir bucağında hörümçək toruna düşmüş milçəyin... özünü qurtarmaq üçün çalışıb-çapalamasına baxmayaraq hörümçəyin incə tellərlə onun əlayağını möhkəm bağlaması" təsvir olunur. Bu təsvirdən də aydın olur ki, Varis indiki halında hörümçək torunda – ölümün pəncəsində çırpınan həmin milçəyin vəziyyətindədir.





Bundan fərqli olaraq, A.Şaiq Arazla Günəş haqqında danışarkən tamam başqa peyzajlara müraciət edir. Xüsusən Arazla Günəşin Qarabağdakı istirahət günlərini təsvir edərkən onların ovqatlarına uyğun peyzajlara romanda sıx-sıx rast gəlirik. Belə təsvirlərin birinə diqqət yetirməklə A.Şaiqin Arazın ailəsi və Aslan bəyin ailəsi, onların aqibətləri barədəki qənaətlərini öyrənmək olar.

Əsərdən məlumdur ki, Aslan bəyin ailəsi də Qarabağa istirahətə gedir və iş elə gətirir ki, onlar da Arazla Günəşin qaldığı evin qonşuluğunda otaq kirayələməli olurlar. A.Şaiq həmin binanın həyətindəki mənzərəni belə təsvir edir: "…Şamil… onların (Arazla Günəşin – A.B.) evlərinin qarşısındakı iki çinar ağacının sərin, məftun edən mənzərəsinə baxıb zövq alır və gözlərini kiçik bir küləkdən yarpaqları daimi hərəkətdə olan bu iki çinardan ayırmırdı. Pəncərələrin qarşısında yan-yana dayanmış bu iki qollu-budaqlı qocaman çinarın yaşıl başları boşluqlarda geniş-geniş nəfəs alırdı. Təbiət bu iki uca və nəhəng çinarda heç bir nöqsan yaratmamışdı. Onların arasından qaynayan sərin bir çeşmə yol açdığı kiçik çınqıl daşları üzərindən xoş ahəngli bir şırıltı ilə böyük çaylara doğru axıb gedirdi. Bu iki ağacdakı sağlamlığı nəzərə çarpdıra bilmək üçün təbiət sanki qəsdən bir az uzaqda xəstə və cılız iki söyüd ağacı da yaratmışdı. Hər səhər şəfəq söküldükcə bu mənzərə tamamilə başqa bir şəkil alırdı: ilk şəfəq selləri hücuma başlayınca bu iki çinar başdan-başa titrək, çəhrayı sədəflər içində parıl-parıl yanırdı" (I c., s. 407).

A.Şaiq öz qəhrəmanlarını – Arazla Günəşi qol-budaqlı qoşa çinara bənzətməklə qalmır, o, həmin çinarların arasından axan həyatverici çeşmə ilə günəşin ılıq, gözqamaşdırıcı, min bir ahəngə

çalan şəfəqlərini və bir az uzaqdakı qoşa, xəstə söyüd ağaclarını da buraya əlavə edir. Burada xəstə ağacların məhz söyüd kimi təqdim edilməsinə də təsadüf kimi baxmaq olmaz; axı, Aslan bəyin ailəsi də bu söyüdlər kimi xəstə, cansız olub barsızlığa məhkumdurlar.

A.Şaiq, bütün bu mənzərəni tamamlamaq, onun ideya-estetik təsir gücünü artırmaq məqsədilə sözünə belə davam edir: "Sizə təqdim etdiyim iki bəxtiyar (Arazla Günəş – A.B.) pəncərələri bu gözəl mənzərəyə açılan doktorun (Şamilin – A.B.) otağı ilə yan-yana olan o biri otaqda yaşayırdı. İri gövdəli, vücudca sağlam və xoşsima olan bu iki nəfərin qıpqırmızı yanaqları gəncliklərindən bir şey itirməmiş kimi saf və parlaq idi, geyimləri, həyat və rəftarları da çox sadə və səmimi idi. Həyatın acılarını ifadə edən simalarında həm də həyata ayaq basdıqları ilk gündən onlarla bərabər doğmuş nəşəli bir təbəssüm oynayırdı» (I c., s. 407).

A.Şaiq peyzajlardan obrazların keçirtdikləri psixoloji sarsıntıları oxucunun nəzərində canlandırmaq üçün də istifadə edir. Məsələn, Poladı sevdiyi halda, iradəsinin əksinə olaraq Varisə ərə verilən Almas gəlin köçməzdən bir az qabaq bibisi qızı Dilguşa ilə artırmada oturub söhbət edərkən birdən bağların içindən bir burulğan qalxır: "Birdən-birə qopan şiddətli külək bostanın ortasında qumları tünd bir tüstü kimi burum-burum havaya sovurub, ətrafı sıx sarımtıraq dumana bürüdü". Bu külək bostan çəpərlərinin tikanlarını da yerindən qoparıb havaya sovurur: "Tikanlar sürətlə fəza dərinliklərinə, boşluqlara doğru yüksələrək gözdən itirdi. Dilguşa əlini Almasın əlinə vuraraq: – Almas sən də bu axşam belə uçub gedəcəksən? – dedi.

Almas kədərli bir səslə:

– Heçliklərə, boşluqlara! – deyə pıçıldadı" (I c., s. 436).

Elmi ədəbiyyatda A.Şaiqin təbiət lövhələrinə münasibəti onun romantik təbiətindən gəlmə bir hal kimi qiymətləndirilmişdir. Bu haqda Ə.Mirəhmədov yazır: "…Təbiət Şaiqi ən canlı, ən cazibədar bir aləm kimi maraqlandırmaqdan əlavə, gah onun lirik qəhrəmanı üçün ictimai fırtınalardan sığınacaq yeri, gah da bu





qəhrəmanın özü kimi dərdli bir aləmdir… Daha doğrusu, bu dövrün şeir və hekayələrində təbiət eşqi əsas etibarilə romantizmə məxsus olan bir hiss, romantiklərdə təsadüf edilən mənəvi-psixoloji bir xüsusiyyətdir».[14]

Ümumiyyətlə, romantiklərdə təbiətə, simvollara, tarixi və mifoloji qəhrəmanlara yeri düşdükcə məqsədli şəkildə, qəhrəmanın daxili təlatümlərini canlandırmaq məqsədilə müraciət adi haldır. A.Şaiq də "Araz" romanında bu üsullardan bol-bol istifadə etmişdir. Araz, Günəş, Pakizə, Varis obrazları kimi, Almas və Poladın da adları onların təbiətlərinə uyğundur; Almas qiymətini və saflığını taleyin iradəsi ilə qoruyub saxladığı kimi, Polad da möhkəm və əyilməzdir. O, həyatda aldığı ilk sarsıdıcı zərbədən – Almasını itirmək təhlükəsindən sarsılarkən təmkinini qorumaq üçün özündə güc tapır. Əgər Varis öz valideynləri kimi, xəstədirsə, Polad eşqinin böhranlı anlarında gendəngəlmə bir hərəkət edir; əvvəlki gün balıq ovuna, səhərisi dovşan ovuna, üçüncü gün isə yeni tapdığı işə gedir. Araz kimi o da bacarıqlı, nüfuzlu, qürurlu və həssasdır; quyunun dərinliyində qazma baltasının sındığını onun səsindən bilir.

Poladın həyat və mübarizə yolu da atasının davamı təsiri bağışlayır. Oxucu inanır ki, tezliklə Polad həbsdən qayıdıb öz Almasına qovuşacaq, xalqı Almas parıltılı, yaqut dəyərli, Günəş hərarətli və şəfəqli, Araz ömürlü azadlığa, həyat və nəşə dolu istiqbala qovuşduracaq. Romanın ideyası da Abdulla Şaiqin "Araz"a qədərki əsərlərində – "Məktub yetişmədi", "Əsrimizin qəhrəmanları" və sairədə inkişaf etdirilən milli ideal və amalların Araz vasitəsi ilə bəşəriyyətin istiqbal, mədəniyyət, mənəviyyat nəhrinə qovuşacağından ibarətdir.

***

Abdulla Şaiqin "Xatirələr" əsərində ədəbiyyat tariximizin qaynar bir dövrünün maraqlı və yaddaqalan hadisələri, ədəbi şəx-

[14] Mirəhmədov, Ə. Abdulla Şaiq /Əziz Mirəhmədov.- Bakı, 1956.- S.54.

siyyətləri haqqında müfəssəl məlumatlar verilir. Bu "Xatirələr"də ədibin uşaqlıq və ilk gənclik illərindən tutmuş XX əsrin 40-cı illərinə qədərki dövr əhatə olunmuşdur. Biz bu əsərdə A.Şaiqin bir ədəbi şəxsiyyət kimi yetişməsini təmin edib, ona bu və ya başqa şəkildə səbəb olan yaddaqalan detallarla tanış olur, onun ayrı-ayrı əsərlərinin yazılma səbəbləri və tarixi haqda məlumat alırıq.

Məlumdur ki, A.Şaiq XX əsrin I yarısında Azərbaycan ictimai-ədəbi və mədəni-maarif mühitində özgün mövqe və nüfuza malik olmuşdur. Bütün bunlar onun dövrünün bir çox şəxsiyyətləri ilə işgüzar yaradıcılıq və dostluq münasibətlərində olmasını təmin etmişdir. "Xatirələr"də yeri gəldikcə həmin şəxsiyyətlər, onların ayrı-ayrı ədəbi hadisə və proseslərdəki rolu barədə ətraflı məlumatlar verilir. Ədib ədəbi-mədəni mühitdə səmimi, qayğıkeş və obyektiv bir adam kimi tanınmışdır. "Xatirələr"in dili aydın, üslubu sadə, təsvirləri əhatəli, canlı olduğu kimi onda öz əksini tapan fakt və hadisələr də inandırıcıdır.

***

Abdulla Şaiq görkəmli romantik şair və dramaturq, nasir olmaqla yanaşı, həm də dövrünün tanınmış tənqidçi və ədəbiyyatşünaslarından olmuşdur. Onun elmi irsində Xaqanidən tutmuş XX əsrin əvvəllərinin görkəmli Azərbaycan, Yaxın Şərq, Qərbi Avropa və Rusiya ədibləri, şairləri haqqında yüksək elmi-nəzəri səviyyəsi ilə seçilən məqalə və oçerkləri vardır. Buraya tənqidçi və ədəbiyyatşünas ədibin "1905-ci il inqilabından sonra yetişmiş ədəbiyyatımıza səthi bir nəzər", "Mirzə Fətəli Axundov haqqında mülahizələrimiz", "M.F.Axundovun "Aldanmış kəvakib"i haqqında mülahizələrim", "Cavidin "İblis" nam hailəsi haqqında duyğularım", "Mirzə Ələkbər Sabirin tərcümeyi-halı", "Dilimiz və ədəbiyyatımız", "Səhhət təxəllüslü Mirzə Abbasqulu Mehdizadənin tərcümeyi-halı", "Şairi-milli və möhtərəm Sabir əfəndi", "Üdəba və şairlərimizin halı" kimi sanballı məqalələrindən əlavə "Gülzar", "Ədəbiyyatdan iş kitabı", "Türk çələngi", "Qiraət", "Ədəbiyyat dərsləri", "Türk ədəbiyyatı" dərsliklərinə yazdığı portret-oçerklər daxildir. Elmi ədəbiyyatda doğru göstərilir ki, A.Şaiq ədəbi yaradıcılığında olduğu kimi, tənqidçilik fəaliyyətində də romantikdir. Bununla yanaşı, onun həm ədəbi-nəzəri baxışlarında, həm də bədii yaradıcılığında realist meyillər də mövcuddur.





A.Şaiqin ədəbi-tənqidi məqalələri, ədəbiyyat tarixçiliyi konsepsiyası özünün nəzəri səviyyəsini və elmi dəyərini bu gün də qoruyub saxlamaqdadır. Onun yaradıcılığının bu sahəsi haqqında akademiklər Məmməd Cəfər, Kamal Talıbzadə, Bəkir Nəbiyev, professorlar Məmməd Məmmədov, Əflatun Saraclı, Kamran Əliyev və b. öz tədqiqatlarında ətraflı söhbət açmış, filologiya üzrə fəlsəfə doktoru Arzu Hacıyeva ayrıca monoqrafiya yazmışdır.

***

Abdulla Şaiqin bədii və elmi-nəzəri irsi Azərbaycan ədəbiyyatı tarixinin qiymətli nümunələrindəndir. Onun poezyia və dramaturgiyasında olduğu kimi, nəsrində də xalqımızın müəyyən bir tarixi inkişaf və düşüncə mərhələsinin bədii-estetik mənzərəsi ilə tanış oluruq. Ədibin "İki familiyanın məhvi", "Qoçpolad", "Qafqaz çiçəyi", "İldırım", "Dursun" və s. əsərlərində (xanlıqlar) feodolizm dövrünün ictimai-tarixi mənzərəsi, məişəti, düşüncə tərzi, mənəvi-əxlaqi baxışları ilə qarşılaşır, "Məktub yetişmədi", "Köç", "İki müztərib, yaxud əzab və vicdan" əsərlərində real həyat həqiqətlərindən doğan yanğılı, sentimental təsvir və təhkiyə üsulu arxasında yazıçının incə və həssas qəlbinin çırpıntılarını duyuruq. "Ovçu bağalar", "Timsah ovu", "Lovğa ovçu", "Meşə gözətçisi" hekayələrində ətraf aləmin cazibədarlığı müqabilində, qəhrəmanların bu gözəlliyə, canlılara qayğıkeş münasibəti fonunda oxucuda təbiətə məhəbbət və qədirşünaslıq təbliğ olunur. "Sözün qiyməti", "Usta Bəxtiyar", "Cümənin qəzəbi" əsərlərində müəllif folklor motivlərinə söykənib, xalq hikmətindən qidalanırsa, "Hitlerin yuxusu"nda faşizmin iç üzü, vəhşi təbiəti ifşa edilir, "Xasay", "Vəzifə" və digər nəsr əsərlərində müəllim və cəmiyyət, tərbiyə və gənclərin taleyi problemləri diqqət mərkəzində dayanır.

Ümumiyyətlə, Abdulla Şaiqin bədii və elmi-ədəbi irsi özünün hərarətli vətəndaşlıq duyğusu, qanadlı və nikbin romantik vüsəti, işıqlı sabaha sarsılmaz inamı, soykökə möhkəm genetik tellərlə bağlılığı ilə milli ruh və mənəviyyatımıza bu gün də işıq salır. Abdulla Şaiq sənətinin əbədiyaşarlığının sirri, sehri də elə onun bu keyfiyyətlərindədir.

**Alxan Bayramoğlu,**
*filologiya elmləri doktoru, professor*





## Abdulla Şaiqin həyat və yaradıcılığının əsas tarixləri

**1881, 24 fevral** - Talıbzadə Abdulla Şaiq Mustafa oğlu Tiflis şəhərində ruhani ailəsində anadan olmuşdur.

**1889-1893** - Altı sinifli Tiflis məktəbinə daxil olur və IV sinfini bitirir.

**1893** - Anası Mehri xanım və qardaşı ilə birlikdə Xorasana köçürlər.

**1894-1899** - Əvvəlcə ruhani məktəbində, sonra isə Mirzə Yusif Ziya mütərəqqi məktəbində təhsilini davam etdirir, türk, fars və ərəb dillərini öyrənir.

**1900** - Yenidən Tiflisə qayıdırlar və həmin ilin payızında Bakıya köçürlər.

**1901, 22 aprel** - İmperator III Aleksandır adına Bakı kişi gimnaziyasında N.Nərimanovun iştirak etdiyi komissiya qarşısında əla qiymətlə imtahan verib, 608 nömrəli şəhadətnaməyə əsasən orta məktəblərdə "Ana dili" müəllimi hüququnu alır. Rus-tatar məktəbində ana dilindən dərs deyir. II, III və IV siniflərdə ehtiyat müəllim olur.

**1902** - Altısinifli şəhər məktəbinə ehtiyat müəllimi təyin olunur.

| | |
|---|---|
| **1902 - 1904** | - Bakıda yeddinci rus-tatar məktəbində ana dili müəllimi işləyir;<br>- Tiflisdə atası 63 yaşında vəfat edir. |
| **1903 - 1906** | - Sabunçuda altısinifli məktəbdə əlavə dərs deyir. |
| **1905** | - M.Ə.Sabir, A.Səhhət, M.Hadi, H.Cavidlə tanış olur. Bakı üçüncü kişi gimnaziyasında ana dili müəllimi işləyir.<br>- "İki müztərib yaxud əzab və vicdan" romanını yazır. |
| **1906 -1907** | - İlk mətbu şeiri "Laylay", "Dəbistan" jurnalında dərc edilir;<br>- "Molla Nəsrəddin" jurnalı ona parodiya yazır;<br>- Müəllimlər qurultayında proqram komissiyasına seçilir;<br>- "Molla Nəsrəddin"in bağlanmasına etiraz olaraq Stavropoldan teleqram göndərir. |
| **1908** | - Tiflisdə "İkinci il" dərsliyi çapdan çıxır;<br>- "Məktub yetişmədi", "Hürriyyət pərisinə", "Yad et" və s. əsərlərini yazır. |
| **1909 -1910** | - R.Botşalın "Qafqaz çiçəyi" pyesini təbdil edir;<br>- Realnı məktəbdə V.Miskeviçus ilə tanış olur.<br>- "Köç", "Daşqın", "İntiharmı yaşamaqmı?", "Gözəl bahar", "Hamımız bir günəşin zərrəsiyik" əsərlərini yazır. "Qafqaz çiçəyi" |





| | |
|---|---|
| | "Nicat" turuppası tərəfindən tamaşaya qoyulur;<br>- "Tülkü həccə gedir", "Yaxşı arxa", "Tıqtıq xanım", "Şələquyruq", "Murad" mənsur hekayələrini, "Ürək tikmək", "Çoban Məmiş" adlı uşaq pyeslərini yazır;<br>- "Danışan kukla" və "İntiqamçı xoruz" adlı pyesləri ruscadan iqtibas edir. |
| **1910-1911** | - "Günəş" qəzetinin əməkdaşlarından biri olmuşdur. |
| **1911** | - Həyat yoldaşı Raziyyə xanım vəfat edir;<br>- "Dəftəri-hicran", "Şair və qadın", "Bədbəxt ailə" əsərlərini qələmə alır. |
| **1912-1920** | - Bakı realnı məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyir. |
| **1912** | - "Gülzar" dərsliyi çapdan çıxır;<br>- "Nicat" qəzetində Sabirə həsr olunmuş məqalə və şeiri çıxır. |
| **1913** | - "Qafqaz çiçəyi" pyesi Azərbaycanda və Dağıstanda tamaşaya qoyulur;<br>- H.Vəzirovun ədəbi fəaliyyətinin 40 illiyi münasibətilə şeiri, "Şələquyruq" və "Murad" kitabçaları çıxır. |
| **1915** | - "Dan ulduzu" və Məngilisdə "Simurq quşu" şeirlərini qələmə alır;<br>- Birinci Dünya müharibəsi ilə əlaqədar "Əsrimizə xitab" və "İblisin hüzurunda" əsərlərini tamamlayır. |

**1915** - Rus dilindən "Danışan kukla" uşaq pyesini təbdil edir.

**1916** - Dağıstanda "Uşaq bağçası" açmağa çalışır;

**1917** - "Açıq söz "qəzetinin 8 aprel nömrəsində çarizmin devrilməsi münasibəti ilə yazdığı "Xanım əfəndilərə!" məqaləsi dərc edilir;
- İndiki Azərbaycan Dövlət İqtisad Universitetinin binasının birinci mərtəbəsində yerləşən "Nümunə məktəbi"nin əsasını qoyur.

**1918** - İlk dəfə olaraq realnı məktəbin nəzdində milli siniflər yaradır;
- "Əsrimizin qəhramanları" romanını tamamlayır.

**1919** - "Milli qiraət", "Müntəxəbat", "Türk çələngi" və "Ədəbiyyat dərsləri" dərsliklərini nəşr etdirir.

**1920-1930** - V.İ.Lenin adına Azərbaycan Dövlət Universitetində, Şaiq adına Nümunə məktəbində, Bakı qız və oğlan pedaqoji texnikumunda, fəhlə fakultəsində, Əli Bayramov adına qadınlar klubunda müəllimlik etmiş, Azərbaycan ədəbiyyatı tarixi, Azərbaycan dili, Ədəbiyyat nəzəriyyəsi və metodikası fənlərindən mühazirələr oxumuşdur;
- Ali Pedaqoji İnstitutu, fəhlə fakultələri və texnikumları üçün dərslik hazırlayan komissiyanın üzvi olmuşdur;
- Şahzadə xanım Mirzəbəyova ilə evlənir. Altıaylıq kurslarda və birillik Şərq fakültələrində dərsə başlayır;
- "Türk ədəbiyyatı" dərsliyi nəşr edilir.





**1921** - Rayonlarda mədəni-maarif işlərinin təşkilinə kömək üçün Göyçaya, Qaraməryəm, İncə, Diyallı kəndlərinə gedir. Ali pedaqoji institutun yaradılmasında fəal iştirak edir, Şərq ədəbiyyatından dərs deyir;
- "Gənclik marşı", "Üsyan et!", "Şərq gözəlinə" şeirlərini, "Həqiqətə doğru", "Yazıya pozu yoxdur" pyeslərini yazır. Bu əsərlər "Tənqid-təbliğ" teatrında oynanılır;
-"İkinci il" dərsliyi nəşr edilir.

**1922** - Qızı Altunsaç vəfat edir. "Qızım Altunsaça", "Bizimlədir" şeirlərini qələmə alır;
- "Milli qiraət" kitabı çap edilir.

**1923** - Azərbaycan kişi Pedaqoji İnstitutunda ədəbi və pedaqoji fəaliyyətinin 20 illiyi münasibəti ilə təntənəli yubileyi keçirilmiş, 1917-ci ildə milliləşdirdiyi, sonralar institutun hazırlıq siniflərinə çevrilən məktəb Şaiq adına "Nümunə məktəbi" adlandırılmışdır.

**1924** - Ali Pedaqoji İnstitutun üçilliyi münasibəti ilə "İnstitut və Azərbaycan" məqaləsini "Azadlıq pərisinə", "Əmək pərisinə", "Bir az da ataş qat" və s. əsərlərini yazır;
- "Qiraət kitabı", "İkinci il" təkmilləşmiş şəkildə çap olunur.

**1925** - "Ədəbiyyat cəmiyyəti"nin məsul katibi seçilir;
- Yeni türk əlifbası komissiyası "Qiraət kitabı"nı buraxır;

| | |
|---|---|
| | - "Maarif və mədəniyyət" jurnalında M.F.Axundovun "Aldanmış kəvakib", H.Cavidin "İblis" əsərləri haqqında məqalələri dərc edilir. |
| **1926** | - H.Zeynallı, İ.Hikmət, A.Musaxanlı və Mustafazadə ilə birlikdə "Türk dili və ədəbiyyatı proqramı"nı hazırlayır. "Sənət nəğməsi", "Gözlər", "Əməkçi qadınlara" şeirlərini yazır;<br>- "Ədəbi parçalar" məcmuəsində "Molla Pənah Vaqif" məqaləsi çıxır. |
| **1927** | - Qaragilis xatirəsini yazır. "Maarif işçisi jurnalı"nda "1905-ci il inqilabından sonra yetişmiş ədəbiyyatımıza bir nəzər" adlı məqaləsi dərc edilir;<br>- "İldırım" pyesi kitab halında çap olunur. |
| **1928** | - "Əsəbi adam", "Əzim dayı" hekayələrini, silsilə uşaq şeirlərini yazır. H.Zeynallı, A.Musaxanlı, C.Əfəndizadə ilə hazırladığı "Ədəbiyyatdan iş kitabı"nın I hissəsi çap olunur. |
| **1929** | - Zaqafqaziya yazıçılarının dostluq səfərində iştirak edir. Pedaqoji texnikumun 10 illiyi münasibətilə "Gənc müəllimlərə" "Üç lövhə", "Gənclərə" şeirlərini yazır. |
| **1930-1927** | - Bünyadov, Şamilov, Veysovla birlikdə buraxdığı "Dördüncü il"in dördüncü nəşri çap olunur. |





| | |
|---|---|
| **1931-1932** | - Şuşa Pedaqoji Texnikumuna Azərbaycan dili və ədəbiyyatı müəllimi təyin edilir;<br>- "Oktyabr", "İlham qaynağım", "O baxışlar", "Mən də qayaların yalçın başında" və s. əsərlərini yazır. |
| **1932-1934** | - M.Əzizbəyov adına Qırmızı bayraqlı Neft İnstitutunda Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyir. |
| **1933** | - Firdovsinin "Şahnaməsi"ndən "Məzdək və Qubad" hissəsini tərcüməyə başlayır;<br>- "Eşşək üstündə səyahət" kitabçası nəşr edilir. |
| **1934** | - Sovet Yazıçıları İttifaqının üzvlüyünə qəbul edilir;<br>- "Çocuq şeirləri" və "Oyunçu bağalar" kitabları çap olunur. Xəstəliyinə görə pedaqoji fəaliyyətdən uzaqlaşır. Şekspirin "Maqbet" əsərini tərcümə edir. |
| **1935-1936** | - "Azərnəşr" in Uşaq ədəbiyyatı şöbəsində redaktor vəzifəsində çalışır. |
| **1935** | - Gürcüstanda poeziya həftəsində iştirak edir. |
| **1936** | - "Правда" qəzetinin çağırışına cavab olaraq yazılan "Xasay" povesti Azərbaycanda sovet hakimiyyəti qurulmasının 15 illiyi ilə əlaqədar keçirilən müsabiqədə mükafat alır;<br>- APİ-də Şərq ədəbiyyatından saat hesabı ilə dərslərini davam etdirir; |

| | |
|---|---|
| | - Nizaminin "İsgəndərnamə" əsərinin "Şərəfnamə" hissəsinin tərcüməsi ilə məşğul olur;<br>- "Tapdıq dədə" poemasını yazır;<br>- İlk dəfə "Seçilmiş əsərləri", rus dilində "Hekayələr" kitabı çap olunur. |
| **1937** | - "Araz" romanını, "Qoçpolad" poemasını tamamlayır;<br>- "Xasay" pyesi GTT-də oynanılır. |
| **1937** | - Gənc tamaşaçılar teatrında bədii-pedaqoji hissənin rəhbəri vəzifəsində çalışmağa başlayır. |
| **1938** | - "Ovçu Məstan" poemasını yazır;<br>- Nizaminin yubley komissiyasına üzv seçilir. |
| **1939** | - Gənc Tamaşaçılar Teatrının 10 illiyi münasibətilə keçirilən müsabiqədə "Xasay" pyesi ilin ən yaxşı tamaşası hesab edilir. Teatrla bərabər Moskvaya qastrol səfərinə gedir;<br>-"Eloğlu" pyesini bitirir. |
| **1940** | - Azərbaycan SSR Baş Soveti Prezidiumunun fərmanı ilə incəsənət sahəsindəki xidmətlərinə görə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülür;<br>- Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə Gənc Tamaşaçılar Teatrının yaradıcı kollektivi ilə birlikdə iştirak edir, Çaykovski adına Dövlət Konservatoriyasında, Yazıçılar İttifaqında görüşlərdə olur;<br>- Yeni Əlifba Komissiyasına üzv seçilir;<br>- "Eloğlu"nun tamaşası keçirilir;<br>- "Araz" romanı çapdan çıxır. |





| | |
|---|---|
| **1941-1943** | - "Vətən" pyesini yazır və əsər Azərbaycan Dövlət Gənc tamaşaçılar teatrında tamaşaya qoyulur. |
| **1944** | - İ.A.Krılovun anadan olmasının 100 illik yubileyi münasibətilə silsilə tərcümələr edir, "Yarpaqlar və köklər", "Cırcırama və qarışqa" təmsilləri mükafata layiq görülür. |
| **1945** | - SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı ilə "Qafqazın müdafiəsinə görə" və Böyük Vətən müharibəsində "Fədakar əməyə görə 1941-1945-ci illər" medalları ilə təltif edilir;<br>- "Zəfər nəğməsi", "Zəfər müjdəsi", "Ata öyüdü" şeirlərini yazır;<br>- "Ana" pyesi Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyulur. |
| **1946** | - SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı ilə mədəniyyət sahəsindəki xidmətlərinə görə və anadan olmasının 65 illiyi münasibətilə "Lenin Ordeni" ilə təltif edilir;<br>- Azərbaycan SSR Xalq Komissarlığının "Uşaq və Gənclər Ədəbiyyatı" nəşriyyatında redaktor vəzifəsində çalışır;<br>- SSRİ Ali Sovetinə deputat seçilir; |

| | |
|---|---|
| | - “Nüşabə” dramı M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulur. |
| **1947** | - Nizami Gəncəvinin 800 illik yubileyində komissiya üzvü və tərcüməçi kimi iştirak edir. Yubley münasibətilə Gənc Tamaşaçılar Teatrında “Fitnə” oynanılır. |
| **1948** | - S.S.Axundov ilə dostluğunun 40 illiyi münasibətilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında “Qaraca qız” əsəri səhnələşdirilir;<br>- Moskvada SSRİ Ali Sovetinin sessiyasında iştirak edir;<br>- “Seçilmiş əsərləri” və “Qoçpolad” çapdan çıxır.<br>- “Təbriz”, “Sülh və Azadlıq düşmənlərinə”, “Timsah ovu” əsərlərini yazır. |
| **1951- 1952** | - Anadan olmasının 70 illiyi qeyd olunur. “Qoçpolad” poeması və yenidən “Araz” romanı üzərində işləyir. |
| **1953** | **-** “Köhnə dünya” xatirələrini yazır;<br>- Gənc Tamaşaçılar Teatrının 25 illik yubileyində iştirak edir. |
| **1954** | - Uşaq kitabxanasına Abdulla Şaiqin adı verilir;<br>- “Xatirələrim”, “Azərbaycan” jurnalında hissə-hissə buraxılır. SSRİ Xalq artisti Mirzağa Əliyevin vəfatı münasibətilə “Həqiqi sənətkar ölməzdir” xatirəsini yazır. |





| | |
|---|---|
| **1955** | - Ümumdünya Sülh Şurasının müraciətinə cavab olaraq “Mən sülhə səs verirəm”, “Kommunist” qəzetinin 10000-ci nömrəsi münasibəti ilə “10000” məqaləsini yazır;<br>- “Vəzifə” adlı pyes üzərində işləyir. |
| **1956** | - SSRİ Ali Sovetinin Rəyasət heyətinin fərmanı ilə ədəbiyyat sahəsindəki xidmətlərinə görə və anadan olmasının 75 illiyi münasibəti ilə “Qırmızı Əmək Bayrağı” ordeni ilə təltif edilir;<br>- SSRİ Ali Sovetinə deputat seçilir;<br>- Azərbaycan SSR Maarif Nazirliyi kollegiyasının qərarı ilə “Qabaqcıl maarif xadimi” nişanı ilə təltif edilir. Səməd Vurğunun 50 illik yubileyi və vəfatı münasibəti ilə xatirələr yazır. |
| **1957** | - Moskvada SSRİ Ali Sovetinin sessiyasında iştirak edir;<br>- Üç cilddən ibarət “Seçilmiş əsərləri”nin I cildi çapdan çıxır. |
| **1958** | - Köhnə müəllim dostu, sonralar Litva SSR Elmlər Akademiyasının prezidenti və Litva SSRİ Ali Soveti Rəyasət heyətinin sədri V.Miskeviçus haqqında xatirələrini yazır;<br>- “Bir saat xəlifəlik” komediyası tamaşaya qoyulur. |
| **1959**, **24 iyul** | - Vəfat edir. Fəxri Xiyabanda dəfn olunur. |
| **1960** | - Üçcildliyin II, III cildləri çapdan çıxıb. |
| **1966-1978** | - Beş cilddən ibarət külliyyatı nəşr olunub. |

| | |
|---|---|
| **1974, 26 iyul** | - Azərbaycan Dövlət Kukla Teatrına A.Şaiqin adı verilib. |
| **1981** | - Anadan olmasının 100 illik yubileyi keçirilib. |
| **1990** | - Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə ədibin 1914-cü ildən yaşadığı Verxni Naqornı küçəsinin 21 saylı binasında yerləşən (indiki Abdulla Şaiq küçəsi) mənzilinə "Abdulla Şaiqin Mənzil Muzeyi" adı verilib;<br>- Yasamal rayonu MKS-in bir filialına, Nərimanov rayonundakı bir kitabxanaya, Nəsimi rayonundakı 54 saylı tam orta məktəbə və Gəncə şəhəri Kəpəz rayonunun 666 km sahəsi olan bir küçəsinə Abdulla Şaiqin adı verilib. |
| **2001** | **-** Anadan olmasının 120 illik yubleyi qeyd olunub. |
| **2011** | **-** Anadan olmasının 130 illik yubleyi qeyd olunub. |





## Abdulla Şaiqin müdrik deyimlərindən

*O dumanlı fırtınalı kecmişlərdən uzaqlaş.*
*Odlu, mətin addımlarla yürü, yürü, haydı durma arş!*
*İrəlidə inan ki, bir cənnət qədər cahan var*
*Yarın günəş orda doğar, səadət orda parlar....*

***

*Atəşli, munir əməllərinlə*
*Bir gün düşərəm soyuq məzara.*
*Əşari-tərənəpərvərimlə*
*Bir gün susaram dönüb qubarə*
*Bəqta ki, bu şairi-vətəndən*
*Dünyada nə iz qalar, nə bir nam,*
*Üzdükcə səadət içrə şən-şən,*
*Sürdükcə dəmadəm ömrü-xoşkam,*
*Yad et məni-qalibanə yad et!*

***

*Dünyada nə həsəd bildim,*
*nə də kin,*
*İpəkdən yumşağam,*
*Poladdan kəskin,*
*Uymadım sərvətə ada*
*Şöhrətə,*
*Uymadım mənasız kefə, işrətə.*
*Elimin, ölkəmin doğma*

*Oğluyam,*
*Maskam da olmamış*
*Nəyəmsə buyam.*
*Sarsılmaz inamım və*
*iradəm var,*
*Bunlardır yaşadan məni*
*Bəxtiyar.*

***

*Tez ol, dur get məktəbə,*
*Sarıl elmə, ədəbə.*

***

*Hər bir peşənin və elmin təlim və tədrisində müəllimin vücudu böyük şərtdir... Bizim lisan müəllimləri şagirdlərinə heç bir şey öyrətməyib ana dilinin feyz və lətafətindən onları məhrum edirlər.*

***

*Fikircə romantizm məsləkini təqib etdiyim kimi ləfz və mənaca dəxi demokratlıq tərafdarıyam. Onun üçün də mənim əsərlərim ləfz, vəzn və qafiyə etibarı ilə zəngin ola bilməz. Mən ləfzi mənaya və qulağın ləzzətini ruha fəda etmək tərəfdarıyam. Mən, qardaşım, daima qırıq ürəklərdə, yırtıq libaslarda, uçuq-sökük daxmalarda dolaşıram, onların dərd-kədərlərinə şərik olur kimi onlar ilə bərabər gülür, bərabər ağlayıram. Aristokratlığı sevmədiyim üçün onlardan bəhs etməyi sevməm. Olsa belə azdır. Bu qırıq ürəklərin ünsiyyəti təsirindən qəlbimdə təbii qırıqlıq, ruhumda acı bir sönüklük kök saldığı üçün mən ziynətə, kəlmələrin, vəzi və qafiyələrin zahiri gözəlliyinə diqqət edə bilmərəm.*

***





*Bizim el ədəbiyyatımız o qədər vüsətlidir ki, onu yazmaqla qurtaracaq şeylərdən deyil. Millətimizin istedad və məharəti-fitrilərinə və əhval-ruhiyyəsinə aşina olmaq istəyənlər möhtərəm Firidun bəy Köçərlinin "Balalara hədiyyə" kitabçasından istifadə edə bilərlər. O, camaatımızın arasından nağıl, məsəl, tapmaca və şeirləri bir yerə toplamaqla körpələrimizə böyük hədiyyə etmişdir.*

***

*"Hophopnamə"nin döymədiyi qapı, girmədiyi ev qalmadı, onu oxuyanlar da sevdi, oxumayanlar da.*

*Zamanında heç bir şair özünü böyük Sabir qədər xalqa sevdirməmişdir.*

***

*Əsrlərdən bəri sinif ədəbiyyatının çürük və əsassız nəzəriyyələrinin çeynənmiş mövzularının təsiri altında bayağı bir rəng almış ədəbiyyatımıza yeni cərəyan, yeni ruh, yeni rəng verən Mirzə Fətəlidir.*

***

*Hamımız bir günəşin zərrəsiyik,*
*Hamımız bir yuva pərvərdəsiyik.*

***

*Yüksəlmək, həqiqi bəxtiyarlığa catmaq istəyirsənsə, özünü deyil, başqalarını yaşatmağa çalış! Zira ki, həqiqi bəxtiyarlar cəmiyyət üçün yaşayanlardır.*

***

*Mənə dəfələrlə sual verib soruşurlar ki, bədii yaradıcılığıma, yoxsa müəllimliyimə üstünlük verirəm, həmişə tərəddüd etmədən cavab vermişəm: müəllimliyimlə. Mən bu gün yazıçılığımdan ziyadə müəllimliyimlə iftixar edirəm.*

***

*Yaşamaq məramində olan hər bir qövm, yalnız mükəmməl ədəbi dilə malik olmaq sayəsində yaşaya bilər. Lisanı mükəmməl surətdə islah olmuş bir qövmün milliyyətini, qövmiyyətini nə zaman və nə də heç bir silah məhv etməyə qadir olmaz! Zira ki, mükəmməl bir dil zəmanəmizdəki dəhşətli silahların ən qüvvətlisi və ən dəhşətlisidir.*

***

*Məişət və təbiətə dair bu qism şeirlər camaatımızın sağlam bir fikir, ülvi bir hissə malik olduğunu göstərdiyi kimi, dilimizin dəxi nə qədər gözəl və lətif dil olduğunu sübut edir. Bizim el ədəbiyyatımız o qədər vüsətlidir ki, onu yazmaqla qurtaracaq şeylərdən deyil.*

***

*Mən də bu cəbhələrdə vuruşan əsgərəm,*
*Ana Vətən yolunda ölüm olsa gedərəm.*

***

*Ədəbiyyatın ən böyük əhəmiyyəti onun insanlarda yüksək bir qayə və ideal doğurmasından ibarətdir. Şübhəsiz ki, Osmanlı şairlərindən Əbdülhəq Hamidin, Azərbaycanımızda Hüseyn Cavidin əsərlərinin bu xüsusda cəmiyyət üzərində böyük bir əsər və nüfuzu vardır. Bu kimi nəfis əsərlər cəmiyyəti sönük və adi həyatdan tamamilə uzaqlaşdıraraq yüksək bir ideala, ülvi bir həqiqətə sövq edir...*

***

*Balalarımıza məxsus nə teatr, nə kino, nə kitabxana, nə də klub vardı; məktəb xaricində oxumağa kitab tapmırdılar. Gənc nəslimizin bu vəziyyəti məni cox düşündürdü. Buna görə də bu zamanlar məktəblərdə gördüyüm işin bir qismini bədii yaradıcılıqla əvəz etdim. Uşaqlar üçün müxtəlif janrlarda əsərlər yazdım.*





*"Uşaq çeşməyi", "Uşaq gözlüyü" kimi dərsliklərim də şərikli yazdığımız "İkinci il"də "Məktəb" və "Rəhbər" jurnallarında uşaqlar üçün yazdığım əsərlər də belə məqsədlə yazılmışdı.*

***

*Mən ciddi mövzuları qələmə aldığım zaman yazmaqda bir o qədər çətinlik çəkmirəm. Ancaq arada komik sürətlər də yaratmaq lazım gəlir. Bu yerdə qələm artıq işləmir.*

***

*Məişətimizin birər aynası olan hədsiz-hesabsız bayatı-şikəstələrimiz, məsəllərimiz, tapmacalarımız, ürəkləri ən dərindən çarpındıran, ruhları səmadakı şəfəqlərə qədər yüksəldən mahnılarımız, nəğmələrimiz qibtə ediləcək səadətlərdən deyilmi? Hələ əsrlərdən bəri ağızdan-ağıza keçmiş, aşıqlarmızın oxuduğu yanıqlı şeirlər, mahnılar, hekayələr, nağıllar... qiymətli bir xəzinə olduğunu iddia etsək, xəta deyil, zənn edirəm.*

***

*Hər işdə istedad lazım olduğu kimi, müəllimdə də istedad olmalıdır. Bu istedadı olmayanların gözəl bildiyi üsul ilə verdikləri dərslər belə sönük və cansız olur. Sözün qisası hər müəllim üsullarla gözəl aşina olmaqla bərabər, öz mənliyi və şəxsiyyətini də unutmamalıdır.*

***

*Gənclik bizim gələcəyimiz, ümidimiz və bir an belə hərəkətdən qalmayıb çarpan ürəyimiz, damarlarımızda axan həyat qanımızdır... hər bir ata-ana öz övladı ilə fəxr etdiyi kimi, biz – geniş istismar dünyasının əzab və əziyyətlərinə məruz qalmış qocalar da ildən-ilə bir-birindən daha qüvvətli, daha iqtidarlı yetişən gənc nəslimizlə iftixar edirik.*

***

*Hər millətin tərəqqi və fəaliyyətinin başlıca amili elm və əxlaqıdır.*

***

*Sən gəlməsən, xərabaya dönən qəlb abad olmaz*
*Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz.*
*Dodaqlarım gülməz, sönük baxtıma nur saçılmaz.*
*Başqasını istəməm də ey türk, çabuk sən gəl, sən,*
*Bəkləməkdən yoruldum,eh iştə gec qaldın nədən?*

***

*Ədəbi fəaliyyətə başladığım ilk günlərdə məni ən çox məşğul edən sahələrdən biri xalq ədəbiyyatı idi. Xalq folklorunu öyrənmək mənə xalq dilini, xalq zövqünü, xalq adət və ənənələrini öyrətdi.*

***

*Ədəbiyyat və cəmiyyət, cəmiyyət ilə ədəbiyyat bir-birinə mərbutdur. Həyat ilə yan yana yürüyən, bütün qüvvət və hərarəti həyat və mühitdən alan ədəbiyyat dəyərlidir.*

***

*Bizim Qafqaz müsəlmanları arasında teatr ifadəsi məhz düzgün şərh olunmadığından bəzi bixəbər şəxslər teatr tamaşalarını oyunbazlıq hesab edib oraya getməyi öz şənlərinə sığışdırmırdılar. Halbuki, teatr tərbiyəsi və əhəmiyyəti məktəblərdə oxunan dərsliklərdən çox olduğu elm, zəka əhlinə yaxşı məlumdur.*

***

*Uşaqların əsas tərbiyə ocaqlarından olan bu teatr (Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı - M.Ə) çox istedadlı bir aktyor kollektivinə malikdir. Həmin teatrın repertuarını qüvvətləndirmək, müasir həyatı əks edən əsərlərin sayını artırmaq işində təcrübəli dramaturqların teatra çox köməyi ola bilər.*





***

*Hər bir dövrün ədəbiyyatı və ədəbi dili, əsasən doğma xalq dili və zəngin xalq ədəbiyyatı üzərində qurulmalıdır.*

***

*Tərbiyə təməldir, elm isə o sağlam təməl üzərində qurulmuş gözəl və möhkəm binadır. Təməlsiz bina tez uçduğu kimi, uşaqlıqda zəif tərbiyə alan adam da alim və sənətkar olsa belə, çalışdığı sahələrdə büdrəyə-büdrəyə yaşayacaq, elə bir oğul və qızın öz ata-anasına bir xeyri olmadığı kimi, xalqına, vətəninə və hökumətinə də səmərəsiz söyüd ağacı təki olacaq.*

***

*Uşaqların bədi zövqünü doğru istiqamətdə tərbiyə etmək üçün müəllimlərimiz, yaradıcılarımız qabaqcıl dünya elmindən, ədəbiyyatdan, xüsusən bizə daha yaxın olan rus ədəbiyyatından öyrənirdilər... Rus ədəbiyyatı bizə həyati mövzular seçməyi, həyata realist münasibət bəsləmək yollarını öyrədirdi.*

***

*Əsrlərdən bəri ağızdan-ağıza keçmiş, aşıqlarmızın oxuduğu yanıqlı şeirlər, mahnılar, hekayələr, nağıllar... qiymətli bir xəzinədir. Folkloru öyrənmək mənə xalq zövqünü, xalq adət və ənənələrini öyrətdi.*

## Abdulla Şaiq görkəmli şəxsiyyətlər haqqında

***Füzuli*** şeirlərini düşünərək deyil, hiss edərək yazmışdır. Onun lisanı, qəlbi bütün bir şeydir.

***

Durğun köklər kimi sakit görünən qəlbi bəzən coşğun dəniz-lər kimi çalxalanır, bu gün təqlidə yaramayan bu şair öz zamanına görə qüvvətli və mətin bir lisan sahibidir. Sənəti hələ yenicə ədəbi bir lisan şəklinə girmək istəyən Azərbaycan dili təməlləri üzərində qurmuş və müvəffəq də olmuşdur.... Füzuli, Xətai, Həbibi və bir çox digər Azərbaycan şairlərində dilcə, sənətcə ***Nəsiminin*** az çox təsiri görünməkdədir.

***

***Səhhət*** olduqca həssas, şən və kövrək qəlbə malik bir şair idi. Ən kiçik, şən bir hadisə onda böyük bir sevinc doğurduğu kimi, ən əhəmiyyətsiz, həzin bir lövhə və hadisə də onda acı düşüncə, kədər və ruh sıxıntısına səbəb olurdu; mühüm bir faciə isə onun bütün varlığını sarsıda bilirdi.

Səhhət əfəndinin tərcümədə daha artıq məharət və istedadı olduğu üçün rus ədiblərindən ikinci Jukovski deyə bilərik.

***

Mərhumun fərasət və istedadından əlavə, qüvveyi-şeriyyəsi o qədər mətin və kəskin idi ki, hər bir maddeyi-fikri qələmə alırkən sühülətlə və aydın bir tərzdə nəzmə çəkərdi. ***(Seyid Əzim Şirvani haqqında)***

***

***Mirzə Fətəli*** türk (Azərbaycan) tarixi-ədəbiyyatında birinci realist yazıçıdır ki, əsərlərində həqiqəti, həyatı olduğu kimi göstərir.





Axundovun ifşa etdiyi adamların bütün düşüncə, duyğu və ideyaları şairin əxlaqi idealına müxalifdir. Şair öz ideal aləminə yüksələrək, onlara çox yüksəkdən baxır... Onlar şairin yaratmaq istədiyi yeni həyata, yeni aləmə düşmən və əngəl olan və insanlığı zəhərləyən zərərli mikroblardır.

Mirzənin əsərlərində lirik tərzi-ədəbisi yox dərəcəsindədir. Hüsi və xəyaldan ziyadə onun əsərlərində ağıl hakimdir. Tam yarım əsr onu təlqin edən mühərrirlərimiz ona yetişmək deyil, lisan və fikircə ondan çox aşağı qalır. Əsrlərdən bəri sinif ədəbiy-yatının çürük və əsassız nəzəriyyələrinin, çeynənmiş mövzuları-nın təsiri altında bayağı bir rəng almış ədəbiyyatımıza yeni cərə-yan, yeni ruh, yeni rəng verən Mirzə Fətəlidir. Əski ədəbiyyatın lisan və üslubunu gözəl bildiyi üçün də o lisanın təsir və nüfuzun-dan qurtulmayaraq lisanca, mənaca ədəbiyyatımızda yeni, həm də olduqca parlaq bir ədəbi dövr yaratmış olduğundan, Azərbaycan tarixi ədəbiyyatında çox böyük mövqe tutur..

Mirzə Fətəli sənətdə Caviddən çox Sabirə bənzəyir. Cavid hər şeydən ziyadə şairanə tablolardan ilham alır. Həqiqətin şaira-nə əks sədasıdır. O, həqiqəti istədiyi kimi dəyişir, zövqünə görə istədiyi şəklə salır. Sabir isə həqiqəti olduğu kimi təsvim etməyə, bir iki fırça ilə bir rəsm, bir karikatura yaratmağa çalışır...

***

***Vaqif*** Qafqazda türk şairlərinin ən şöhrətlisi, əsrin gözəl bir şairidir.

Mənzumələrində xalqın zəngin, anlayışlı dili, ifadəsi hətta şəkli bir araya toplanaraq canlı və təbii bir damət təşkil etdiyi halda, bunun yanı başında duran əski tərzdə, əruz vəznilə yazdığı parçaları, qəzəlləri, müxəmməsləri, (mədhiyyələri) əski klassik iraniləşmiş Şərq üslubu və görünüşündən ayrılmadığını isbat edir.

***

***Sabir əfəndi*** millətimizin əhvali-ruhiyyəsinə gözəlcə aşina olduğu üçün qələmə aldığı maddəni, fikri elə gözəl və dadlı bir üslubda nəzmə çəkmiş və müxtəlif donlarda, şəkillərdə, əqidələrdə, məsləklərdə aramızda dolaşan milyonlarca... necə ki, var təbii və həqiqi olaraq elə gözəl təsvir edir ki, oxuduqca həmin əşxas hər birisi kəndinə məxsus qiyafəsilə göz önündə birər-birər ötüşməyə başlar, qare biixtiyar o adamlara həm acır, həm də acı bir qəhqəhə qoparmaqdan kəndini saxlayamaz.

Molla Nəsrəddin məcmuəsinin açmış olduğu yeni cərəyan sayəsində ədəbiyyatımız həyat və həqiqətə yaxınlaşaraq həqiqi cərəyanını buldu. O məcmuənin ruhu, şübhəsiz, Mirzə Ələkbər Sabir idi; nasıl ki, Sabirin ruhu məcmuədən ayrıldığı zamandan gündən-günə sönməyə, ölməyə məhkum oldu...

...Sabir və Səhhəti uşaq ədəbiyyatı ilə də maraqlandıran Mahmud əmi olmuşdur. Mahmud əmi hər iki şairin uşaqlar üçün yazdıqları əsərləri və tərcümələrini öz dərsliklərində çap edirdi.

***

***Nərman Nərmanovun*** dili sadə olsa da cümlələrinin quruluşunda Azərbaycan dili üçün təbii olmayan, rus dili qrammatikasına məxsus cəhətlər var idi. Sonralar... anladım ki, bu yalnız Nərimanova məxsus olmayıb, Azərbaycan mühitində rus məktəblərinin təsiri altında yaranmış müəyyən bir dövrün bədii məhsulunun dilidir. Rus məktəblərində təhsil almış bu yazıçılar rus ədəbi dilinə məxsus sadəliyi, bədiiliyi dilimizə gətirməklə yanaşı bəzən istər-istəməz, onun forma xüsusiyyətlərini də gətirirdilər.

***

Biz həyatda bəzən dəniz kimi əngin, fəza kimi dərin, möhtəşəm bir bina kimi heyrətimizə səbəb olan geniş təbiətli, möhkəm iradəli, dərin düşüncəli və istedadlı böyük insanlara təsadüf edirik; bəzən də həşərat kimi həyatda heç bir əhəmiyyəti olmayan





dar fikirli, dar təbiətli insancıqlarla üz-üzə gəlirik. “Molla Nəsrəddin” jurnalının redaktoru ***Cəlil Məmmədquluzadəni*** də mən məhz böyük, qüdrətli bir insan kimi tanımışdım. Odur ki, onun özünə bəslədiyim hörmət məndə satiraya da dərin rəğbət oyatmışdı... Mən də satira sahəsində qələmimi sınamağa başladım.

***

Mən onun (***Süleyman Sani Axundovun***) əsərlərini, xüsusən uşaqlar üçün yazdığı hekayələri oxuyanda bir çox müasirlərindən fərqləndiyini gördüm. Onun dilində olduğu kimi, əsərlərinin məzmununda da humanizm, lirika, müəyyən dərəcədə didaktika var idi. O, tənqiddən çox nəsihətlə, müsbət həyat hadisələrini göstərməklə oxucusuna təsir etməyə çalışırdı. Onun əsərlərində satira yox, lirika hakim idi.

Onun dilində olduğu kimi, əsərlərinin məzmununda da bir humanizim, lirika, müəyyən dərəcədə didaktika var idi.

***

***Mir Mehdi Seyidzadə*** uşaq ədəbiyyatı və bu sahədəki müvəffəqiyyətilə yavaş-yavaş oxucuların, ictimaiyyətin nəzərini cəlb etməyə başladı. Çox çəkmədi ki, uşaqlar Mir Mehdi Seyidzadənin Nərgiz, Ayaz kimi pyeslərinə tamaşa etdilər. Mən Gənc Tamaşaçılar Teatrında çalışdığım zaman həmin pyeslərin tamaşaçılar tərəfindən necə hərarətlə qarşılanmasının alqışlanmasının şahidi olmuşam. Bu əsərləri cavan şair Gənc Tamaşaçılar Teatrının repertuarında orjinal əsərlərin olmadığı, yaxud çox az olduğu dövrdə yazmışdı. Seyidzadə Azərbaycan Sovet uşaq dramaturgiyasının ilk pionerlərindəndir.

***

Cavidin “İblis” nam hailəsi isə tamaşaçılara, oxuyanlara olduqca geniş və yeni bir sahə açır. Cahan müharibəsini tərsim edən bu əsərində Şərq və Qərb həyatı, onların ictimai ruhu və

siyasi əhvalını və yaşamaq üçün çırpınan türk xalqının bəxtiyar olmasına əngəl olan bütün səbəbləri və maneələri həqiqi və canlı surətdə göstərməyə müvəffəq olmuşdur...

***

***Səməd Vurğun*** elə böyük ədəbi, ictimai və siyasi şəxsiyyətdir ki, onun haqqında nə qədər yazsan, nə qədər söyləsən, azdır. O daim icindən çalxanan və daim şiddətlə dalğalanan coşqun bir dənizdir. O, daim xalqını, vətənini və partiyanı düşünür, onlara olan dərin və sonsuz eşqilə yaradır.

Bu görkəmli Xalq şairinin heç bir əsərini, heç bir misrasını, heç bir təbirini xalq mənafeyindən ayrı düşünmək mümkün deyildir. Səmədin özü kimi əsərləri də, düşüncə və arzuları da qırılmaz tellərlə xalqa bağlıdır.

Əziz oğlum Səməd!.. Ey böyük sənətkar! Namuslu oğullar sənin arzu və istəklərini yerinə yetirəcək. Arxayın ol, Səməd can, sənin daim eşq və məhəbbətlə çarpan böyük qəlbini bu gün soyuq məzar bağrına basmışsa, sənin ölməz əsərlərin, sevimli adın həmişə xalqımızın dilində və odlu qəlbində yaşayacaqdır.

***

***Cəfərin*** ilk şeiri "Məktəb" jurnalında dərc olunmuşdur. Bu ilk müvəffəqiyyət yaradıcılığa böyük eşqi olan gəncin hədsiz sevincinə səbəb olmuşdu... Bu sevincin mənasını mən ancaq bir neçə il sonra, Cəfərin böyük yaradıcılıq istedadının şahidi olduğum zaman dərk etmişəm.

***

***Mirzağa Əliyev*** sənəti əsrlər boyu ölməyən bir sənətdir. Bu sənət əsrlər boyu Azərbaycan xalqının qəlbində yaşayacaqdır. Bu sənət bizim aktyorlarımıza bir nümunə olacaq, mədəniyyət tariximizdə görkəmli yer tutaraq yaşayacaqdır.





## Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Abdulla Şaiq haqqında

Abdulla Şaiqin çoxşaxəli fəaliyyətinin böyük bir qismi Azərbaycanda maarifçiliyin müxtəlif sahələri ilə bağlı olmuşdur. Ali və orta təhsil məktəbləri üçün onlarla dərsliyin müəllifi olmuş Abdulla Şaiqin uzunmüddətli pedaqoji fəaliyyəti milli təhsilimizin yeni mərhələyə yüksəlişində mühüm rol oynamışdır.

**Heydər Əliyev,**
*ümummilli lider*

Bu qism sadə dildə yazılmış və mənası öz məişətimizdən götürülmüş əsərlər yenicə başlayır meydana gəlməyə və bu yolda Sizin xidmətinizin qədrü-qiyməti yoxdur... Xırdaca uşaqlar üçün yazılan nağıl, hekayələr nə qədər asan və sadə olsa, nə qədər açıq dildə yazılsa və uşaqların fəhminə yaxın olsa, bir o qədər məzmunda olan mətləblər artıq dərəcədə hasilə gəlib, yaxşı meyvələr gətirər.

**Firidun bəy Köçərli,**
*görkəmli Azərbaycan maarifçisi*

Abdulla Şaiqin insanpərvərlik təbliğ edən məhşur şeirlərindən biri "Həpimiz bir günəşin zərrəsiyiz" sərlövhəli, bir qədər mahnı ruhunda, oynaq vəzn və müvəffəqiyyətli ifadə vasitələri ilə yazılmış şeirdir. 1910-cu ildə yazılmış bu əsərdə insanlığa səmimi bir xitab vardır. Şaiqin fikrincə, bəşər əslən qardaş yaranmışdır. İnsanlar hamısı bir günəşin şüasından əmələ gəlmiş, bir ananın, təbiətin qoynunda böyümüşlər.

**Mir Cəlal,**
*professor*

Gərək Cavadın, gərəksə Cavidin şeirlərində qullandıqları lisan İstanbulun təkamül etməkdə bulunan ədəbi və sadə lisanıdır. Bu iki şairlə bərabər, şimdi mərhum olan Abbas Səhhət ismini də zikir etməliyiz. Çocuqlara məxsus hekayələri ilə məşhur olan Abdulla Şaiqi də unutmayalım.

**Məhəmməd Əmin Rəsulzadə,**
*ictimai xadim*

Doğma vətən torpağına, zəhmətkeş insanlara, Azərbaycanın zəngin təbiətinə sonsuz məhəbbət aşılayan Abdulla Şaiqin uşaq şeirləri qəlbimizdəki Şaiq guşəsinin heç vaxt unudulmaz ən cazibədar xatirələrindən biridir. Zaman keçdikcə bu guşə təzə-təzə lirik şeir, hekayə, poema, povest, roman və pyeslərlə daha da zənginləşmiş, qəlb sahiblərini də uca bəşəri ideallar, zərif insani hisslər və yüksək duyğularla zənginləşdirmişdir.

**Bəkir Nəbiyev,**
*akademik*

Şaiq öz biliyi, insani rəftarı, tələbələrə göstərdiyi atalıq qayğısı ilə müəllimlər içərisində xüsusi yer tuturdu. Bu gün belə tələbəlik günlərinin sönməz bir xatirəsi olaraq Şaiqə dərin ehtiram hissləri yaşayır və yaşayacaqdır.

**Yusif Məmmədəliyev,**
*akademik*

Şaiq kimdir? İyirmi ildən bəridir ki, bütün Azərbaycan gəncliyi pək gözəl tanıyır. Əvət, hər kəscə: o çalışqan və tərcübəli bir müəllim, həssas, nazik bir şair, xülüq səmimi bir insandır. Fəqət məncə: O, bir heçdir ki, gözə çarpan bir çox ulduzlu varlıqlardan daha böyük, daha möhtərəmdir.

**Hüseyn Cavid,**
*yazıçı-dramaturq*

Səninlə məktublaşmağı mən özümə fəxr və səadət bilib də qəbr evinədək kağızımın arasını kəsməməyi sənə söz verirəm.





Özümü yaddan çıxarsam da, səni unuda bilmərəm. Məndən kənarsan, amma yanımdasan, məndən uzaqsan, amma özümdəsən.

Mən Şaiq müəllimin tələbəsi olub, onun tərbiyəsilə böyümüşəm. Mənim tərcümeyi-halımı ondan soruş.

**Cəfər Cabbarlı,**
*yazıçı-dramaturq*

Azərbaycanda Şaiq qədər çoxlu ədəbiyyat dərsliyi tərtib edən ikinci bir müəllif yoxdur. O, müxtəlif zamanlarda on bir ədəbiyyat dərsliyi tərtib etmişdir. Məktəblərimizdə ana dili və ədəbiyyat uzun müddət əsasən Şaiqin dərslikləri üzrə öyrənilmişdir. Bu dərslikləri ədib sadəcə olaraq tərtib etmirdi, onlarda gedən hekayələrin və şeirlərin çoxunu özü yazırdı.

**Abbas Zamanov,**
*Azərbaycan EA-nın müxbir üzvü,*
*professor*

Abdulla Şaiq uşaqlar üçün müntəzəm bədii əsərlər yazan ilk qoca sənətkardır. Bir uşaq yazıçısı kimi Şaiq müəllimliyə borcludur. Onu bu şərəfli yola sövq edən balalarımızın ana dilində bədii əsərlərə böyük ehtiyac hiss etməsi olmuşdur. Abdulla Şaiq bütün bir seriya təşkil edən əsərləri ilə məktəb kitabxanası yaratmışdır. “Tıq-tıq xanım”, “Yaxşı arxa”, “Tülkü həccə gedir”, “Murad”, “Şələquyruq” və bir çox başqaları gənclərimizə ilk dəfə bədii ədəbiyyatı dərk etdirmiş, bədii dili sevdirmişdilər.

**Məmməd Arif,**
*akademik*

Abdulla Şaiqin üslubu vahid bir istiqamətdə inkişaf etmir; o həm realistdir, həm romantik; onun sənətkar xəyalı gah soyuq və dumanlı fəzalara dikilib qalır, gah da konkret tarixi şəraitlə, canlı real varlıqla bağlanır.

**Əli Sultanlı,**
*ədəbiyyatşünas, alim*

Abdulla Şaiqi bir müəllim və bir tərbiyəçi kimi sevdirən səbəblərdən biri də məktəbli gənclərin yaradıcılıq meyllərinə qol-qanad vermək, onların bədii zövqünü və istedadının inkişafına kömək etmək üçün böyük səy göstərməsi idi. Təkcə sinifdə dərs və tərbiyə vermək onu qane etmirdi. Zəkalı və istedadlı uşaqları bir-bir tapıb, onlara göz olmaq, daim qayğı ilə əhatə etmək, yazıçılıq həvəsində olanlara, səhnə eşqilə yaşayanlara, musiqiyə meyl edənlərə ağıllı məsləhətlər vermək müəllim Şaiq üçün dünyada ən xoş məşğələ idi.

**Əziz Mirəhmədov,**
*ədəbiyyatşünas, alim*

Sadəlik, təvazökarlıq Şaiqdə daimi nəzərə çarpan səciyyəvi xüsusiyyətlərdən biri idi... yüksək sadəlik onun təbiəti kimi görünürdü və ya sadəlik, təvazökarlıq onda ikinci təbiət olmuşdu. Görüşlərdə "Böyük xalq müəllimi və şair Abdulla Şaiq" haqqında çox tərif eşidəndə özünü yaxşı hiss etmirdi.

**Məmməd Cəfər,**
*akademik*

Yeni ədəbiyyatın təməl daşını qoyanlardan biri Abdulla Şaiqdir.

Abdulla Şaiq... daxili bir ataş və ilhamla bütün sinfi ələ alırdı. Dərs saatının tez qurtarmağı bizim hamımızda təəssüf hissi oyadırdı. O, hər bir mövzudan bəhs edərkən, az qala bizə sinifdə olduğunu unutdurur, özünün inam və etiqadını bizə də aşılamağı bacarırdı.

**Seyid Hüseyn,**
*yazıçı*

İyirmi il ərzində yorulmadan müəllimlik vəzifəsini ifa edən Abdulla Şaiq ustadımız Azərbaycan hökumətinə bir cox mədəni qüvvələr verməyə müvəffəq olmuşdur.

**Tağı Şahbazi(Simurğ),**
*yazıçı*





Abdulla Şaiq Azərbaycanda uşaq ədəbiyyatının əsasını qoymuşdur. O, uşaq əsərləri ilə yeni nəsillərə dil açmağı, göz açmağı, həyatı, insanları tanımağı, sevməyi öyrədirdi...

**Mikayıl Rzaquluzadə,**
*nasir-şair*

Əziz Abdulla Şaiq, anadan olmanızın 75 illiyi münasibətilə Sizi ürəkdən təbrik edir və Azərbaycanın ən hörmətli qocaman yazıçısına möhkəm cansağlığı və yaradıcılıq nailiyyətləri arzulayırıq.

**Surkov, Leonov, Simonov, Smirnov,**
**Tixonov, Fadeyev və Fedinin.**
*SSRİ Yazıçıları İttifaqı idarə heyəti adından*

Abdulla Şaiqdən tək bir yazıçı, pedaqoq, maarif xadimi, yalnız tənqidçi, ədəbiyyatşünas və dilşünas kimi, yaxud dərsliklər müəllifi, yüksək əxlaqi-mənəvi keyfiyyətlərə malik vətəndaş və şəxsiyyət kimi ayrı-ayrılıqda danışmaq onun haqqında tam təsəvvür oyada bilməz, buna ancaq ədibin çoxşaxəli fəaliyyətini tam halda əhatə etmək və mənalaşdırmaqla nail olmaq olar.

**Kamal Talıbzadə,**
*akademik*

Şaiqdə nadir bir müəllimlik xüsusiyyəti vardı. O, hər tələbənin qəlbinə nüfuz etməyi bacarırdı. O, öz tələbələrinin hansı ailədə nə kimi şəraitdə yaşadıqlarını yaxından öyrənir və hər tələbəyə onun xasiyyətinə görə yanaşmağı bacarırdı. O, həm də çox tələbkar bir müəllim idi... Demək olar ki, ədəbiyyatı bizə çox sevdirənlərdən, ədəbi zövqümüzü tərbiyə edənlərdən biri sevimli ədibimiz Abdulla Şaiq olmuşdu.

**Süleyman Rüstəm,**
*Xalq şairi*

Abdulla Şaiq yazıçı, maarif xadimi və insan olaraq bizim ədəbiyyat tarixində nadir şəxsiyyətlərdən biridir. Onun adı indi də

işıq saçır, indi də böyük hörmətlə yad edilir. Uşaqlarımız onun əsərlərini indi də maraqla oxuyub fərəhli xəyallara dalırlar.

**İlyas Əfəndiyev,**
*Xalq yazıçısı*

Abdulla Şaiqin yaradıcılığı xalqımızın həyatının yarıməsrlik bir dövrünün ədəbi salnaməsidir. Abdulla Şaiqin əsərləri Azərbaycan klassik ədəbiyyatı və xalq yaradıcılığının ən yaxşı ənənələri əsasında yaranmışdır.

**Mirzə İbrahimov,**
*akademik*

XX əsr Azərbaycan mədəniyyəti tarixində görkəmli yer tutan Abdulla Şaiq Talıbzadə xalq müəllimi, şair, nasir, dramaturq kimi şöhrət qazanmışdır.

**Qara Namazov,**
*professor*

Abdulla Şaiq inqilabdan əvvəlki uşaq ədəbiyyatının görkəmli nümayəndəsi və sovet uşaq ədəbiyyatının əsasını qoyanlardandır.

**Zahid Xəlil,**
*professor*

Abdulla Şaiq kimi böyük bir simanın teatrımıza gəlməsini xüsusi qeyd etməliyik. Bu qocaman yazıçımız və müəllimimizin Gənc Tamaşaçılar Teatrına gəlməsi, nəinki teatrın repertuarında böyük dönüş yaratdı hətta istedadlı bəstəkar və rəssamların teatrımıza cəlb edilməsi işinə səbəb oldu.

**Kazım Ziya,**
*SSR Xalq artisti*

Abdulla Şaiq böyük yazıçı olmaqla bərabər, təvazökar, alicənab, səmimi bir insan, qayğıkeş və tələbkar bir müəllim idi. O adamı hec zaman kollektiv qarşısında utandırmazdı. Əgər kollektivdən və ya tamaşaçılardan bir nəfər pis hərəkət etmiş olsaydı





A.Şaiq dolayı yollarla özünə məxsus sakit, mülayim bir tərzdə onu başa salar və düzgün yol göstərərdi.

**Zəfər Nemətov,**
*Əməkdar incəsənət xadimi*

Əgər Şaiq olmasaydı, "Milli qiraətimiz" yox idi. "Müntəxabat" nəşr olunmamışdı, "Ədəbiyyat" dərsliyindən məhrum idik. Türk çələngini görməmiş, Türk ədəbiyyatını eşitməmişdik. Əgər bu kitablar olmasaydı, məktəblərimiz yoxsul, müəllimlərimiz yalavac qalmışdı. Sözün qısası: onun varlığındakı əhəmiyyəti layiqilə idrak edə bilmək üçün bircə dəqiqəlik yoxluğunu düşünməli!

**Qafur Əfəndizadə,**
*ədəbiyyatşünas, alim*

Azərbaycanda olan bu intibah dövrünün ən böyük qəhrəmanı sayılan Abdulla Şaiqin namı dünya durduqca tarixi-ədəbiyyatımızda baqi olacaq.

**Şəfiqə Əfəndizadə,**
*ədəbiyyatşünas, alim*

Şaiq - əvvəla ruhundakı inciklik və heysiyyət etibarı ilə ən yüksək bir insandır. Şaiq cəmiyyətimizin yetişdirdiyi əxlaqi bəndlər üzərində bir şəhiqədir ki, çıxılması ancaq Şaiq kimi ictimai iradə və fəaliyyətə malik adamlara mübaliğəyə gəlməzsə, dahilərə məxsusdur.

**Atababa Musaxanlı,**
*ədəbiyyatşünas-tənqidçi*

Mərhum Şaiq bizim hamımızı özünün kölgəsində saxlayan qocaman bir dağ idi. Mehriban, səmimi və ürəyi məhz yumşaqlıqla dolu həqiqi ata və müəllim idi. Əvəzedilməz dost və yoldaş ömrünün son dəqiqələrinə qədər xalqına xidmətdən əl götürmədi. Unudulmaz bir insan, müəllim və şair Şaiqin heykəli daima gözümüz qarşısındadır... Xalqımızın ona olan məhəbbəti böyük rəhmətdir.

**Camo Cəbrayılbəyli,**
*ictimai xadim*

C.Cabbarlı, H.Cavid, S.Hüseyn, A.Şaiq, M.Müşfiq kimi yoldaşların hal-hazırda öz məharətli qələmləri ilə sosializm quruluşuna xidmətə çalışmaları axırıncı ildən ən görkəmli müvəffəqiyyətlərdən sayılmalıdır....

**Əlisəttar İbrahimov,**
*yazıçı*

Abdulla Şaiq, demək olar ki, ədəbi fəaliyyətə başladığı gündən son illərədək şeir yazmışdır. Lakin o, öz istedadını daha parlaq şəkildə nəsr, dramaturgiya janrında, uşaqlar və gənclər üçün müxtəlif əsərlər yazmaq sahəsində göstərdiyi üçün diqqətini də, gücünü də daha çox bu işə vermiş, fərəhli nəticələr əldə etmişdir.

**Yaqub İsmayılov,**
*ədəbiyyatşünas, alim*

Şaiq müəllim özü pak, təmiz, vicdanlı, sadə, sərvətdən, şöhrətdən yuxarıda duran, ürəyi xalq məhəbbəti ilə dolu insan, müəllim, yazıçı idi.

**Yaqut Dilbazi,**
*ədəbiyyatşünas*

Firudin Köçərli ilə başlayan çocuqlara məxsus ədəbiyyat, ağır tempo ilə irəliləməsinə rəğmən Abdulla Şaiqdə ən iyi bir hamisini bulmuşdur.

**Əhməd Cəfəroğlu,**
*ədəbiyyatşünas*

Şaiq məfkurə baxımından təmamən milliyətçi, türkçü, hətta turançı bir münəvvərdi. Sovet hökumətinin ilk sənələrində qələmə alınmış bulunduğu mütəəddid dərs kitablarından belə bu türkçülüyü və turançılığı gözə çarpmaqdadır.

**Əbdülvəhab Yurdsevər,**
*türk yazıçısı*





Biz bütün müəllimlər ruhən Şaiqə bənzəyə bilsək, nə mutlu!

**Xəlil Fikrət,**
*türk yazıçısı və pedaqoqu*

Nə diyorlar, bəşərlə firdovsə
Dönəcəkmiş, deyilmi dünyamız?!
Biri: İnsan mələk olurmu desə
Bən derim: Bir misalı var bakınız,
Bu təbii şüari-munisinə,
Bəncə: Şaiq nümunədir mələkə!...

**İsmayıl Hikmət,**
*türk alimi*

Шаик – яркий, самобытный писатель, внесший в развитие азербайджанской педагогики, литературы большой вклад. Его чудесные сказки, басни, замечательные рассказы составляют золотой фонд классической азербайджанской детской литературы. В них - глубокое знание писателем возрастных особенностей детей, любовь к детьям, умение развить в детях высокие нравственные качества.

**Касимова Н.Ф.,**
*академик*

# I HİSSƏ

# Ə S Ə R L Ə R İ

## Kitablar

### 1906

**1. İki uşaq:** mənzum hekayə /Abdulla Şaiq.- Bakı: Orucov qardaşları mətbəəsi, 1906.- 32 s. Ərəb əlifbasında.

### 1907

**2. Uşaq çeşməyi**: dərslik /Abdulla Şaiq.- Bakı: A.M.Promıjlyanskinin tipo-litoqrafiyası, 1907 .- 15 s. Ərəb əlifbasında.

*Kitabın içindəkilər:* Uşaq çeşməyi [S.13]; Aslan və qurbağa [S.13-14], Bir quş [S.14]; L.Tolstoydan tərcümələri: İt [S.14]; Tülkü və aslan [S.15], Şir və siçan [S.15].

### 1910

**3. Gülşəni-ədəbiyyat:** dərslik /Abdulla Şaiq.- Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1910 .- 79 s. Fars dilində.

*Kitabın içindəkilər:* Müjdə bər müşan (siçanlara müjdə) [S.6]; Əntər və eynək (Meymun və gözlük) [S.29-30]; Do kav (iki öküz) [S.41-42]; Gürk və gürbə (Qurt və pişik) [S.67-70]; Zağ və rübah (Qarğa və tülkü) [S.71-73].

**4. Uşaq gözlüyü:** Evdə və məktəbdə oxumaq yazmağına xidmət edən bir kitabça /Abdulla Şaiq.- Bakı, 1910.- 54 s. Ərəb əlifbasında.

*Kitabın içindəkilər:* Tənbəl və səyli [S.27]; Xoruz [S.27]; Rəhimli Nəbi [S.27]; Uşaq və dovşan [S.27-28]; Qaraçı [S.28]; Tərs keçilər [S.28]; Aslan və Məryəm [S.28]; Bizim külfət [S.29]; Ata məhəbbəti [S.29]; Fəqir [S.29]; Bizim ev [S.30-31]; Yetim





[S.31]; Bir quş [S.31]; Uşaq gözlüyü [S.32]; Dərs otağı [S.32] Lay-lay [S.33-34]; Hər şeyin öz yeri var [S.34]; İki məktəbli [S.34]; Yetim cücə [S.35]; Qarı və toyuq [S.35]; Kor və it [S.36]; Qaz və durna [S.36-37]; Ata məhəbbəti [S.38]; Tamahkar uşaq [S.38-39]; Sığırçın və göyərçin [S.39]; Bildiyin şeyi soruşma [S.40]; Ehtiyatsız qarı [S.40] Mehriban qız [S.40-41]; Arı və qarğa [S.41]; At və it [S.41-42]; Yeni köməkçi [S.45]; Yalançı [S.45-46]; Təpəl Kəlim [S.46]; Sünbül [S.46]; Çoban mahnısı [S.47]; Quru odun parçası [S.47]; Bir quş [S.48]; Düçüncəsiz uşaq [S.48-49]; Özündən yuxarı baxanda aşağı da bax [S.49]; Payız [S.50]; Ehtiyatsız uşaq [S.50]; Külək [S.51]; İki balıqçı [S.51]; Payızın axır ayı [S.52]; Qış [S.52]; Od [S.53].

### 1911

**5. Tıq-tıq xanım:** Tülkü, qarğa, hacıleylək /Abdulla Şaiq.- Bakı: Kaspi mətbəəsi, 1911.- 16 s.

*Kitabın içindəkilər:* Dozanqurdu [S.3-14]; Tülkü və xoruz [S.14-16].

**6. Tülkü və xoruz:** [uşaqlara məxsus qiraət kitabçası] /Abdulla Şaiq.- Bakı: Kaspi mətbəəsi, 1911.- 15 s. Ərəb əlifbasında.

**7. Uşaq çeşməyi:** Evdə və məktəbdə oxumaq yazmağına xidmət edən bir kitabça /Abdulla Şaiq, M.Mahmudbəyzadə və b.- II çapı.- Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1911.- 56 s., şəkilli. Ərəb əlifbasında.

*Kitabın içindəkilər:* Xoruz [S.28]; Uşaq və dovşan [S.28-29]; Tərs keçilər [S.29]; Aslan və Məryəm [S.30]; Bizim külfət [S.30]; Ana məhəbbəti [S.30-31]; Fəqir [S.31]; Bizim ev [S.31-32]; Yetim [S.32]; Bir quş [S.32]; Uşaq gözlüyü [S.33]; Dərs otağı [S.33]; Laylay [S.34-35]; Hər şeyin öz yeri var [S.35]; Qoca və əzrayıl [S.35-36]; Yetim cücə [S.36]; Qarı və toyuq [S.36]; Kor və it [S.37]; Qaz və durna [S.37]; Ata məhəbbəti [S.39]; Tamahkar uşaq [S.39]; Tülkü və aslan [S.39-40]; Sığırçın və göyərçin [S.40]; Keçi [S.40]; Bildiyin şeyi soruşma [S.40-41]; Ehtiyatsız qarı [S.41]; Mehriban qız [S.41]; Yersiz höcət [S.41]; Arı və

qarğa [S.42]; At və it [S.42]; Səhər [S. 45]; Taxıl [S.45-46]; Yeni köməkçi [S.47]; Çoban mahnısı [S.50]; Qonaqlıq [S.50-51]; Bir quş [S.51]; Düşüncəsiz uşaq [S.51-52]; Özündən yuxarı baxanda aşağı da bax [S.52]; Payız [S.53]; Payız gecəsi [P.53]; Ehtiyatsız uşaq [S.53-54]; Külək [S.54]; Qış [S.55-56]; Od [S.56].

**8. Yaxşı arxa** (Tülkü, qarğa, hacıleylək) /Abdulla Şaiq.- Bakı: Kaspi mətbəəsi, 1911.- 18 s.

**1912**

**9. Bədbəxt ailə:** kiçik roman /Abdulla Şaiq.- Bakı: Orucov qardaşları mətbəəsi, 1912 .- 42 s.

*Kitabın içindəkilər:* Noheyi iştika: **(**şeir); Bədbəxt ailə (roman).

**10. Cəfər və Bəşir:** mənzum hekayə /Abdulla Şaiq.- Bakı: Orucov qardaşları mətbəəsi, 1912.- 34 s.

**11. Gözəl bahar:** pyes /Abdulla Şaiq.- Bakı: Orucov qardaşları mətbəəsi, 1912 .- 24 s.F

**12. Gülzar:** Üçüncü sənədən sonra məktəblərdə oxunacaq qiraət kitabı /Abdulla Şaiq.- Bakı: Orucov qardaşları mətbəəsi, 1912.- 287 s.

*Kitabın içindəkilər:* İki qırlanğıç [S.3-4]; Daşqın, yaxud hümmətli cavan [S.4-6]; Bəxtiyarlığım, yaylağa köçməyimiz [S.9-14], Oba [S.14-15]; Gündüzlərim [S.16-20]; Kərim baba və ayrım qızı [S.20-24]; Qızıl it [S.24-26]; Pələg ovu [S.26-33]; Sumsu [S.33-36]; Can qorxusu [S.36-38]; Yağış [S.38-42]; İgid çocuq [S.43-45]; Zavallı quş (bir quş yavrusu) [S.46-47]; Lövhe-yi-qürub (Mərhəmətli Ədhəm poemasından bir parça) [S.47-48]; Son bahar [S.60]; Qış [S.66-67]; Qış gecəsi [S.68-69]; Hamımız bir günəşin zərrəsiyik [S.70]; Lay-lay [S.72-73]; Əşrəf ("Əsrimizin qəhrəmanları" romanından bir parça) [S.74-81]; Köy düyünü [S. 97-98]; Gələcək qorxusu [S.106-107]; Sail (Çexovdan tərcümə) [S.107-111]; İntizar [S.111-112]; İntiharmı, yaşamaqmı? [S.121-126]; Cəhalətlə mücadilə [S.127]; Vətənə övdətimdə [S.130-131]; Həzrəti Ömərin halı [S.131-134]; Şəhidi-





dəsti-cəhalət olan Hacı molla Ruhulla Axundun ruhuna ithaf [S.136-139]; Molla Pənah Vaqifin tərcümeyi-halı [S.174-178]; Mirzə Fətəli Axundovun tərcümeyi halı [S.181-183]; Hacı Seyid Əzim Şirvaninin tərcümeyi-halı [S.203-206]; Ədibi şəhir Əlibəy Hüseynzadə cənablarının tərcümeyi-əhvalı [S.210-211]; Sabir Əfəndinin tərcümeyi-halı [S.220-225]; Mərhum Sabir Əfəndiyə [S.232-235]; Səhhət təxəllüs Mirzə Abbasqulu Mehdizadə cənablarının tərcümeyi-halı [S.235-236]; Firidun bəy Köçərliyə həsr etdiyi "Yazamam" şeiri. [S.242-244]; Qaçaq (Lermontovdan tərcümə) [S.269-275].

**1913**

**13. Gözəl bahar**: pyes /Abdulla Şaiq.- Bakı: Orucov qardaşları mətbəəsi, 1913 .- 30 s.

**14. Kimdir haqlı?:** ikipərdəli mənzum komediya, Tolstoydan iqtibas /Abdulla Şaiq.- Bakı: Orucov qardaşları mətbəəsi, 1913 .- 39 s. Ərəb əlifbası.

**15. Murad:** hekayə /Abdulla Şaiq.- Bakı: Orucov qardaşları mətbəəsi, 1913 .- 16 s.

**16. Şələquyruq:** hekayə /Abdulla Şaiq.- Bakı: Orucov qardaşları mətbəəsi, 1913.- 15 s. Ərəb əlifbası.

**17. Ürək tikmək yaxud qurban bayramı:** [uşaqlar üçün birpərdəli mənzum dram] /Abdulla Şaiq.- Bakı: Kaspi mətbəəsi, 1913.- 13 s.

**1915**

**18. Uşaq gözlüyü /**Abdulla Şaiq.- IV çapı.- Bakı: Orucov qardaşları, 1915 .- 56 s.

*Kitabın içindəkilər:* Xoruz [S.28]; Rəhimli Nəbi [S.28]; Tərs keçilər [S.29]; Aslan və Məryəm [S.30]; Uşaq və dovşan [S.28-29]; Qaraçı [S.29]; Bizim külfət [S.30]; Fəqir [S.31]; Bizim ev [S.31-32]; Yetim [S.32]; Uşaq gözlüyü [S.33]; Dərs otağı [S.33]; Lay-lay [S.34]; Kor və it [S.37]; Qaz və durna [S.37]; Yetim cücə [S.36]; Qarı və toyuq [S.36]; Tamahkar uşaq [S.39]; Tülkü və

aslan [S.39-40]; Ata məhəbbəti [S.39]; Ehtiyatsız qarı [S.41]; Mehriban qız [S.41]; Yersiz höcət [S.41]; Sığırçın və göyərçin [S.40]; Keçi [S.40]; Bildiyin şeyi soruşma [S.40-41]; Arı və qarğa [S.42]; At və it [S.42]; Səhər [S.45]; Paxıl [S.45]; Yeni köməkçi [S.47-48]; Yalançı [S.48]; Təpəl Kəlim [S.48-49]; Sünbül [S.49-50]; Çoban mahnısı [S.50]; Qonaqlıq [S.50-51]; Bir quş [S.51]; Düşüncəsiz uşaq [S.51-52]; Özündən yuxarı baxanda aşağı da bax [S.52]; Payız [S.53]; Payız gecəsi [S.53]; Ehtiyatsız uşaq [S.53-54]; Külək [S.54]; İki balıqçı [S.54-55]; Payızın axırı [S.55]; Qış [S.55-56]; Od [S.56].

### 1917

**19. Uşaq gözlüyü** /Abdulla Şaiq.- V çapı.- Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1917.- 57 s. şəkilli.

*Kitabın içindəkilər:* Xoruz [S.28]; Uşaq və dovşan; Ana məhəbbəti [S.30-31]; Fəqir [S.31]; Yetim [S.32]; Lay-lay [S.34-35]; Hər şeyin öz yeri var [S.35]; Qoca və əzrayıl [S.35-36]; Yetim cücə [S.36]; Qarı və toyuq [S.36-37]; Kor və it [S.37]; Qaz və durna [S.37]; Ata məhəbbəti [S.39]; Tamahkar uşaq [S.39]; Tülkü və aslan [S.39-40]; Sığırçın və göyərçin [S.40]; Keçi [S.40]; Bildiyin şeyi soruşma [S.40-41]; Ehtiyatsız qarı [S.41]; Mehriban qız [S.41]; Yersiz höcət; Arı və və qarğa [S.42]; At və it [S.42]; Səhər [S.45]; Taxıl [S.45-46]; Yeni köməkçi [S.47]; Yalançı [S.48]; Təpəl Kəlim [S.48-49]; Sünbül [S.49- 50]; Çoban [S.50]; Qonaqlıq [S.50-51]; Bir quş [S.51]; Düşüncəsiz uşaq [S.51-52]; Özündən yuxarı baxanda, aşağı da bax [S.52]; Payız [S.53]; Payız gecəsi [S.53]; Ehtiyatsız uşaq [S.53-54]; Külək [S.54]; İki balıqçı [S.54-55]; Payızın axır ayı [S.55]; Qış [S.55-56]; Od [S.56].

### 1919

**20. Milli qiraət kitabı**: I dərəcəli məktəblərin IV, V siniflərinə məxsusdur /Abdulla Şaiq.- Bakı: Birinci hökumət mətbəəsi, 1919.- 228 s.





*Kitabın içindəkilər:* Dağlar soltanı [S.21-23]; Lövheyi-qürub (Mərhəmətli Ədhəm poemasından bir parça) [S.43-44]; Simurq [S.137-139].

**21. Müntəxəbat**: [Türk ədiblərindən nümunələr] /Abdulla Şaiq, M.Mahmudbəyov.- Bakı, 1919.- 303 s.

*Kitabın içindəkilər*: Vətənə övdətimdə [S.23-25]; Köç [S.39-100]; Dağlar soltanı [S.53-56]; Lövheyi-qürub [S.101-102]; Əşrəf (Zəmanəmizin qəhrəmanları romanından) [S.193-202].

**22. Türk çələngi:** Ruşdi və edadi məktəblərinin III-IV siniflərinə məxsusdur /Abdulla Şaiq.- Bakı: Hökumət mətbəəsi, 1919.- 405 (7) s. Ərəb əlifbası.

*Kitabın içindəkilər:* Vətənin yanıq səsi [S.19-28]; Yeni ay doğarkən [S.43-45]; İki mücahid [S.60-63]; Vaqif [S.348]; Hacı Seyid Əzim Şirvani [S.357-358]; M.Ə.Sabir [S.371-372]; Hüseyn Cavid [S. 390-391].

**23. Uşaq gözlüyü:** dərslik /Abdulla Şaiq.- VI çapı.- Bakı: İran mətbəəsi, 1919.- 56 s., şəkilli.

*Kitabın içindəkilər:* Xoruz [S.26]; Uşaq və dovşan [S.26-27]; Laylay [S.32-33]; Yetim cücə [S.34]; Qarı və toyuq [S.34]; Kor və it [S.35], Qaz və durna [S.35], Ana məhəbbəti [S.37]; Tamahkar uşaq [S.37], Tülkü və aslan [S.37-38], Keçi [S.38]; Sığırçın və göyərçin [S.38], Bildiyin şeyi soruşma [S.38-39]; Ehtiyatsız qarı [S.39]; Mehriban qız [S.39]; Yersiz höcət [S.39]; Arı və qarğa; At və it [S.40]; Səhər [S.43]; Paxıl [S.43-44]; Yeni köməkçi [S.45-46]; Yalançı [S.46]; Təpəl Kəlim [S.46-47]; Sünbül [S.47-48]; Çoban mahnısı [S.48]; Qonaqlıq [S.48]; Bir quş [S.49]; Düşüncəsiz uşaq [S.49-50]; Payız [S.51]; Ehtiyatsız uşaq [51-52]; Külək [S.52]; İki balıqçı [S.52-53]; Payızın axır ayı [S.53]; Qış [S.53]; Od [S.54]; Sultan dağı [S.55]; Çoban [S.55]; Çifci [S.56].

**24. Vətən** /Abdulla Şaiq.- Bakı: Birinci hökumət mətbəəsi, 1919.- 30 s.

## 1920

**25. Türk ədəbiyyatı:** II dərəcəli məktəblərin I-II siniflərinə məxsusdur /Abdulla Şaiq.- Bakı: Azərbaycan Xalq Maarif Komissarlığı nəşriyyatı, 1920.- 212 s.

*Kitabın içindəkilər:* Məmmədəli bəy [S.29]; Hacı Seyid Əzim Şirvani [S.39]; Mirzə Ələkbər Sabir [S.49]; Ədhəm Hikmət bəy [S.101]; Rza Tofiq bəy [S.135]; Hüseyn Cavid [S.171]; Cənab Şəhabəddin bəy [S.203].

## 1921

**26. Şələquyruq:** hekayələr /Abdulla Şaiq.- II çapı.- Bakı: Ali siyasi maarif müdiriyyətinin Dövlət nəşriyyatı, 1921.- 110 s.

*Kitabın içindəkilər:* Şələquyruq [S.2-17], Murad [S.18-33], Yaxşı arxa [S.34-52], Tülkü və xoruz [S.53-65]; Cəfər və Bəşir [S.66-90]; Tıq-tıq xanım [S.91-101]; Tülkü və xoruz [S.102-103]; Alma oğruları [S.104-111].

**27. Yazıya pozu yoxdur:** hekayə /Abdulla Şaiq.- Bakı: Birinci hökumət mətbəəsi, 1921.- 13 s.

## 1922

**28. Milli qiraət kitabı**: I dərəcəli məktəblərin IV, V siniflərinə məxsusdur /Abdulla Şaiq.- II nəşri.- Bakı: Birinci hökumət mətbəəsi, 1922.- 232 s.

*Kitabın içindəkilər:* Köç [S.12-44]; Lövheyi-qürub [S.46]; Son bahar [S.64-65]; Simurq [S.141-143]; Məhəmməd Əmin [S.158]; Mirzə Abbasqulu Səhhət [S.214-215]; Mirzə Ələkbər Sabir [S.219-220]; Hüseyn Cavid [S.225-226].

## 1923

**29. İkinci dərəcəli məsai məktəblərin proqramı** /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1923 .- 17 s.

## 1924

**30. Qiraət kitabı** /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1924.- 144 s. Ərəb əlifbasında.





*Kitabın içindəkilər:* Hamımız bir günəşin zərrəsiyik! [S.1-2]; Köç [S.2-27]; Lövheyi-qürub (Mərhəmətli Ədhəm poemasından bir parça) [S.28]; Son bahar [S.42-43]; Şahin nəğməsi (M.Qorkidən tərcümə) [S.51-53]; Dilənci (A.Çexovdan tərcümə) [S.58-60]; Tərcümeyi-hallar: Molla Pənah Vaqif [S.78-79]; Molla Vəli Vidadi [S.81-83]; Mirzə Abbasqulu Səhhət [S.86-91]; Hüseyn Cavid [S.97-100].

**31. Türk dili** (Uşaq gözlüyü): dərslik /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1924 .- 80 s. Ərəb əlifbasında.

*Kitabın içindəkilər:* Xoruz [S.33]; Kəndli və ilan [S.47]; Tənbəl və çalışqan; Bizim külfət; Mehriban qız [S.48]; Nənəciyim; Ana məhəbbəti; Aslan və Məryəm [S.51]; Lay-lay [S.51]; Kiçik və böyük təkər; Keçi [S.53-54]; Kamalı çocuq [S.54-55]; Öksüz cücə [S.55]; Qarı və toyuq [S.55-56]; Kor və it [S.56]; Qaz və durna [S.57]; Tamahkar uşaq [S.59]; Sığırçın və göyərçin [S.60]; Ehtiyatsız qarı [S.60]; Yersiz höcət [S61]; Arı və qarğa [S.61]; Yağış [S.68]; Yalançı [S.68-69]; Təpəl Kəlim [S.69-70]; Çoban mahnısı [S.71]; Çifci [S.72-73]; Düşüncəsiz uşaq [S.74], Özündən yuxarı baxanda aşağı da bax [S.74-75]; Payız [S.76]; Çoban [S.76]; Ehtiyatsız uşaq; Külək [S.77-78]; Payızın son ayı [S.78].

**32. Türk ədəbiyyatı:** İkinci dərəcəli məktəblərin I-II siniflərinə məxsusdur /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1924.- C.II.- 335 s.

*Kitabın içindəkilər:* Bir qac söz [S.3]; Anabacı [S.43-54]; Məhəmməd Hadi Əbdülsəlimzadə [S.159-165]; Mirzə Ələkbər Sabir [S. 91-96]; Məhəmməd Hadi [S.96].

**33. Türkcə sərf-nəhv** /İ.Hikmət, A.Şaiq, S.Mirqasımzadə və b.- Bakı: Azərnəşr, 1924 .- 147 (5) s. Ərəb əlifbasında

Kitabda türk dilinin qammatikasından (əsasən fonetikadan) bəhs olunur.

## 1925

**34. Qiraət kitabı** /Abdulla Şaiq.- Bakı: Mərkəzi yeni türk əlifba komitəsi nəşriyyatı, 1925 .- 163 s.

*Kitabın içindəkilər:* Dağlar soltanı [S.14-16], Lövheyi-qürub [S.41-42]; Son bahar [S.58].

**1926**

**35. Anabacı:** hekayə /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1926.- 16 s.

**36. Göbələk**: hekayə /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1926.- 15 s.

**37. Köç:** hekayə /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1926.- 56 s.

**38. Məktub yetişmədi; Ağlaşma**: hekayələr /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1926.- 22 s.

**39. Müəllim:** hekayə /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1926.- 38 s.

**40. Tülkü həccə gedir** /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1926.- 40 s. Ərəb əlifbasında.

**1927**

**41. İldırım:** beşpərdəli dram /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1927.- 91 s. Latın əlifbasında.

**42. İldırım:** beşpərdəli dram /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1927.- 91 s . Ərəb əlifbasında.

**43. Tülkü həccə gedir:** hekayələr /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1927 .- 39 s. Ərəb əlifbasında.

*Kitabın içindəkilər:* Murad; Yaxşı arxa; Şələquyruq; Tülkü həccə gedir.

**44. Tülkü həccə gedir:** hekayələr /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1927.- 63 s. Latın əlifbasında.

*Kitabın içindəkilər:* Murad; Yaxşı arxa; Şələquyruq; Tülkü həccə gedir.

**1929**

**45. Məktub yetişmədi; Ağlaşma:** hekayələr /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1929.- 22 s.





**1930**

**46. Şeirlər və hekayələr:** ortayaşlı uşaqlar üçün /Abdulla Şaiq; red. Ə.Vəliyev.- Bakı: Uşaqgəncnəşr, 1930 .- 80 s.

*Kitabın içindəkilər:* Ana yurdum; Vətən nəğməsi; Kolxoz yazı; Pionerlərə; Döyüş nəğməsi; Zərbəçi; Köç; Bir may; Dəmirçi nəğməsi; Təmizlik; Kür çayı; Bahar; Qızıl gül; Qərənfil; Bənövşə; Bülbül; Keçi; Quzu; Aslan, qurd və tülkü; Kəpənək; Arı; Yağış; Uşaq və dovşan; Tülkü və qurd; Sehrli üzük; Oyunçu bağalar; Timsah ovu.

**1933**

**47. Bədbəxt ailə:** kiçik roman /Abdulla Şaiq.- Bakı: Orucov qardaşları mətbəəsi, 1933 .- 42 s.

**48. Eşşək üstündə səyahət:** məzmun hekayə /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1933 .- 10 s. Ərəb əlifbasında.

**49. Seçilmiş hekayələr** /Abdulla Şaiq; red. H.Mehdi.- Bakı: Azərnəşr, 1933.- 180 s.

*Kitabın içindəkilər:* Məktub yetişmədi; Ağlaşma; Göbələk; Anabacı; Köç; Vəzifə; Dursun; Özü bilsin mənə nə!; Əsəbi adam.

**1934**

**50. Çocuq şeirləri** /Abdulla Şaiq; red. M.Seyidzadə; rəss. Ə.Hacızadə.- Bakı: Azərnəşr, 1934.- 16 s.

*Kitabın içindəkilər:* Mayıs nəğməsi; Çocuq və dovşan; Xoruz; Keçi; Təmizlik; Quzu; Cırcırama və qarışqa.

**51. Eşşək üstündə səyahət:** məzmun hekayə /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1934.- 10 s.

**52. Oyuncu bağalar:** hekayə /Abdulla Şaiq; red. M.H.Seyidzadə; rəs. Ə.Hacıyev.- Bakı: Azərnəşr, 1934.- 38 s.

Hekayədə Qanvay öz bağalarına rəqs etməyi öyrədir. Bağalar insanların qarşısında oynayanda hamının təəccübünə və marağına səbəb olur.

**53. Tülkü həccə gedir:** mənzum hekayə /Abdulla Şaiq; red. M.H.Seyidzadə.- II çapı.- Bakı: Azərnəşr, 1934.- 48 s.

*Kitabın içindəkilər:* Tülkü həccə gedir; Murad; Yaxşı arxa.

**1935**

**54. Eşşək üstündə səyahət:** məzmun hekayə /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1935.- 12 s.

**55. Oyuncu bağalar:** hekayə /Abdulla Şaiq.- Bakı: Azərnəşr, 1935.- 38 s. Ərəb əlifbasında.

**1936**

**56. Oyuncu bağalar:** hekayə /Abdulla Şaiq; red. M.H.Seyidzadə.- Bakı: Azərnəşr, 1936.- 39 s. Latın əlifbasında.

**57. Seçilmiş əsərləri:** 3 cilddə /Abdulla Şaiq; red. M.İbrahimov; müqəddimə M.İbrahimov.- Bakı: Azərnəşr, 1936.- C.I.- 273 s.

